# ULDUZ

№07 (626)

WWW.AZYB.AZ
WWW.AYB.AZ

AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ İYUL 2021



İntiqam Yaşar: özüylə söhbəti və şeirləri
“Bir masa ədəbiyyat”
Tarix müəllimindən Şüşa xatirəsi
Livelin Voqan Li: “Aşiq və məşuq”
Qısa fikirlər xəzinəsi
Dərgidə kitab

# BU SAYIMIZDA




3
İntiqam YAŞAR
özüylə söhbəti
və şeirləri



6
İlhamə NASİR
Qırmızı darvaza

qısa fikirlər
xəzinəsi
9



14
Məlik ATİLAY
Hindu nəğməsi



16
Günay SƏMA
ŞİRVAN
Haqqın cəzasi



22
Elşad BARAT
elegiya

25
tərcümə saatı



29
Əlizadə NURİ
Sənin adına
şəhər



32
Nihat PİR
Artıq gecdir...

36
Vaqif YUSİFLİ
tənqid



43
Ziya
QARATƏKİN
türk eli

44
Ruslan MOLLAYEV
Elektrik





Nazim ƏHMƏDLİ
şeir vaxtı
46





Nadir RZALI
“Bir masa ədəbiyyat”
49

53
Məleykə MİRZƏLİ
Tarix müəllimindən Şüşa xatirəsi





Şahnaz ŞAHİN
Payız
55

56
Nurlana İŞIQ
Ulduzların yanında







59
Qalib ŞƏFAHƏT
Eynullanın ikinci toyu





62
Nərgiz MƏHƏRRƏMZADƏ
Söhbət

63
Mina RƏŞİD
Bura bizim vətəndi!





66
Aida ADIGÖZƏL
Yaz etirafı

69
Abid TAHİRLİ
tribuna

73
İmdat AVŞAR
türk eli

77
dərgidə kitab






**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və "Ulduz" jurnalının kollektivi



**Baş redaktor**
Qulu Ağsəs

**Redaksiya heyəti**
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər Əhməd
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Cavid Zeynallı
Məşhəti Musa
Elşən Əzim
Nargis
Şəfa Vəli
Şahanə Müşfiq
Allahşükür Ağa
Türkan Turan
Ulucay Akif
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Moskva)
Günay Səma Şirvan
(Voronej)

**Bədii redaktor**
Ədalət Həsən



Ünvanı: AZ1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
www.ayb.az
**Telefon: 498-72-43**
Çapa imzalanıb: 23.07.2021
"Ulduz" jurnalı redaksiyasında yığılıb, səhifələnib.
**"ASPOLİQRAF LTD" MMC-də** çap olunub.
Sifariş №248, Tiraj: 300
Qiyməti: 2 man.
**1967-ci ildən çıxır.**
**Şəhadətnamə № 238**




**"AZƏRMƏTBUATYAYIMI"
AÇIQ SƏHMDAR
CƏMİYYƏTİ**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"QAYA"
MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"EKSPRESS"
MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "EKSPRESS" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**Jurnalın**

**1 aylıq abunə qiyməti – 2.00 man.**

**6 aylıq abunə qiyməti – 12.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**440 – 27 – 85
440 – 39 – 83
440 – 46 – 94**

**564 – 63 – 45
598 – 35 – 22
556 – 67 – 13
564 – 48 – 96**

**437 – 28 – 10
408 – 17 – 51**

**nömrəli telefonlara zəng edə bilərlər.**

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

İntiqam YAŞAR

# Özüylə söhbəti...



**– Şairin sözü olsun, salama dəyirmi qarşılaşmamız?**

– Bəlkə də, dəyir.

**– Onda salam.**

– Salam.

**– Yorğun görünürsən.**

– Yormağa kimsəni tapmadım deyə, yoruldum. Odur ki, kimsədən şikayətim yoxdur.

**– Bir sözlə nə olar?**

– Bir sözlə həyat olar. Bir sözlə ömür olar. Bir sözlə eşq olar. Bir sözlə ümid olar. Bir sözlə,…

**– Şeirlə yol getmək asandırmı?**

– Bəlkə də, şeirlə yol getmirəm. Şeirlə gedilən yol tikanlıdır, bəlkə də. Ona görə yol demək də olmur. Şeir uzun yola yorulur. Şeir anidir. Bir udum hava kimi. İkinci dəfə eynisini düşünmə. Bir az da zövq, düşündükcə susa biləcəyin qədər zövq.

**– Şeir kimdir?**

– Şeir bəzən yağışlı gündüzlərdi,
Şeir bəzən zəhər dadan gecələrdi.
Şeir susuz səhralardı,
Saçlarını küləklərə öpdürdüyün bozqırlardı...
Şeir içində qəfəslənmiş sualdı,
Barmaqları nəfəslik istər sinəmin sol küncündən.
Bu qış gecəsində ürəyim necə alovlanardı,
Şeir kimdisə, nədisə, şeirə halaldı.

Dünyada insan oğlunun ən birinci və ən səmimi yaradıcılığı şeir olub, fikrimcə. Şeirin ruhundakı sehrin varlığı bax o səmimiyyətdir. Şeirə ömür uduzmaq həyatla 1-1 hesab deməkdir. Şeirsiz hamı həyata uduzur onsuz da. İnsan oğlunun ömrü yetdikcə rəqabət istəyər, amma nəfəs dərməyə oyunun sonunda fürsət verilir yalnız. Amma hər şeirdə nəfəs dərməyə, həm də içindən bir rahat nəfəs yorğunluğunun çıxmağına səbəbin mütləq var. Şeiri yazmaq kimi, yaşamaq da bir tel qədər zövq, bir ilğım qədər anidir...Şeir kimi qal, şeir kimi...

# ...və şeirləri

**– Bir az da özündən danış. Rubrikanın adı "Özüylə söhbət"dir.**

– Onda şeirə davam…

***

Mən yalquzaq külələri yaxşı tanıyıram,
Ağacların ölümə dartınmasından.
Mən bu qışı da tanıdım gəlişindən –
Neçə evsizi son mənzillə təmin edəcək.
Ürəyimdən tutan ağrılar
Əlimdən tutan "dostlar"dan ürəkliymiş.
Bu ömrü bir dəfə yaşamışam mən,
Hər qarışına bələdəm.
Bütün yollar yaralı sürünür ömrün sonuna.

***

Unutmaq lazımdı həyatın bütün rənglərini,
Sadəcə, sinədolusu nəfəs bəs edər.
Düşündükcə gözlərinin qarşısında
            sətirlər qarışar,
Düşündükcə bir boşluğa yuvarlanmaq var.
Ömrün ən böyük qazancı ölümdür,
Bunu bilə-bilə yaşamaq,
            bunu bilə-bilə daşımaq
Özü də bir zülmdür.
Bütün məchullara yönələn

suallar, əslində, məlumdur,
Hamı gözəl bilir, hamıya aydındır,
Kim nəyə məhkumdur.
Ömür... ömür... bir naməlum boşluq!

***

Küçələr əl açıb adam dilənir,
Küçələr gözümdə səfil-sərgərdan.
Zamanla unutduğum ağrıları da
Yadıma salır yoxluğun.
Gözlərimdə rəngi solmuş min həqiqət var,
Min bir yalan.
Özümdən elə qisas alıram ki,
Ömrümə gecikmiş adam.
Bunu nə sən bacarardın, nə bir başqası.
Həqiqətə tərəf addım atıb yıxılmaq
Sənə bir addım da yaxınlaşmaqdır.
Mən dizlərimdəki yaralar qədərəm,
Yıxılmaq gözümü qorxutmaz...

***

Ömür sual yağışıdır,
Cavablar düşüb qurağa.
Üzülməli nə var burda,
Biz də çəkildik sınağa.

Atmağa bir daş da yoxdur,
Ataq ki, soyusun ürək.
Bir nəfəslik çimir alsın,
Bir azca uyusun ürək.

Bu bəxti kim atdan salıb,
Ölümtək çöküb üstünə?
Bəlkə, elə bəxt üşüyüb,
Ölümü çəkib üstünə?

**TİKAN AĞACI**

Bu açılan sabah soyuq açıldı,
Bu açılan sabah şaxtadı, dondu.
Ürəyə mən necə anladım axı,
Bir də gəlməyəcək, bu daha sondu?..

Ruhumda min dənə tikan ağrısı,
Gözümdə itirmək əzabları var.
İçim özü boyda həbsxanadır,
Hələ çəkilməmiş hesablarım var.

Canından hər ağrı unutsan, çıxar,
Canından itirmək ağrısı çıxmaz.
Hər gün söz verərsən, yalana çıxar,
Yüz sözdən bir dənə doğrusu çıxmaz.

Özünə min kərə yalan sözün var,
Bilirəm, sənin də sözündə mənəm.
Bir şəkil buz kimi qalıb gözündə,
O şəkil mənimdir, gözündə mənəm.

***

Bütün varlığımla sevirəm səni,
Bütün varlığımın həzin bəstəsi.
Sən necə möhtəşəm yaradılışsan,
Mən necə bir eşqin ağır xəstəsi.

Ömrümdə ən uzun yol imişsən sən,
Gözündə min illik həsrətinəm mən.
Sən başqa adamsan, başqa birisən,
Ömründə, bəlkə də, ən çətinəm mən.

Nəfəsim darıxar saçlarındaca,
Nəfəsim ağ bayraq qaldırar sənə.
Sən mənim ömrümə gələn günündən
Yaşamaq çox gözəl göründü mənə.

İndi mən əvvəlki adam deyiləm,
İndi mən ruhumda sən daşıyıram.
İndi təkcə nəfəs almıram ki mən,
İndi bilirəm ki, mən yaşayıram.

***

Gözümdə şəklini güllələdilər,
Axdı, qanı axdı səkilər üstə.
Sonra apardılar səni harasa,
Ağladı adamlar şəkillər üstə.

Hardansa bir nəfər adam da gəldi,
Öncə ağlamsındı, içini çəkdi.
Sonra hamı kimi səsə qarışdı,
Sonra hamı kimi göz yaşı tökdü.

Birdən yavaş-yavaş getdi adamlar,
Sonra bircə o kəs qayıdıb gəldi.
Gözünün yaşını tökmürdü daha,
Hardasa özünü ovudub gəldi.

Bir bulud misalı, duman misalı
Çökdü bir küncünə soyuq otağın.
Sonra bu dünyada ən gözəl rəsmi
Çəkdi bir küncünə soyuq otağın.

***

Söykən bu sevginin əl ağacına,
Nəfəs dər, toparlan, yolun uzaqdı.
Günəş də qocalıb, yaman ləng gəlir,
Yollar yağışlıdı, yollar sazaqdı.

Qolların üstündə yer ver, uyusun,
Gözündən dağılan yollara yazıq.
Gör neçə ümid var buxov sürüyən,
Bu səssiz-səmirsiz qullara yazıq.

Sən ömür üstünə qurban aparan,
Arzular sinəndə çarpaz dağ olur.
Nəfəs də bir dönük övlad kimidir,
Nəfəs də üzünə daha ağ olur.

**YADDAŞ QEYDİ**

Mən səni də hardansa tanıyıram, hardansa,
Xəyalların dənizdə batan yeri olmasın?
Mən səni də hardasa unutmuşam, hardasa,
Yaddaşımın ağrıdan itən yeri olmasın.

Can üstündə ümiddir yaşamağın bir adı,
Kölgələrin altına min bir arzu cəm olur.
Günəşə gülümsəmək bəzən olur, bəzən yox,
Bəzən də ümidlərin gözü elə nəm olur.

Günahkar axtarmağın zamanı çoxdan keçib,
Barışmışıq, necə var, elə ömür sürürük.
İttiham eləməkçün zamanımız çatışmır,
Hələ bikar deyilik, hələ ömür sürürük.

***

Yenə yağış yağır bu boş şəhərə,
Yenə ağacların duası çindir.
Adamsız şəhərdə bir ağac olmaq
Susuz səhralardan daha çətindir.

Meyvəsi kölgədir, kölgəsi meyvə,
Uduzur ömrünü gündə bir yoxa.
Bu ağac bəxtindən haçan yarıya?
Öyrənib ümidi hey boşa çıxa.

Göylər... ümid yeri... son güman yeri,
Göylər əl uzadar yerdəkilərə...
Yarı yolda qalmaz göydən gələnlər,
Gec də olsa çatar yerdəkilərə.

**ÜŞÜYƏN HEYKƏL**

Üşüyən heykələm yağışın altda,
Sinəmdə ürək yox, isinə canım.
Kim ayaq saxlayar, kim hal soruşar,
Adamsız şəhərdə adam dörd yanım.

Gözümdən min sual tuşlanıb göyə,
Sual yağışıyla cavab verirəm.
Yağış altda qalmaq bilirəm nədir,
Tanrı, mən sənə çox əzab verirəm.

Mənim bağışlanmaq istəyim yoxdur.
Son nöqtə torpaqdı, daşdı uzağı.
Bir gün biri çıxıb soruşacaq ki,
Niyə yağış altda qoydun uşağı?

***

Kimdən söz düşsə də, səndən düşməsin,
Bir də qayıtmayım adın tərəfə.
Tövbəni boynumdan dua asmışam,
Yön çevirmərəm o qadın tərəfə.

Qismət bir oyundu zər yiyəsinə,
Bəxtini çağırmaq lal üçün dua.
İllərin tikanı üstə sürünmək
Ömür sürmək imiş mənimçün guya.

Nəfəs yorğunuyam ömür içində,
Ayağım buxovda, əlim qəfəsdə.
Gözümü açalı belə görmüşəm –
Yaşam qəfəsdədir, ölüm qəfəsdə...



İlhamə NASİR

# Qırmızı darvaza

Uzaqdan elə yazıq görkəmi vardı ki, adam qucaqlayıb öpmək istəyirdi. Evimizi deyirəm. Arıq, sısqa uşaqlara bənzəyirdi. Amma hardasa cəlbedici bir şirinliyi də vardı. İllah da qışda. Üstünə döşənən şifer qırıqlarından sallanan buz onu burnu axan kasıb uşaqlarına bənzədirdi.

Uşaqlıqdan mənə elə gəlirdi ki, evimiz həmişə gülümsəyir. Nədənsə arada yazığım da gəlirdi ona. Yəqin, görünüşünə görəydi; təpənin üstündə, qonum-qonşusuz bir otaq. Kənddə evləri siyahıya alanda onu unudurdular. Ya da tərəddüdlə siyahıya alırdılar. Bəlkə də, evimizin də mənə yazığı gəlirdi. O qədər arıq, çəlimsiz idim ki, tay-tuşlarım məni körpə uşaq kimi oynadırdılar.

Yaşıd idik evimizlə, demək olar ki. Mən doğulanda tikilmişdi. Birlikdə böyüyürdük onunla, həm də müəllim maaşı ilə; aram-aram, qayğıyla, nəzarətlə, səliqəli...

Bilmirəm, təsadüf idi, yoxsa bilərəkdən, həmişə eyni bəzənib-düzənirdik. Məsələn, anam mənə ilk dəfə ağ köynək geyindirib, saçıma ağ lent bağlayıb məktəbə yola salanda atam da evimizin divarlarını ağartmışdı həmin gün. Anam mənə qırmızı papaq toxuyanda atam da evin damını vurub qırmızı rənglə boyamışdı. Bu cür bəhsəbəhslə böyüdük; mən beşinci sinifdə oxudum, o isə beşotaqlı oldu. İndi kənddə ən əzəmətli ev o olmuşdu. Siyahıya alma olanda da birinci bizim evdən başlayırdılar. Mən də əmələ gəlmişdim artıq, tay-tuşlarımı gəlib keçmişdim, həm də məktəbdə əlaçı idim. Elə ikimiz də 5-də qaldıq, ta ordan o yana keçə bilmədik.

**Müharibə...**

Hər gün dağın o tayından top, qrad mərmiləri böyür-başına səpələnsə də, mənə elə gəlirdi ki, heç vecinə də deyil evimizin. Biz də onun kimi qorxmurduq. Ona arxalanmışdıq, uzaqbaşı görsəydik, mərmilər başımıza tökülür, qaçıb girərdik zirzəmisinə. Təkcə bizə yox, demək olar ki, kənd camaatının yarısına sığınacaq olmuşdu həmin "sısqa" evimiz.

**29 avqust 1993-cü il...**

Çox qəribə idi; həmin gün anamla mağazaya mənim üçün məktəb paltarları almağa getmişdik. Mənə zoğalı rəngdə laklı ayaqqabı da almışdıq. Evə qayıdanda gördük ki, atam darvazamızı tünd zoğalı rəngə boyayıb, eynən

ayaqqabımın rəngində. Bəlkə də, atamgil bu "bəhsəbəhs"in fərqində deyildilər, amma mən o qədər gülmüşdüm ki bunu görəndə. Hələ boyadan artıq qalmışdı deyə, atam evdə olmayan kimi fırçanı götürüb düşürdüm darvazanın canına. Fırçanı aşağı-yuxarı sürtdükcə elə bilirdim, evimizin ayağının altını qıdıqlayıram, o da qəşş eləyib özündən gedir.

Darvaza üst-üstə o qədər boyanmışdı ki, qurumaq bilmirdi ki bilmirdi. Atam hər dəfə yoxlayanda məəttəl qalırdı ki, bu darvazanın boyası niyə qurumur, görəsən?

**31 avqust 1993-cü il...**

Eyvanda oturmuşduq. O gün gurultu səsləri heç səngimirdi. Hələ bir az da yaxından gəlirdi. Yenə əhəmiyyət vermirdik buna. Mənim fikrim ayaqqabımda qaldığı kimi, hiss edirdim ki, atamın da fikri darvazamızda qalıb. Baxışlarını bir dəqiqə belə ondan ayıra bilmirdi. Darvaza da ayaqqabım kimi işım-işım işıldayırdı.

Anam aş (plov) bişirmişdi. Altına da həyətimizin çolpalarından döşəmişdi. Aşın ətri eyvana yayılanda fikirlərimiz qırmızı rənglərdən ayrıldı. İndi gözümüz ancaq mətbəxin qapısına dikilmişdi. "Nə oldu, bişmədi?" dəqiqədən bir atamla növbə gözləmədən soruşurduq.

Qəribə bir vıyıltı eşidildi. Bir neçə saniyədən sonra həmin vıyıltı dəhşətli gurultuya döndü. Evimizin bütün pəncərələrinin şüşələri ciliklənib yerə töküldü. Atamla anam cəld məni də götürüb zirzəmiyə girdilər. Zirzəminin qapısını açıq qoymuşduq, düşündük ki, kənd camaatı da qaçıb girəcəkdi ora.

Amma gözlədik, kimsə gəlmədi. Əvvəl atam zirzəmidən çıxdı, baxdıq ki, qara tüstü kəndi bürüyüb, qadın-uşaqları maşınlara doldurub kənddən çıxarırlar. Atam maşının birini saxladıb anamla məni də mindirdi. Hara gedəcəyimizi də heç soruşmadıq. Maşında gördüm ayaqqabımın bir tayı ayağımda yoxdur. Anam əliylə yan-yörəsini axtaranda mən çönüb evimizə baxdım. Gördüm, atam o hay-həşirdə darvazanın o üz-bu üzünü yoxlayır.

Gözlərim evimizə zillənmişdi. Maşın uzaqlaşdıqca evimiz əriyib-əriyib bir nöqtə olurdu, sonra gözdən itdi. Hələ də evimizin nöqtəyə dönüb yox olması gözlərimin önündən getmir. Gözəl evimiz, şirin evimiz...

Sumqayıtda əmimgilə yerləşdik. İki həftə sonra atam gəldi. Qapıdan içəri girəndə tanımadım onu. İki həftəyə insan bu qədər yaşlanarmı? Həm də onun üzünün tükü qorxutdu məni. İlk dəfəydi, atamı üzü tüklü görürdüm. Müəllim olduğundanıydımı, yoxsa öz xarakterindəniydimi, səliqə-sahmanına çox fikir verərdi. İndi həm də necə arıqlamışdısa, tamam başqalaşmışdı.

Anam atama çay süzürdü, birdən soruşdum ki, ata, evimizdəki aşdan yedin? Susdu, bir qədər sonra "yox, yemədim" dedi. Anam "qazanın altını söndürdün?" soruşanda atam hönkürtüylə ağladı. Elə bil dolmuş buluduydu, himə bəndiydi. Anam da ona qoşuldu. Elə həmin gündən ağlamaq ruhuma hopdu.

Əmimgilə çox ailə yerləşmişdi deyə, atam hər gün bizim üçün ev axtarmağa çıxırdı. Bir gün "tapdım" dedi. Elə sevinmişdim ki. Gözümün qabağına öz evimiz gəlib durmuşdu. Atam bizi gətirib dar, balaca bir yataqxana otağına yığanda az qaldı ürəyim dayansın. Anam içində əzab çəksə də, bildirmirdi, "Neynək, əsas can sağlığıdır, hər şey düzələcək, onsuz da burda müvəqqətiyik, öz evimizə qayıdacağıq" deyib atama ürək-dirək verməyə çalışırdı.

Heç bir əşyamız yoxuydu. İstəməyə də utanırdıq, gözləyirdik ki, qohumlardan kim bizə nə verəcək. Əlimizdə olan-qalan pulumuzu ancaq yeyəcəyimizə xərcləyirdik. Bir gündə, bəlkə də, on dəfə atam pencəyinin döş cibindən çıxarıb o pulu sayar, qoyardı yerinə. Özlərinə, peşələrinə uyğun olmayan iş tapdı hər ikisi. Daha anam hər səhər həvəslə nə öz ağ xalatını ütülədi, nə də atamın ağ köynəyini.

Bir gün atamgil işdən təzəcə gəlmişdi, qapı döyüldü. Mən açdım, tanımadığım hərbi geyimli bir nəfər qapının arxasında durmuşdu. Zabit idi. Deyəsən, çiyinlərində ulduzlar vardı. Bura müəllimgilin evidir? – soruşdu. (Atama rayonda hamı müəllim deyə müraciət edirdi).

– Bəli, – dedim.

Atam səsə gəldi. Zabit cəld başındakı papağı çıxarıb əlində tutdu. Bildim ki, nə vaxtsa atamın dərs dediklərindən biridir. Çünki rayonda atamı görən şagirdləri başlarından papağı çıxarardılar. Atam onunla salamlaşıb görüşdü, içəri dəvət etdi. Keçib oturdu, anam çay süzüb qarşısına

qoydu. Zabitin əlləri əsirdi, tez-tez boğazını arıtlayıdı. Bilinirdi ki, nəsə demək istəyir. Axır dilləndi:

– Müəllim, bir xəbərlə gəlmişəm, amma bilmirəm, necə deyim.

– De, ürəkli ol, onsuz da hər xəbərə hazır adamlarıq, – atam təmkinlə cavab verdi.

– Müəllim, sizin evi biz partlatdıq.

Anam cəld yerindən qalxdı. Baxışlarıyla o qədər "niyə? niyə?" soruşdu ki, qorxdum. Qaçıb ona sığındım, bərk–bərk əlindən yapışdım. Atam bir söz demədi. Başını aşağı salıb qəndqabının qapağını aramla gah qəndqabının üstünə qoydu, gah da götürdü. İçəri sakitlik çökdü.

– Sizin evi ermənilər kazarma eləmişdi, həyətinizə texnikalarını yerləşdirmişdilər – zabit əlavə etdi.

– Barı bir şey edə bildinizmi? – atam astadan dilləndi.

– Demək olar ki, bir bölüyü və hərbi texnikalarını tamam məhv etdik. – elə bir zabit birdən-birə ürəklənmişdi.

Atam ayağa qalxdı:

– Bala, qadan alım, bundan gözəl xəbər var? – yaxınlaşıb zabitin alnından öpdü. Sonra: "Mənim evim dağılmayıb ki, şəhid olub, şəhid!" – deyib anamın üzünə baxdı.

Anamın gözlərində yaş giləlınsə də, atamın üzünə gülümsədi. Elə mən də bir şey anlamadan gülümsədim.

Həmin günü yataqxanada kim qarşıma çıxırdısa, evimiz şəhid olub, deyirdim. Mənə gülən də olmuşdu, qəribə baxan da, acıyan da.

İllər keçdi, biz Bakıya köçəsi olduq. İkiotaqlı həyət evimiz vardı. 20 il Qubadlıya qayıtmaq ümidiylə bu evdə yaşadıq. Rayondakı kimi, burda da atam öz hörmətini qoruyub saxladı. Onun savadla, təmkinlə danışığını hər kəs sevirdi. Elə mən də həmişə atamın söhbətlərinin vurğunu olmuşam.

Bir səhər yuxudan duranda atamın hələ də qalxmadığını gördük. Birinci dəfəydi, o belə gecikirdi. Sən demə, gecə yuxudaykən insult keçirib. Elə o qalxmayan, qalxmadı yataqdan. Nə qədər həkimlər gəlib-getsə də, xeyri olmadı. Gündən-günə vəziyyəti pisə doğru gedirdi. Ölümdən yox, Qubadlını bir də görə bilməməyindən qorxurdu. Deyirdi ki, ay Allah, mənə möhlət ver, gedim öz evimdə ölüm.

İtirdikcə itirirdi atam: iştahını, çəkisini, ayaqlarının, əllərinin hərəkətini, şam kimi əriyirdi gözümüzün qabağında. Sonda yaddaşını itirdi. Bunu heç qəbul edəmmirdim. O cür savadlı, səlis danışan atam indi nə danışdığını özü də anlamırdı. Hətta bizi belə tanımamağa başladı. Bircə Qubadlı, kəndimiz, evimiz yaddaşından silinmədi. "Bura mənim evim deyil, mənim evim hündürdəydi, məni öz evimə aparın" deyirdi.

Məni belə xatırlamadı, məndən adımı soruşurdu, amma Qubadlıya gedən yolları, kəndimizi, evimizin bütün detallarına qədər əzbər deyirdi. Uşaq kimi ağlayırdı, "Nə olar, məni Qubadlıya aparın" deyirdi. Gözümün içinə baxıb "Sən ayaqqabılarmı geyindir, özüm qatarla Həkəriyə gedəcəm, ordan da evimizə" yalvarırdı.

İnandıra bilmirdim onu, daha Qubadlı yoxdur, evin yoxdur, sənin evin buradır artıq. Ölürdüm, içim yanırdı atamı belə vəziyyətdə görəndə. Heç həzm edə bilmirdim onun yaddaşsızlığını. Deyirdim, kaş ki, dərdi xərçəng olardı, amma huşu, yaddaşı özündə olardı. Tanrıya üsyan edirdim ki, o qədər dərdləri qoyub, ona niyə bu dərdi verdin, məni niyə çarəsiz qoydun, axı onun istədiklərini mən verə bilmirəm?!

**15 avqust 2017-ci il..**

Çarəsizlikdən bilmirdim nə edim. Atamın gözlərinə içinə baxa bilmirdim. Bilmirəm hardan ağlıma gəldi, gedib tünd zoğalı rəngdə boya alıb darvazanı boyadım. Atamı kürəyimdə pəncərəyə yaxın gətirdim. Onsuz da çəkisi qalmamışdı. Bir əlçim yun kimi əyrilib, yumağa dönmüşdü. Pəncərədən həyətə baxdı. Darvazanı görən kimi güldü, "Hə, bura mənim evimdir, vallah, bura öz evimdir" – dedi.

Qubadlıdan gələndən bəri ilk dəfəydi ki, belə içdən, ürəkdən gülürdü. Yatağına uzadanda baxdım ki, üzü gülümsər vəziyyətdə keçinib. O gün Tanrıya o qədər minnətdarlıq etdim ki, ölümü vardısa, nə yaxşı ki, atam elə bu dərddən öldü. Öz evində...



**Fransua VOLTER:**

Azadlığı və həqiqəti sevməyən biri güclü ola bilər, amma heç vaxt böyük ola bilməz.

***

Başqa dili öyrənmək bir-iki ilin işidir, amma ana dilini yaxşı bilməkçün ömrün yarısı gərək.

***

Böyük işlər heç zaman böyük maneələrsiz olmur.

***

Dilin bir böyük əhəmiyyəti də budur ki, fikirlərimizi onun köməyilə gizlədə bilirik.

***

Ən gözəl fikir belə pis ifadə olunduğu zaman dəyərini itirir.

***

Gülüncə çevrilmiş bir şey artıq təhlükəli ola bilməz.

***

Kütlə ki mühakiməyə qalxdı, hər şey havayıdır.

***

İnsanlar yeməyə çörəkləri, yatmağa yerləri olan kimi düşünməkdən də vaz keçirlər.

***

Qoy gənclər dünyanı xəyal elədikləri kimi görsünlər, böyüyəndə onsuz da necə olduğunu biləcəklər.

***

Lağlağı ki anladıldı, lağlağı olmaqdan qalır.

***

Öləndən sonra hara düşmək istərdim; cənnətə, ya cəhənnəmə? Cənnətin havası yaxşıdır, ancaq cəhənnəmdə də dost-tanış məclisi o qədər xoş ki...

***

Ölkənin xilası üçün bir böyük adam yetər.

***

Pis adamlar, olsa-olsa, yer üzünə səpilmiş bir ovuc yaxşını sınamağa yarayır.



**Stanislav Yeji LETS:**

Bir vaxt vardı, uzaqlığı həsrətin, kədərin gücüylə ölçərdik.

***

*E=mc2* tənliyini [Eynşteynin nisbilik nəzəriyyəsi] görəndə adam öz çərənçiliyindən xəcalət çəkir.

***

Ədalətin yolu üstə dayanmayın – Femida kordur.

***

Bir xalqın nəyə güldüyünü de, sənə onun nə naminə qan axıtmağa hazır olduğunu söyləyim.

***

Cırtdanlarla ünsiyyət bel sütununu əyir.

***

Ən çətini də elə insan cildindəki heyvanı sığallayıb oxşamaqdır.

***

Əlləri iməkləməkdən qurtulan gün İnsan tarazlığını da itirdi.

***

Ən dəhşətlisi – bulanıq suda axına qarşı üzməkdir.

***

İbtidai insan, doğrudur, danışmağı bacarmırdı, amma di gəl, heyvanları anlayırdı.

***

İnsan ol! Meymunlar artıq bunun öhdəsindən gəliblər.

***

İnsanın tanrılaşdırılmağı Tanrının insanlaşdırılmağına yol açdı.

***

Kim ki "biz" deyir, özünü nəzərdə tutmur.

***

Mənbəyə çatmaq üçün gərək axına qarşı üzəsən.

***

Nəyi ki yox eləmək istəyirlər, adını qoyurlar "vaxtı keçibdi".

***

O yazıçılar ən asan satılır ki, kitablarını kimsə almır.

***

Oyanıb ayağa qalxmağın münasibətilə günü salamla!

***

Öləndən sonra yaşamaq asan deyil; bəzən buna bütün ömrünü sərf etməli olursan.

***

Ömür yolumda o adamlara rast oldum ki, başqa yerlərdə də qarşıma çıxmalarına alışmışdım.

***

Sözlərin qiymətdən düşməyi ancaq milli valyutayla olur.

***

Sözlərin heç bir anlam ifadə etmədiyi dövrdə ikimənalı olmaq çətindir.

***

Tarixdən bütün yalanların silinməyi o demək deyil ki, yerdə ancaq həqiqət qalacaq. Ola bilər, yerdə, ümumiyyətlə, heç nə qalmasın.

***

Yalanla yaşayanlar həqiqətlə də yaşaya bilərdilər.

***

Yamyamlığın süqutunun müjdəsini verirəm; bax artıq insan insandan diksinir.

***

Zülmətləri tonqallarla yarmaq olmaz.



**Aleksandr SOLJENİTSIN:**

Ədəbsizlik edib deyə bilərikmi ki, bugünkü dünyanın bəlaları üçün biz cavabdeh deyilik?!

***

Çox qədim zamanlardan bəri cəsarətsizliyin sonun başlanğıcı olaraq qəbul edildiyini söyləməyə gərək varmı, əcəba?!

***

Doğruya əlavə elədiyiniz hər şey doğrunu əskildir.

***

Əgər millətin mənəvi gücü tükənibsə, onu heç bir hökumət xilas edə bilməz.

***

Sənətin bir zaman pozulacağından, şəklini itirəcəyi və öləcəyindən xəbər verənlərin hamısı yanılmışdır. Ölən bizlərik, sənət isə əbədidir...

***

Bilirsənmi, atlar niyə bir belə uzun yaşayırlar? Onlar münasibətləri aydınlaşdırmırlar.

***

Kimlərin ki vicdanı rahatdır, çöhrələri də tərtəmiz olur.

***

Ucuzun ardınca qovalamağımız bizə həmişə o qədər baha başa gəlir ki...

***

Filosoflardan biri demişdi ki, əgər insan ağrımasaydı, hədd-hüdud bilməzdi.

***

Xeyli əvvəl, mən hələ uşaq ikən neçə yaşlı adamdan Rusiyanı bürümüş böyük sarsıntıların səbəbiylə bağlı bunu eşidərdim:
“Adamlar Allahı unudublar, hamısı bu üzdəndir”
Məndən XX əsrin başlıca əlamətini qısaca necə səciyyələndirmək olar deyə, soruşsalar, bundan da dəqiq və tutumlu söz tapa bilməzdim:
“Adamlar Allahı unudublar”.



**Oldos HAKSLİ:**

Asan satılan kitab yazmaqçün asan satılan beyin olmalıdır.

***

Gülümsəyən vaxtı gözəlləşməyən
bir çöhrə heç görmədim.

***

Təmiz qəlbli insanlar heç bir zaman rahat həyat yaşaya bilməzlər. Çünki özlərini başqalarının xoşbəxtliyi üçün fəda edərlər.

***

Xoşbəxt olmağın ən gözəl yolu bir başqasını xoşbəxt eləməkdir.

***

Dərdlərini göz yaşlarında boğmaq istəyənlərə dərdlərin üzmək bildiyini söyləyin.

***

Bəlkə də, bir çox insan elə xoşbəxt olduğunu bilmədiyi üçün bədbəxtdir.

***

Düşünməyi bacarmayan insan hər zaman başqalarının köləsi olur.

***

Həyatı sizə gülməyi unutduracaq qədər ciddi qəbul etməyin.

***

Həyatın bu çirkin oyunlarına rəğmən, hələ gülməyi bacara bilən insan, demək, həyatın fəlsəfəsini anlamışdır.

***

İnsan xoşbəxtlik haqda düşünmək məcburiyyətində qalmasaydı, həyat nə qədər də əyləncəli olardı.

***

Mübarizə əsla bir təbiət qanunu deyil.

***

İnsan nə zaman ki həyata məna qatmağa çalışır, həyat o zaman mənasızlaşır...



**Vasili NALİMOV:**

Bilmək gərək ki, Yaradılış sirrə qərq olmuşdur – o sirri açmaq olmaz, buna cəhd eləməyə lüzum da yoxdu. Yalnızca onu qəbul etmək gərək.

***

Azad fikirlərdən məhrum bir dünya son dərəcə bayağı və cansıxıcı olardı...

***

Elmin dünyanın qeyri-şüuri yaradıldığını bəyan etməsi təbiətə yiyələnməyi üçün lazım idi.

***

Dünyanın sirləriylə təmas bizi romantiklərə çevirir.

***

Mən bir tək azadlığı səcdəyə gəlirəm.

***

Köləcəsinə itaət deyil, məhz azadlıqdır insanı Allaha yaxınlaşdıran.

***

Cavabsız suallar bizim yaradılışla bağlı təsəvvürlərimizi genişləndirəcək.

***

Mədəniyyətin küll halında bütün nailiyyətləri heç kim üçün əlyetən deyil.

***

Elə bir düstur yoxdur ki, bütün həqiqəti, bütün ahəngi, bütün sadəliyi ifadə eləsin.

***

Qəfildən anlamışıq ki, insanın Yerə yad olmağı onun elə özü-özünə yadlaşmağına gətirib çıxarıb.

***

Mənəviyyat icad olunmur. Biz onu şüurumuzun dərinliklərindən əxz eləyirik. O, bütün tarixi keçmişin təcrübəsinin təcəssümüdür.

***

Qədim dövr insanının düşüncəsinə Yer üzünün bütün varlıqlarıyla mənən bağlı olduğu təsəvvürü hakim idi. Bunu biz elmi-texniki tərəqqi səbəbindən itirdik...





**Cəbran Xəlil CƏBRAN:**

Arxan günəşə doğru dayansan, ancaq öz kölgəni görərsən.

***

Həyatda insanın özünün özünə “Sən uduzdun” deməyindən də çətin heç nə ola bilməz.

***

İnsanın dəyəri nəyə nail olduğunda deyil, məhz nəyə can atdığındadır.

***

Bu günə qədər yalnız “Sən kimsən?” deyə sual edənə nə cavab verəcəyimi bilə bilmədim.

***

Qəlblərimizin sirlərinə ancaq qəlbləri sirlərlə dolu olanlar yol tapa bilər.

***

Təbiətdəki mübarizə nizam arzulayan nizamsızlıqdan başqa bir şey deyil.

***

Ədalətin yarısı mərhəmətdir.

***

Gözəllik, əlbəttə ki, dərin düşünənlərin qismətidir.



**Lüdviq VİTGENŞTEYN:**

Mən yeganə fəlsəfə professoruyam ki, Aristoteldən heç vaxt bircə kəlmə də oxumamışam.

***

Əsl mömin olan kəs üçün faciəvi heç nə yoxdur.

***

Allaha inanmaq – həyatın mənası olduğunu anlamaq deməkdir.

***

Sən yalnız söyləyə bildiyini bilirsən. Söyləyəmmirsənsə, deməli, bilmirsən.

***

İnsan tez-tez sözün sehrinə düşür. Məsələn, "bilmək" sözünün...

***

Nəyə isə inanan kəs nədən buna inandığı sualına cavab vermək məcburiyyətində deyil.



**Tomas ELİOT:**

Hər şeydə İlahi Zəkanın izləri göründüyü halda, insanların əksəriyyəti öz zəkalarına güvənirlər...

***

İnancsız adamlar, ən nəhayət, görəcəklər ki, yaşamaqlarının heç bir faydası yoxdur.

***

Bir heyvanı sevsəniz, o da sizi sevər... Bir insanı sevsəniz, bax onu bilmirəm – nə edəcəyi bəlli olmaz...

***

İnsanların ikiüzlü olmağı sizi hələ də çaşdırırsa, demək, yaxşı adamsınız.

*Toplayanı, tərcümə və tərtib edəni:*
**C.MƏMMƏDOV**



Məlik ATİLAY

**ÜMİDSİZ ŞƏHƏRİN KÜLƏYİ**

Tərsinə çevrilmiş tısbağa kimi
Ümidsiz şəhərdi Bakı,
Xəzri
Köhnə darvazatək silkələyir şəhəri –
Uzaq ellərdən vacib xəbər gətirən qasid kimi
Burda
Ümidin bir azını sabaha saxlayırıq,
Axşamdan bişən yemək kimi.
Burda
İntihar etmiş adamın
Sahildə soyunduğu çəkmələridi zaman.

**HİNDU NƏĞMƏSİ**

Qaranlığı qara əlcək kimi geyəndə şəhər
Susmuşdu hər nə vardısa,
Sanki bir azdan cəllad
Zevin küçəsindən keçib
Edam məhkumunun yanına gedəcəkdi…

Onda
Alça çiçəkləri kimi qar yağırdı Bakının üstünə
Yollar eyni qapıya çıxırdı,
Ah çəkirdi göylər, külək əsirdi…
Göylərdə də kimsə darıxırdı.
Onda
Sonuncu adamının da öldürüldüyü hindu qəbiləsinin
Anlaşılmayan kədərli nəğməsiydi bu şəhər.
O vaxtdan bu yana bilmirəm, neçə gündü, aydı, ildi,
Elə bil bu gün ayrılmışıq,
Bu gün.

Dodaqların gilyotin kimi boynunu vurub Qoşa qala qapıları ağzında.
Ağzımdan çıxan sözlərin…
Kədər deyingən ev sahibəsi kimi
Qəlbimizə girdikdən sonra
Bilmirəm neçə dəfə
Güləndə əlini əlinə vurmaq istəyib də
Bir əlinin olmadığını xatırlayan adam kimi
Yadıma düşüb yoxluğun.

Elə bil bu gün
Ağ bayraq kimi yelləmisən əlini ayrılığa,
Elə bil
Cəllad hələ də əlində qılıncı yol gedir
Hardasa buralarda.

**SƏNİ BU GÜN UNUTDUM...**

Səni bu gün unutdum,
Amma ondan əvvəl
Kor rəssama verdim şəklimizi,
Ordan kədəri, göz yaşını təmizlədi
Geriyə iki yad adam qaldı şəkildə
Kar dostuma danışdım səndən
Danışdım göy üzü dolu yağdıran kimi
Birnəfəsə, bütün gücümlə,
Səni unutduğumu sübut etmək üçün özümə
Adını çəkmədim bircə kərə

Səni bu gün unutdum...
"2" alan şagird gündəliyini evdə unutduğutək.

## ŞEYTANIN ALDATDIĞI ADƏMLƏ FƏRQİMİZ

Şeytanın aldatdığı Adəmdən
Tək fərqimiz var,
Qovulacaq cənnətimiz yoxdu.
Alovlara atılsaq,
Heç bir qarışqa ağzında su gətirməz bizimçün.
Nə dəniz iki bölünər qarşımızda qarpız kimi,
Nə ölülər dirilər,
Sevgilim
Və cənab İblis,
Siz deyin,
Bu əsrin ən böyük möcüzəsi hansıdı?
Birini sevməkmi?
Yoxsa
Göz yaşlarınla söndürməkmi
Yaşadıqlarını unutmaq üçün yandırdığın şəkli?

## SAAT BİR, İKİ, ÜÇ...

Saat bir, iki, üç...
Hücum əmri gözləyən ordu misalı
Yuxusuz və həyəcanlıyam,
Üzməkdən yorulub
Torların qoynunda dincələn balıq kimi
Yorğunam bir az da...

Şimşəklər gümüşü çatlar salır
Qara aynasına gecənin,
Səkkiz, ya doqquz yaşındayam,
Fatmayı dənizində
Balıqqulaqlarını doldurmuşam cibimə,
Üstümdə ovuc-ovuc Xəzərlə gəzirəm...
Hara getsəm,
Sərxoş atasından qorxub
Oyuncaqlarıyla qısıq səslə danışan uşağın
Pıçıltısıtək
Pıçıltısını eşidirəm dənizin...

Damlalar bulud dilində nəsə yazır pəncərəmə,
Xəbər gətiriblər mənə
Zamanın tikanlı məftillərinin o üzündəki
adamlardan...

Saat bir, iki, üç...
Tavandan asdığım kəndirin
Altındakı kətilə çıxıram –
Dənizi görmək üçün.

## KİMƏ NƏ BU GÜNAHDAN?..

Göy üzü hər səhər
Doğuş masasındakı qadın kimi
Yeni günəş doğur dünya üçün –
Bizə nə bu günəşdən?

"Xəstəniz yaşayacaq" – deyir həkim,
"Allah Kərimdir" – deyir molla.
Hərəsi bir başqa yolla
Ümid əkir
Kədərlə minalanmış ruhlara –
Bizə nə bu ümiddən?

Zamanı gəldikdə çürük diş kimi
Hər gün başqa biri
Düşür həyatın ağzından –
Bizə nə bu ölümdən?

Sən varsan
Orta əsrlərin Avropası kimi qaranlıq otağımda,
Günahkar rahibətək
Çarmıxa çəkilib bədənin –
Kimə nə bu günahdan?

## KİM BİLİR...

Bıçaq dəyən yerlərindən kürəyinin
Qanadların çıxar, bəlkə,
Kim bilir...

Qartoputək daşa dəyib
Şüşə kimi çiliklənən ürəyinin
Bir parçasına əksim düşər,
Kim bilir...
Sonuncu dəfə Bakının küçələrindən keçən
Tramvay yorğunluğuyla
Eyni arzu keçər ürəyimizdən...



Günay SƏMA ŞİRVAN

# Haqqın cəzası

Babasının qəribə misalları var idi Nəzrinin. Çox vaxt kişidən eşitdiyi hər deyimi bir neçə gün beynində analiz edər, sadə xalqın yaratdığı ata sözlərinin, zərb-məsəllərin bu qədər fəlsəfi yüklü olmasına məəttəl qalar, anlamını tapanda çox sevinərdi. “Allah qarğa deyil ki…” məsəlinin mənasına isə, neçə vaxt çalışsa da, vaqif ola bilmədi. Babasının izahından sonra anladı: – “Allah qarğa deyil ki, bir anda vura (günahkarın) göz çıxara”.

***

Yuxusuna gəlmişdi yenə. Gülümsəyirdi:

– Kəndə gəlmisən, mənim qəbrimin üstünə niyə gəlməmisən? Bilirsən, o vaxt baş verənlərə görə mən günahkar deyiləm. Bağışla olanları... Gül gətirərsən qəbrim üstə, yaxşımı?

Yuxusuna gəlişlərinə öyrəncəli idi deyə, qorxmadı. Yuxuda olduğunu bilirdi:

– Bunun yuxu olduğunu bilirəm. Səhər Yasin oxutduraram, rahat ol. Kəndə gələndə gül də gətirərəm qəbrin üstünə. Bağışlamaqsa... Heyif səndən. Heç istəməzdim, olanların cəzası belə ödənsin, – dedi Nəzrin.

Yox, yox, yuxusuna girən babası deyildi. Kamil idi.

Kamil – Nəzringilin kənddəki qonşuları Nisə arvadın hərbçi oğlu idi. Müharibə zonasına göndərilməsin deyə, qohumları bütün imkanlarını səfərbər edib onun ölkənin şimalındakı dağ rayonlarından birində xidmət etməsinə nail olmuşdular. Lakin “sən saydığını say…” – qulluq etdiyi hərbi hissədə soyuq qışın, qarlı-buzlu havanın qurbanı olmuşdu Kamil. Qarşıdan gələn hərbi maşına yol vermək istəyərkən özünün sürdüyü maşın yoldan çıxmış, sürüşərək dərəyə yuvarlanmışdı. Kənd qəbiristanlığındakı məzar daşından 28 yaşlı gəncin yazıq görkəmi boylanırdı ziyarətçilərinə…

Kamilin faciəli ölüm xəbərini eşidəndə əvvəl uzun müddət lal heykələ döndü. Daxilində baş verənlərdən, beynindən süzülənlərdən, yaddaşının kamerasında vərəqlənən acılı-ağrılı kadr-

lardan xəbəri yox idi kimsənin. Sonra isə yalnız ondan bir sinif yuxarıda oxuyan həmyaşıdının cavan ömrünə heyifsilənməklə kifayətləndi. Qəribə idi. Televizorda Afrikada acından ölənlərə göz yaşı içində ürəyi sızlayan adamı bu xəbər ağrıtmadı. Şadlanmasa da, pis də olmadı. Buna görə özündən utansa da, dodaqları qeyri-ixtiyari pıçıldadı: "Axı babam deyirdi, Allah qarğa deyil..."

***

İllər öncə, dini sektayla əlaqəyə girən kürəkəni Qaraxan əsas düşərgə kimi qayınanası Nisə arvadın evini seçmişdi. Uzun illər Qaraxanla ailəli olsa da, qızının uşağının olmaması Nisənin və əri Siracın dilini gödək eləmişdi kürəkəninin qarşısında.

Elm, naxələf əlində ölüm silahıdır. Qaraxan təhsilli adam idi. Savadından istifadə edib, ətrafdakıları ilahi bəxşişli gücünə inandırmışdı. Son zamanlar parapsixologiya ilə çox maraqlanır, müxtəlif eksperimentlər həyata keçirirdi. Bu yolda qarşısına çıxan krişnaçılıq və xristianlıqla sırf bağlılığı olan sektayla rastlaması "qaranlıqda doğan işığa" dönmüşdü onunçün.

Tədricən müxtəlif ritual və ayinlərlə müşayiət olunan, müalicəvi əhəmiyyəti iddia olunan məzhəkələr vasitəsi ilə çox adamı tora salıb sektaya cəlb etmişdilər. İlk vaxtlar əmr qulu, alovlu təbliğatçıları da, əsasən, baldızı Suğra və qaynı Balayar idi. Ən güclü silahı Allaha inamı olanları, onun adı ilə qorxudub hipnoz vasitəsi ilə başına pislik açmaq olan, özlərini "İsa babanın varisləri "adlandıran bu şarlatanların əlində oyuncaq olmaq bir müddət gündəlik qayğıların girdabında əzilən kəndin baş bəlasına çevrilmişdi...

İnsanlar İsa babanın gətirdiyi şəfa, xeyir-bərəkət haqqında qəribə söhbətlər edirdilər. Ali məktəbə girə bilməyən nəzir verən kimi imtahandan "maneəsiz keçir", uşağı olmayan "beş seansa uşağa qalır", "İsa baba bir dəfə əlini sürtsə, qısır inək boğaz olur" və s. Maraqlıdır ki, heç kim düşünmürdü, "İsa baba" öz ən fəal "silahdaşı" Qaraxana nədən övlad bəxş etmirdi?

Deyirdilər ki, onlar ruhlar vasitəsi ilə gəlir. Otaqda işıq göz vurursa, deməli, ruh gəlib. Qətiyyən, toyuq əti yeməz, toyuğu müqəddəs sayar, az qala ona ibadət edərdilər. Yaratdıqları "cənnət" misalı saydıqları çirkin mühitdə saf düşüncəli insanlara psixi təsir edib onları məharətlə aldatmağı bacarırdılar. Gün gəldi, kənd "İsa baba"nı görmək şərəfinə nail oldu. Bu 38-40 yaşlarında, hündür boylu, dolu bədənli, saçları sarı, üzü qırmızı bir adam idi. Diqqət çəkən əsas məqam geyimi idi. Uzun ətəkli, xalata bənzər, ala-bəzək paltarı vardı. Ona inananlar və tapınanlar israr edirdilər ki, "İsa baba" kişi deyil, qadındır. Yəni buna görə onunla görüşən zaman yad qadınların çəkinmədən bir otaqda tək qalmasında heç bir pis şey yoxdur.

Təbii ki, həqiqi adı, daimi məskəni məlum olmayan bu sekta sahibinin əsas vasitəçilərindən biri Qaraxan olduğuna görə İsa babanın da kəndə gələrkən düşdüyü qapılardan birincisi Qaraxanın qayınanası Nisə arvadın evi olurdu.

Kamil Nisənin dörd övladının axırıncısı idi. Böyük qardaşı Mahirdən, "bayquşgöz" Balayardan və bacısı Suğradan mehribanlığı və qayğıkeşliyi ilə seçilirdi. Paytaxtdakı hərbi məktəbdə oxuyan, tətildən-tətilə kəndə gələn Kamil yeznəsinə qarşı çıxa bilməsə də, sektayla əlaqədən narahat olur, haylı-küylü qocaman bir şəhərdə belə, insanların baş edə bilmədiyi müxtəlif sektaçılıq bəlasının bu balaca, sadəlövh əhalisi olan kənddə fəsadsız qurtarmayacağını bilirdi. Bu üzdən həmin yay kəndə də gəlməmişdi. Bu vaxta qədər bir-birinə güldən ağır söz deməyən qonşularından utanırdı. Elə bilirdi, evlərində baş verənlərə görə hamı onu cavabdeh biləcək, hər kəs onu sorğu-sual edəcək.

Kamilgillə yaxın, isti qonşuluq əlaqəsi qalan evlərdən biri də Nəzringilin ailəsi idi. Nəzrinin anası Zəminə həyat yoldaşını itirəndən sonra qəlbini Allaha açıb, başını aşağı salb yetimlərini böyüdür, sakit həyat yaşayırdı.

Bu il Zəminənin ailəsində taleyüklü il olmuşdu. Çox çalışqan böyük qızı ötən ilki uğursuzluğu dəf edərək ali məktəbə daxil olmuş,

ortancılı 9 illiyi fərqlənmə il bitirmiş, Nicat isə birinci sinfə getmişdi. Hətta pay torpağında əkdiyi taxıl hər zamankından iki dəfə artıq məhsul vermiş, qoyunları isə əkiz balalamışdı. Bu qədər hadisənin fonunda Zəminə içində həmişə gizli bir qorxu gəzdirərdi: "Allah pis gözdən qorusun, birdən nəsə olar".

Olacaqlarsa özünü çox gözlətmədi.

Oktaybrın ılıq günlərindən birində Nisə arvad axsaya-axsaya qapını döydü:

– A bala, ay Zəminə, axşam uşaqları da götür, bizə gəl. Qayınanama ehsan veririk.

– Allah rəhmət eləsin, ay Nisə xala. Allah qəbul eləsin! Özün niyə əziyyət çəkirdin? Uşaqlardan birini göndərəydin gərək.

Axşam heyvanları rahatlayıb əl-ayaq yığışandan sonra ailəlikcə Nisə arvadgilə getdilər. Ehsan süfrəsində Nisənin əri Sirac, oğlanları Mahir, Balayar, qızı Suğradan, molla və mollanın arvadından başqa kimsə yox idi. Sirac döşəmədə oturub mütəkkəyə söykənmişdi, önündə də külqabı. Köhnə şalvarında çəkdiyi filtrsiz "Astra" siqaretinin açdığı yanıq yerləri diqqət çəkirdi. Nəzrin bir an düşündü ki, heç vaxt Sirac dayını siqaretsiz görməyib. Kişinin qoyun qabağında da, bayram vaxtı yığışdıqları tonqal başında da, əlində bel işləyəndə də damağında siqaret olardı... 60-a yaxın yaşı olan adamın dişləri yer şumlayan traktorun kotanının dişlərini xatırladırdı. Sarılığı seyrək dişlərə qəribə bir parlaqlıq verirdi.

Yasin oxunub, çay içilən kimi molla arvadına da işarə edib ayağa qalxdı. Zəminə təəccüblənsə də, susdu. Adətən, Molla Saleh yemək yeməmiş getməzdi. İndi isə sanki adam iynə üstündən durmuşdu, arxasına da baxmadan, hətta Yasinə görə verilən pulu da almadan tələsik yığışıb getdi.

Molladan az sonra o da uşaqları götürüb getmək istədi.

– Yox, hara gedirsiniz? – deyə Nisə arvad qazanı ortaya çəkib yemək paylamağa başladı. – Molla Saleh də tikə kəsmədi… Arvadın ruhu inciyər. Heç olmasa, siz oturun.

Nəzrin nə qədər elədi, yeməkdən dada bilmədi. Elə bil altıncı hissi peyda olmuşdu və hissi ona qarşısındakı göy güllü boşqabın pusquda duran ovçunun qurduğu tələ olduğunu deyirdi. Evdə yediyini bəhanə edib geri çəkildi. Ev sahibləri narazı görünsələr də, daha israr etmədilər. Ehsan üçün süfrə duası veriləndən sonra qızlar Suğraya qabları yığışdırmaqda kömək edib oturdular. Suğra çayları qonşu otaqda süzüb gətirdi. Nəzrinə elə gəldi ki, çaydan nəsə yad bir qoxu gəldi. Anası ilə bir-birlərinə baxdılar… Amma içməmək hörmətsizlik olar deyə, birtəhər stəkanın yarısını boşaltdılar.

Artıq qalxmaq zamanı idi. Zəminə Nigar arvada rəhmət oxuyub getmək üçün yığışmalarını qızlara və oğluna işarə etdi.

Qəfildən Suğra evin ortasına keçdi:

– Bir az gözləyin.

– Nəyi gözləyək, a bala. Siz də yorğunsunuz. Bizim uşaqların da sabaha işi çoxdur…

Suğra elə bir zəndlə baxdı, Zəminənin sözü ağzında qaldı. Qadına elə gəldi ki, üstündə maqnit dalğası gəzdirirlər. Bir yandan da çaydan sonra hiss etdiyi halsızlıq güclənirdi. Elə bil ki, şüurunu hansısa qüvvə öz hakimiyyəti altına alırdı. Aysel susqun idi. Nicatı isə yuxu aparmışdı.

Nəzrin də çaydan sonra özünü pis hiss etsə də, şüuru ayıq idi. Sinif yoldaşı Suğra və qardaşlarının etdikləri qeyri-adi əməllər haqqında danışılanları yadına salıb həyəcanlandı, narahat olmağa başladı. Yavaşca anasının qoluna vurub başı ilə qapını göstərdi. Elə bil ailədə ondan başqa hamı yuxulu idi. Gah bacısını qaldırır, gah donmuş baxışlarla onu süzən anasını irəli itələyir, gah da yuxulu qardaşını oyatmağa çalışırdı. Nəhayət, onları otaqdan çıxarıb pilləkənə qədər gətirə bildi. Suğra qardaşı Balayara nəsə gizli işarə etdi. Böyük qardaşı Mahir otaqda qalmışdı. Əl-haya düşən Balayar pilləkəndə Nəzrinin qarşısına keçdi:

– Yaxşı, ver Nicini aparmağa kömək edim. – Qardaşı Nicata "Nici" deyirdilər.

Balayarla baxışları qarşılaşanda Nəzrin üstünə bir ağırlıq çökdüyünü hiss etdi. Nicatı qucağına alan Balayar onu bayır qapısına tərəf aparmaq əvəzinə, yuxarı eyvana çıxardı. Nəzrin

son gücünü toplayıb "evimizin yolu bu yandadır" – dedi...

Eyvandakılar gülüşdülər...

– Hə, bu yandadır... Gəlin içəri... Hara belə tez qalxdınız?

Qeyri-iradi olaraq bütün ailə əmri yerinə yetirməyə başladı. Yuxarı qalxıb otağa girərək keçib əvvəlki yerlərində oturdular. Sirac kişi gözə dəymirdi. Güman ki, altıgöz evinin ən ucqarındakı otağına çəkilmişdi. Yatmış Nicatı bayaq Sirac kişinin dirsəkləndiyi mütəkkəyə bitişik döşəkçəyə uzatdılar. Nisə arvad güllü, yun şalını onun üstünə sərdi.

Başı hərlənən Nəzrinin gözləri hamını tolru görürdü. Topalaşaraq ona baxıb nəyisə müzakirə edən bacı-qardaşlar, çarəsiz və lal-dinməz dayanmış anası, key-key ətrafı süzən bacısı...

Bu vaxt otaqda işıq közərməyə başladı, əvvəl zəiflədi, sonra gücləndi. Yenidən zəiflədi…

Ev sahibləri arasında həyəcanlı bir canlanma yarandı:

– Gəldilər…

Nəzrin heç nə anlamış deyildi: “Bunlar nə danışırdılar? Kim gəldi?”

Qəfildən Suğra dəyişmiş və qorxulu səs ilə ucadan soruşdu:

– Siz bilirsiniz ki, bu saat İsa babanın ocağındasınız?

Elə bil qızın bədən forması da dəyişmişdi.

Anası susurdu. Nəsə demək istəsə də, səsi çıxmırdı. Nəzrin çox yavaşdan cavab verdi:

– Bizi Nisə xala çağırıb. Suğra, sənə nə olub? Niyə belə danışırsan?

– Sən... Sən… Sən çox asi adamsan. Allaha qarşı çıxırsan. Onun yaratdıqlarını bəyənmirsən...

Qorxmuş Zəminənin güclə eşidilən səsi gəldi:

– Yox, axı siz bilirsiniz, biz necə inanclıyıq...

– İnanclıyıq... Biz bilirik, siz necə inanclısınız... Elə bu qızını götür... bilirsən, onun ağlında nələr var?

Ovunun üzərinə şığıyan şahin kimi Nəzrinin üstünə yeridi. Şəhadət barmağını onun alnına söykəyrək səsini yüksəltdi:

– Mən sənin nə düşündüyünü bilirəm, eşidirəm... Sən bizə inanmırsan. Buna görə cəzalanacaqsan.

Suğra əlini, adamı çalmağa hazırlaşan gürzənin başı kimi tutub Nəzrinin uzərinə yönəltdi. Nəzrin üstünə tökülən ağırlıqla yanaşı, bədəninin keyidiyini, əzalarının donduğunu hiss edirdi. Suğra ona hipnoztik təsir edirdi. O bu haqda oxumuşdu. İndi anladı, anasının, bacısının düşdüyü hal hipnozun birinci mərhələsi “halsızlıq” – “özbaşına imajinasiya” mərhələsi idi. Onun gözü qarşısında əşyalar yavaş-yavaş əriyirdi. Deməli, onu daha sonrakı halla – “katalepsi” ilə trans edirdilər. Bütün bunlara hazırlıq isə çaydan gələn o “qoxu”da idi. Çaya dərman qatmışdılar.

Qəribə poza alan Suğra hansısa bir əşyanı götürüb harasa atırmış kimi sağ əlini yuxarı, aşağı yelləməyə başladı... Bu vaxt elə bil Nəzrini oturduğu stuldan götürüb yerə çırpdılar. Gözlənilməz zərbədən özünü saxlaya bilmədi. Başı döşəməyə möhkəm dəydi. Heç nə anlamırdılar. Nə baş verirdi? Bunu niyə edirdilər? Zəminə balasını vəhşi heyvandan qoruyan ana instinkti ilə özünü irəli vermək istədi. Balayar ona yaxınlaşıb, gözlərinə baxdı, sağ əlini qaldırıb bacısı kimi ona yönəldi:

– Sən qarışma. Bura bizim ərazidir.

Onun da səsi başqa idi... Zəminə ət heykələ döndü sanki. Nəzrin gücünü toplayıb dikəlməyə çalışdı. Suğra nəsə söylənirdi. Deyəsən, dindən, inamdan, reinkarnasiyadan, ruhun başqa bədəndə və ya əşyalarda təcəlla tapmasından nəsə danışırdı. Nədənsə əsiri xatırladan bu köməksiz vəziyyətində Nəzrinin yadına Seyid Əzim Şirvaninin din və mövhumat əleyhinə fikirləri düşürdü. Bir yandan da hər tərəfdən hücuma məruz şüuru hələ sağlam mühakimə edirdi: Orta məktəbi “üç”lə bitirən Suğra reinkarnasiyanı hardan bilir? Krişnanı, Şivanı nümunə çəkib, karmanı bildikləri kimi izah edib, islam müqəddəslərini təhqir edən belə adamları o qəbul edə bilməzdi. Anasının onlara öyrətdiyi, aşıladığı dini dünyagörüşü tamam fərqli idi.

Hipnoz altındakı adam yalan danışmır, vicdanına, ya da vicdani iradəsinə uyğun olmayan

hərəkətlər etmir. Nəzrin özü də bilmirdi ki, səssiz düşündüyünü saydığı bütün bu etirazlarını səsli söyləyirdi.

Suğranın səsinə diksindi:

– ... Bura bax. Başında hansı ilan-qurbağlarla əlləşirsən? Bu nə fikirlərdir? Elə bilirsən, ali məktəbə girmisən, daha hamıdan ağıllısan? İndi biz sənə göstərərik...

Yenə sağ əlini qaldırdı. Əlini qabağa hərəkət etdirən kimi Nəzrin qarşıdakı divara çırpıldı. Bir də... Bir də... Geri çəkib yenə divara çırpdı. Başı keyimişdi elə bil. Divarla zərbələri hiss etmirdi artıq. Ayaqları da bədənini saxlamırdı artıq. Otaq başına fırlanırdı. “Fırlanan otaq”da imdad dilənəcək kimsə yox idi.

Elə bu vaxt ona hələ uzaq olmayan keçmişdə ürək, qəlb haqqında bəzi şeylər anladan, oxuduğu sevgi şeirlərindən danışan, amma isti münasibətləri “etirafa” qədər gəlib çıxmayan Mahirlə göz-gözə gəldi. Daha verilən əzablara dözə bilmirdi. “Niyə? Nə istəyirlər? Nə üçün mən?” – sualları beynini ağac qurdu kimi gəmirirdi. Huşunu itirib çuval təki döşəməyə sərildi.

Bütün bu işgəncələr zamanı susub bir kəlmə də dinməsə də, Nəzrinin baxışlarının ağırlığına dözə bilməyən Mahir ortaya keçdi. Soyuqqanlı görünməyə çalışsa da, titrək səslə dedi:

– Bəsdir, toxunmayın daha. Bəsin götürüb, yəqin...

Stolun üstündəki köhnə qrafindən su götürüb bir az Nəzrinin üzünə çilədi. Əllərini ovuşdurdu. Qızın ayılmağa başladığını görüb azca su içirtməyə çalışdı. Özünə gələn Nəzrin oturan kimi anasına tərəf dartındı. Gözündən yaş yaz yağışı kimi axan Zəminəyə ona toxunmağa icazə vermədilər.

– Biz onun bədənini şeytandan təmizlədik. Toxunsan, yenə şeytan qovmalı olacağıq.

Zəminə bu “şeytan-mələk” oyunu nə hoqqa idi, anlamasa, qəbullanmasa da, balasına daha işgəncə verməsinlər deyə, ona toxunmadı.

Suğra iti baxışlarla Zəminəni və onun balalarını süzdü:

– Bir də bizə şübhə etməyəcəksiniz ki? İnanırsınızmı?

– İnanırıq, inanırıq. – Zəminə tələsik dilləndi.

– Sən necə? – Suğra Nəzrinə döndü. Oturduğu yerdə belə zorla dayanan Nəzrin cavab vermədi. Balayar çox hirsləndi:

– Bu çətin ağıllanar... deyirlər, bəzi ağzıgöyçəklərə qoşulub Qaraxanı, İsa babanı "fırıldaqçı"deyə, ələ salırmış... Hələ danışdıqlarının bədəlini ödəməyib bu qız.

İpə-sapa yatmayan Suğra qəfil əsəbiləşdi:

– Eşidin və bilin ki, belə söhbətlər edənlər hamısı cəzalandırılacaq. Səni ağıllandırmağı mən bilərəm. İçəri otağa salın. Mahir sən də keç ora. Hərəkətləri adekvat görünməyən Mahir başını bulasa da, əmri yerinə yetirmək üçün iç-içə otaqlara açılan qapıya tərəf addımladı.

Zəminə çırpındı. Özünü Suğranın – İsa babanın adamının ayaqlarına atdı. Hönkürməyə başladı:

– Hara? Lazım deyil. Yalvarıram. Dəyməyin ona. Bağışlayın bizi. Balamı verin, – üzünü Nisə arvada tutdu, – Nisə xala, noolar, bir söz de… Sənin də qızın var. Xəcil etməyin bizi el arasında.

– Mən qarışa bilmərəm, – Nisə arvad yerində qurdalanıb donquldandı. Ona qulaq asan yox idi. Həm də az sonra Zəminənin nitqi yenə tutuldu. Səsi çıxmayan Ayseli qucaqlayıb, var gücü ilə ağlamağa başladı. Əlindən başqa heç nə gəlmirdi.

...Gecə ömrünü başa vururdu. Dan yeri sökülürdü.

Qonşu həyətlərdən gələn xoruz səsləri batmaqda olan gəminin sirena siqnalını xatırladırdı bu sabah.

Suğra amansız bir laqeydliklə ağlamaqdan gözləri hədəqəsindən çıxmış Zəminənin qolundan tutub qaldırdı. Onu axşam Nəzrinlə qardaşı Mahiri saldıqları qapıya tərəf itələdi:

– Get, balanı da götür, dəf ol buradan. Sizi sağ buraxdığımıza dua et. Bu barədə bir adama bir kəlmə desən, qızın öləcək.

Huşu bir az özünə gəlmiş ana əlləri əsə-əsə içəri otağın qapısını açdı. Eyvandan düşən lampanın işıqlandırdığı yarımqaranlıq otaqda hər şey bədheybət görünürdü. Diqqətlə baxanda divarın yanındakı köhnə, dəmir çarpayının üstünə

yük yığıldığını anladı. Sol tərəfdə də divara nəsə söykənilmişdi. İrəliləməkdən qorxsa da, Nəzrini tək görməkçün imamlara, adını bildiyi bütün pirlərə, müqəddəslərə dua edirdi. Bəlkə, onu aldadıblar, bəlkə, bunlar hamısı dəhşətli bir yuxu idi... Bəlkə... Bitmirdi bu bəlkələr.

Qəfil döşəmədə nəsə tərpəndiyini hiss etdi. Aşağı əyildi. "Aman, Allah!" – balası idi... Yerdə quru taxtanın üstündə salınmış palazın üzərində Nəzrin tək yatmışdı. Anaya yaman oyun oynamışdılar...

Zəminə cəld Nəzrini qaldırmağa çalışdı:

– Qalx Nəzrin! Bala, qalx evimizə gedək... Nəzrin... – ağlamaqdan tutulmuş səsi eşidilmirdi.

Birtəhər qızını qucaqlayıb bayıra çıxardı. Aysel qardaşını qucağına alıb onları gözləyirdi. Nəzrin donuq və soyuq gözləri ilə ətrafdakıları süzdü. Ev sahibləri qan içib doymuş və günəşin çıxması ilə qaçıb gizlənən vampirlər kimi otaqlara çəkilirdilər.

Bir-birinə sıxılıb nə baş verdiyini anlamayan ana-balalar evlərinə qayıtdılar. Zəminə sanki dəhşətli və kirli bir yuxudan ayılmışdı. Balalarını qoruya bilmədiyi üçün özünü öldürməyə hazır idi. Lakin bu onları tamamilə köməksiz qoymaq deyildimi?

Onu bu addımdan divara çırpılmaqdan üz-gözü şişmiş Nəzrinin ağır psixi vəziyyəti saxladı, bəlkə də.

Uzun müddət yuxu ilə ayıqlıq arasında qalan Nəzrin hətta bir neçə gün yaxın qohumlarını tanımadı. Yazıq qız gözünü bir nöqtəyə dikib uzun müddət hərəkətsiz qalır, toxunan olanda isə dibindən kəsilmiş kötük kimi yerə sərilirdi. Zəminə rayonun ən yaxşı psixoterapevtinin evinə getdi. Ona övladını normal həyata qaytarmaq üçün acizanə yalvardı.

Həkimlərdən, xəstəxana qapılarına ayaq döyməkdən başı ayılanda ölüm yox, yaşamaq və yaşatmaq haqqında düşündü.

Bu arada köməksiz və çarəsiz dul qadın Allahın yaxasından yapışdı, dua etmədi, sanki bir qurd ağzı ilə uladı: "Haqq Sənsən. Başıma gələnlərdən tək agah olan da Sənsən. Mən balalarımı götürüb Sənə sığınmışdım. Tək sənə əyandır ki, ömrüm boyu kimsənin gülünə xar qonsun, istəmədim. Balalarımın haqqını Səndən istəyirəm". Alovlu naləsi sankı buludları əridəcək, ayı, ulduzları yandıracaqdı.

Ala qarğa bala çıxarmayan bir kənddə başına gələn pisliyi çuvalda gizlətmək olmaz. Çox keçmədi ki, bütün kənd bu olaydan xəbərdar oldu. Zəminə və uşaqlarına dayaq olan kənddə Sirac kişinin ocağını az adam lənətləmədi.

Həyat, sonu göydən üç alma düşən nağıl olmasa da, görünür, Yaradan bəddualarını eşitdi.

Bir neçə vaxt sonra isə "İsa baba" və onun əlaltıları kənddən qovuldular. Onlara vasitəçilik edənlərdən kimi yanaraq öldü, kiminin gözləri tutuldu...

Bala dağının, can ağrısının nə olduğunu Tanrı Nisə qarıya və balalarına dadızdırdı:

Hərbçi oğlu Kamil qəzada öldü. Günahsız adamların öcünü günahsız qurbanla ödəyən qarı qurmadığı toy mağarının, gətirmədiyi gəlininin, doğulmayan nəvələrinin vayını çəkməkdən, ağı deyib ağlamaqdan dünya işığına həsrət qaldı.

Onların hesabının alınması on il çəkmişdi. Həm də Nəzrinin arzulamadığı bir formada...

***

O günlərdən illər ötmüşdü. Zəminə övladlarını baş-göz etmiş, fikri nəvələrinə elə qarışmışdı ki, o ağrılı günləri heç xatırlamaq da istəmirdi.

Kamilsə arabir Nəzrinin yuxularına gəlir, üzr istəyirmiş kimi onu məzarının üstünə dəvət edirdi.

Vədinə xilaf çıxmadı Nəzrin. Kəndə – anasıgilə gəldiyi ilk fürsətdə, həyətdəki güllərdən dərib məzarıstana getdi... Bunu nədən etdiyini soruşsaydılar, özü də düz-əməlli başa sala bilməzdi. Məzarın önündə heç kövrəlmədi də. Qayıdanda yenə babasının deyimləri yadına düşdü:

"Haqsızlıq edən zalımın, sitəm edən zülmkarın Haqdan cəzasını alması yaxını qırx gün, uzağı qırx il çəkir" – deyirdi kişi...



## Elşad BARAT

***Şəhid Xudayar Yusifzadəyə***

Mahnısını dinlədim,
Bağrım başı qan oldu...
Özü tarixə döndü,
Səsiylə dastan oldu.

Şəhid oldu Xudayar
Ağladaraq hər kəsi.
Qaldı bizə yadigar
Onun zəfər nəğməsi.

Üzündə təbəssümü
Gülləyə qarşı çıxdı.
Təsadüf oxuduğu
Qələbə marşı çıxdı.

Neçə belə mahnını
Özüylə apardı o,
Savaşın ortasında
Sevməyi bacardı o.

Oxudu Vətən boyu
Qələbə nəğməsini.
Susdurdu öz səsiylə
Düşmənin gülləsini.

Qorudu vətəni də,
Bizi də, şəhid oldu.
Səsi də şəhid oldu,
Özü də şəhid oldu.

Şəhidlik havasını
Çaldı ürəyimizdə.
Getdi Tanrıya sarı,
Qaldı ürəyimizdə.

Onun igidliyindən
Nəsillər danışacaq.
Vətənin ürəyində
Əbədi yaşayacaq!

***Şəhid Cəbrayıl Dövlətzadəyə***

Görüşünə gəlmişəm,
Ağlayım, susum səni?
Dur, öpüm başdaşından,
Bağrıma basım səni.

Görüşünə gəlmişəm,
Qəlbinə su səpəcəm.
Gətir, o silah tutan
Əllərini öpəcəm.

Öpəcəm tarix yazan
İgidliyindən sənin.
Öpəcəm o müqəddəs
Şəhidliyindən sənin.

Necə gözəl baxırsan,
Gözünə qurban, şəhid.
Şuşaya doğru gedən
İzinə qurban, şəhid!

Sən döyüşdə sonacan
Qalan qəhrəman oğul.
Generalın qisasın
Alan qəhrəman oğul.

İndi komandirinlə
Yan-yanasan, qoşasan.
Adın Cəbrayıldısa,
Özün Laçın, Şuşasan.

Füzuli, Kəlbəcərsən,
Dayanmısan dağ kimi.
Qələbəsən, zəfərsən
Külli – Qarabağ kimi.

...Görüşünə gəlmişəm,
Necə gözəl baxırsan.
Şəklinə qurban, şəhid,
Elə bil bəy çıxırsan!

***Şəhid Yüksəl Əlizadəyə şeir yazırdım, divanda məni yuxu aparıb, yuxuda şəhidlə görüşdüm, durub yazdığımı sildim, yuxumu olduğu kimi şeirə çevirdim. Allah rəhmət eləsin!***

İlk dəfə bir şəhidlə
Yuxularda görüşdüm.
Yadımda qalmayıbdı,
Necə, harda görüşdüm.

Gül ətirli havada,
Hər yan ağappaq idi.
Mənim gördüyüm şəhid
Ölməmişdi, sağ idi.

Bəzənmişdi elə bil,
Elə bil bəy çıxırdı,
Şirin təbəssüm ilə
Gözlərimə baxırdı.

Sual vermək istədim,
İstədim ki, danışım,
İstədim ki, kefini,
Əhvalını soruşum.

Sanki dilim tutuldu,
Sanki məni duyurdu,
Sanki fikirlərimi
Öncədən oxuyurdu.

Dedi ki: "Anama de,
Mənə yas saxlamasın.
Özünü incitməsin,
Bu qədər ağlamasın".

"Ağlamasın, gözünü
Silə bilmirəm axı.
İstəsəm də, yanına
Gələ bilmirəm axı".

Bu ki real görüşdü…

***Şəhid Eldarzadə Azərə***

Salam sənə, Vətənə
Arxa duran qəhrəman.
Camışdağda düşmənə
Qan udduran qəhrəman.

Sən bu xalqın əbədi
Xatirində qalmısan.
Göygölün göylərindən
Cənnətə yol salmısan.

Salmısan ürəklərə
Sonsuz məhəbbət, şəhid.
Bu yalançı dünyada
Mütləq həqiqət şəhid.

Canla zarafat olmur,
Cəsarətin bəllidir.
İndi sənin bir balan
Anana təsəllidir.

Təsəllidir atana
Təbəssümlü şəkillər.
Sənin igidliyindən
Danışacaq nəsillər.

Elə bil ki Qazansan
Oğuz döyüşlərində,
"Aprel" döyüşlərində,
"Tovuz" döyüşlərində.

Bu Vətənin adının
Hamısı sənin adın.
Bu ölkənin adının
Yarısı sənin adın.

Sən şəhidsən, şəhidlik
Müqəddəslik deməkdir.
Vətənə sarılmaqda
Birnəfəslik deməkdir.

Mən də vətən olardım,
O məndən başlasaydı.
Sənə Tanrı deyərdim,
Tanrı bağışlasaydı.

***Şəhid Nurlan Atakişiyevə***

Elə baxma şəkildən
Dayanır zaman, şəhid.
Təbəssümü yandıran,
Baxışı donan şəhid.

Deyim sənə, biləsən,
Laçında dayanmışıq.
Müharibə bitibdi,
Qələbə qazanmışıq.

Qazanmışıq sən şəhid
Olduğun o torpağı.
Dalğalanır Şuşada
Azərbaycan bayrağı.

Elə baxma şəkildən,
Gülüşü itən şəhid,
Atası qazi şəhid,
Anası Vətən şəhid.

Sən qələbə sevinci,
Həm də göz yaşı oldun.
Zəfər şəhidlərinin
Kiçik qardaşı oldun.

Sənə söz verirəm mən:

Bu şəklini böyüdüb
Həmişə saxlayacam.
Elə baxma şəkildən,
Bu saat ağlayacam.



Livelin VOQAN Lİ



# Aşiq və Məşuq

Tanınmış mühazirəçi, sufizmə, mistizmə, yuxuyozma və ilahiyyata dair bir neçə kitabın müəllifi Livelin Voqan Li, Nəqşbəndiyyə-Mücəddidiyyə sufi təriqətinin Qərbdə hazırkı varisidir.

Livelin Voqan Li 1953-cü ildə Londonda doğulub. On doqquz yaşındaykən "Od qızı" kitabının müəllifi İrina Tviday ilə görüşündən sonra Nəqşbəndiyyə-Mücəddidiyyə sufi yolunun yolçusu olub. O, İrina Tvidayın varisidir və Nəqşbəndiyyə sufi ordeninin şeyxi adını alıb.

Livelin Voqan Li 1991-ci ildə Şimali Kaliforniyaya köçüb, orada sufi öyrətimini həyata keçirmək üçün Qızıl Sufi Mərkəzinin (The Golden Sufi Centre) əsasını qoymuşdur. Həmin Mərkəz bu gün də fəaliyyətini davam etdirir. Livelin Voqan Li hazırda Kaliforniyada yaşayır.

Mistikaya dair bir neçə sanballı kitabın müəllifi olmaqla yanaşı, Livelin Voqan Li həm də Birləşmiş Ştatlarda, Kanada və Avropanın bir çox ölkələrində geniş dinləyici kütləsi tərəfindən maraqla qarşılanan sufizm, mistizm, Yunq psixologiyası və yuxu yozmaya dair mühazirələri ilə məşhurdur.

Qədim sufi yanaşması ilə Yunq psixologiyasını birləşdirib yuxuyozma sahəsinə gətirdiyi yeni yozumları onu yuxuyozma sahəsində də ixtisaslaşdırmışdır.

1990-2000-ci illərdə apardığı araşdırmaları on bir kitaba daxil olmaqla, sufizmi qərblilər üçün daha əlçatan etmək məqsədi daşıyır.

2000-ci ildən bəri yazılarında müəllif, təlimlərini, əsasən, ruhani öhdəliklər və şüurda qlobal birliyin oyadılması üzərində qurur.

Son vaxtlar isə Livelin Voqan Li qadının mənəvi vəzifələri və ruhani ekologiya barəsində yazıları ilə gündəmə gəlib.

Kitabları içərisində "Allahın əlamətləri" və "İşığın əlkimyası" monoqrafiyaları oxucular tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

**İlahi eşqin mahiyyəti**

Aşiq ilə Məşuqun mistik əlaqəsi bəşəriyyətin ən böyük sirlərindən biridir. Bu, bütün varlığı əhatə etməklə hələ də ancaq insan qəlbində yer alır. Ruhun Allaha olan sevgisi insanı bütünlüklə dəyişdirən və dünyanın gizli üzünü aşkar edən bir ehtirasdır. Mistik səyahət isə bu sevgi münasibətlərinin yaradılması və qəlbinin sevgi ilə Allaha təslim edilməsi və ya bağışlanmasıdır. Birmənalı olaraq bilməliyik ki, qəlbdə Allahdan başqa bir şey yoxdur və Allahın vəhdəti qəlbimizdə möhürlənmişdir. Ruhani səyahət, yolçusuna dualizmdən vahidə, ayrılıqdan Onun vəhdətinə qovuşma təcrübəsinə qədər yol açır.

Ancaq bu səyahət sufilərin sirr dedikləri qəlbin bir halı sayəsində mümkünləşir. Bu hal olmasaydı, nə səyahət olardı, nə də ruhani şüur. Sirlər yalnız Allaha məxsusdur və Allah həmin sirləri Onu sevənlərə bəxş edir. Sirlər həqiqəti dərk etmək üçün verilir. Dünyaya aid olmadığı üçün dünyadan gizli qalan İlahi eşqin mahiyyəti belədir. Sirr İlahi eşqə və Aşiq ilə Məşuqun münasibətlərinə məxsusdur və həmin hal sufilərin qəlblərin qəlbi adlandırdıqları qəlbin ən dərinliklərində baş verir. Sufilər deyirlər ki, bu, qəlblərin qəlbində həm zəvvarı, həm də yolu özündə ehtiva edən bir haldır. Bu məqam həm də Onun bizə olan sevgisinin əsasıdır.

Ruhani yolçuluqda işin böyük hissəsi Onun sirlərini özündə saxlamasını təmin etmək üçün aşiqin qəlbini eqoizmdən və aşağı mənəviyyatdan – bir sözlə, nəfsdən təmizləməkdən ibarətdir. Şagird hazır olduqda əsasən canlı bir ustadın, yetkin qurunun (müəllimin) iştirakı ilə sirr qəlbdən qəlbə ötürülür, aşiqin qəlbinə aşılanır və İlahi eşqin özü tərəfindən də aktivləşdirilir.

Qəlbdəki bu gizli məqam İlahi şüurun orqanıdır, Allahın vəhdətinin şüurudur. Sufi həmin sirri daşıya biləndir. Yol bizi hazırlayır, lakin Onun hədiyyəsi həmişə lütf əlamətidir və bizə sevgi tərəfindən sevgi ilə verilir. Özü ilə ağılın və nəfsin yolları ilə deyil, qəlbin sevgiyə əsaslanan məsuliyyəti ilə yaşamaq yollarını gətirir. Eşq bizdən nəfsimizi qurban verməyi tələb edir, böyük aşiq Mənsur Həllacın sözləri ilə desək, həqiqət qəlbin qulpundan tutduqda özündən başqa oradan hər şeyi boşaldır.

Onun sirlərinin qəlbimizə nüfuz etməsindən ötrü qəlbimizi Allaha təslim etməliyik. Bundan sonra qəlbimiz Allahın iki barmağı arasında tutulur və O onu istədiyi kimi çevirir. Sufi bu işi görmək üçün dünyaya gələn, belə demək mümkündürsə, üzüm yaranmazdan əvvəl şərabdan sərxoş olan biridir. Doğulmazdan əvvəl bizə sevgi damğası vurulur və biz dünyaya sevgiyə xidmət etmək üçün gəlirik.

**Onun eşqini yaşamaq**

Allah aşiqi olmaq sevginin sirrinə, qəlbdə gizlənmiş vəhdətin mahiyyətini dərk etməyə cəlb edilmək deməkdir. Hədiyyə olaraq verilən bu sevgi ayrılıq göz yaşları və qəlbi oyadan həsrət ilə şüurda doğulur. Sevgi bizi qamışlıqdan qoparılmış neyin çağırışı ilə, Məşuqundan ayrı olduğunu bilən ruhun iztirabı ilə oyadır. Əbu Səid Əbülxeyr deyir ki, təsəvvüf əvvəlcə ürək ağrısı idi, sonralar o, danışmaq üçün söhbətə çevrildi.

Sufi olmaq ruhun fəryadını, bu ayrılığın ilkin ağrısını yaşamaq deməkdir. Hicran bizi yenidən sevgiyə qaytarır və onun qiyməti də qəlbin qanına bulaşmış göz yaşlarıdır.

Aşiqin səfəri dönüşü olmayan bir məhəbbət caddəsidir və göz yaşlarımız bizi hicran, təklik və iztirab uçurumuna aparır. Bu xarabalığın səhrasında ümidsizlik bizim yeganə yol yoldaşımız kimi görünsə də, şüurumuzda anlayışımızdan kənar hədsiz qiymətli və həssas bir şey doğulur. Ruhumuz Məşuqunun yaxınlığını hiss edir və O bizə gözlərdən axan yaş qədər yaxınlaşır. Bununla da biz ağrılı olduğu qədər məstedici, dəhşətli olduğu qədər ecazkar bir eşq macərasını yaşayaraq təcrübədən keçirməyə başlayırıq.

Bunlar eşqin alıb apardığı bir sufinin sirləridir. Hər bir aşiqin sevgi münasibəti bənzərsizdir və o çox vaxt danışmaq üçün çox məhrəmdir. Çünki bu, həmişə arzuladığımız, həyatımızın həqiqi mənası olan izahedilməz bir şeydir. İstər Onun toxunuşunun şirinliyində, istərsə də Məşuqumuz olmadan var olmanın şiddətli ağrısında bütün varlığımızı canına çəkən bir sevginin məngənəsində sıxılırıq.

Bir dostumuz qəlbinin Onun çağırışını necə eşitdiyini və cavablandırdığını belə izah edir: “Bu səhər qəlbimin ən gizli mərkəzində elə dərin bir rahatlıq var idi ki, yaşadığım sükunəti təsvir etməyə sözlərim yetərsizdir. Həmin hal bütün gün davam etdi və hələ də ordadır. Bu sükutda yavaş-yavaş Onun çağırışı qalxdı. Səssizliyin hüzuru içərisində Onun əbədi çağırışını az qala eşidə bilirdim. Qəlbim həsrətlə

şirin, qədim, yüngül, davamlı bir ağrı ilə cavab verdi. Yəni bu məni əsl Evimə aparan təkcə sevinc deyil. Bu qədər şirin, bu qədər gerçək olan belə əzabı hiss etdiyim üçün xoşbəxtəm”.

Niyə bəziləri həyatını eşqin həsrəti ilə yaşamaq üçün seçilir? Ona görə ki, bu, Onun iradəsidir. Belə ki, O, “toxuduğu” qobelendə bəzi insanları sevgilisinin həyatını yaşaması üçün yaratmışdır. Belələri Allah tərəfindən möhürlənir və başqasına aid ola bilməzlər. Heç bir münasibət onları qane edə və heç bir insan sevgisi onların qəlbini tuta da bilməz. Onlar bir insana aşiq ola bilərlər, amma hər zaman nəyinsə yetərsizliyini hiss edirlər. İnsani münasibətlərində varlığın zəruri mahiyyəti elə də mühüm rol oynamır. Xarici həyatın təzahürləri nə qədər çox cəlbedici olsa da, yalnız bir şey vacibdir: qəlbin Allah ilə eşq əlaqəsi.

Allaha aid olmaq asan deyil. O, qısqanc bir sevgilidir və bütünlüklə diqqətimizi özünə tələb edir. Biz bütün həyatımızı və qəlbimizi sevgiyə veririk. Eşqə əhd etdiyimiz üçün sevgimizə mane ola biləcək hər şeydən uzaqda dururuq. Allah sevgisinin aynası olaraq yenidən yaradılır, beləcə, Onun dünyasında parlaya bilirik. Problemlərimiz, həyatımızın çətinlikləri və Məşuqumuza bəslədiyimiz sevginin acısı ilə cilalanırıq.

Aşiqin işi sevgisində diqqətli olmaq, bütün həyati çətinliklərinə və bizi əhatə edən sapmalara baxmayaraq, qəlbin daxili əlaqəsi ilə baş-başa qalmaqdır. Sevgi çağırışı haqqında təcrübəsini bölüşən həmin dostumuz bir neçə gündən sonra belə yazırdı: “Sevgidən, sevincdən və bu əsassız, intensiv və sonsuz ağrıdan sonra – indi üç gün sonra yenidən əlaqə telinin incəldiyini hiss edirəm. Yüngül bir sevgi və həssaslıq hələ də var. Mən əlimdən gələni edirəm ki, enerjimi orada qoyum və hamısını dünyəvi öhdəliklərimə verməyim. Bu zərif, boş yeri qoruyub saxlamağa, onu gündəlik işlərimə daşımağa çalışıram. Hiss edirəm ki, bu əlaqə üçün xarici aləmin diqqətimi yayındırmasına qarşı, birtəhər də olsa, mübarizə aparmalıyam. Mübarizəm Onunla təmasda olmaq üçündür. Bilirəm ki, mənim üçün yalnız bir istiqamət var, amma davam etmək də çətindir”.

Bu, əlbəttə, asan deyil. Biz ağlayaraq, dua edərək Məşuqumuzu izləməkdə davam etdiririk. Qəlbimizi təmiz saxlamağa çalışırıq. Əzmlə, səbirlə üzərimizdə çalışırıq. Yol, düşüncə, zikr (Allahın adının təkrarlanması) tətbiqləri ilə hər nəfəsdə Onu xatırlamağa can atırıq. Dünyəvi həyatımızın, ailəmizin və işimizin dolğunluğunu yaşayırıq və eyni zamanda daxili diqqətimizi qəlbə yönəltmək üçün mübarizə aparırıq. Çünki daxili diqqətimizi cəlb edən həqiqi yeganə varlıq var: bu Ona olan sevgimizin tələbləri və Onun bizə olan ehtiyacıdır. Dostum başqa yerdə isə belə yazırdı: “İndi getdikcə daha çox kəşf edirəm ki, həyatımda çox şey var: gözəl uşaqlar, yaxşı bir iş, ətrafımda sadiq dostlar – amma O mənimlə deyilsə, əgər qəlbim bağlıdırsa, hər şey heç nədir”.

**Sevginin xatırlanması**

Sevgi bizə sarılır və parçalayır. Sevgi bıçaq kimi bizi kəsir, incəliklə öldürür. Çünki biz nəfsimizdən qoparılıb Məşuqumuza verilirik. Sevginin vəhdətinə, qəlbin içində möhürlənmiş birliyinə qaytarılırıq. Allah Onu sevənlərin qəlbində özünü göstərir. Bunun necə baş verməsi ağılın dərrakəsi xaricindədir. Bu, çox dərin bir sirdir. Sufinin həyatı bədənində eşqdən başqa heç bir şey qalmayana qədər bu sirri yaşamaq və yaşatmaqdır. Məcnunun sözləri ilə desək: “Eşq varlığımın cövhəridir. Eşq oddur, mən isə odda yandırılan odun. Eşq evə köçdü və evi bəzədi, mən də boğçamı götürüb getdim. Sən məni gördüyünü düşünürsən, amma mən artıq mövcud deyiləm: qalan nə varsa, ancaq Məşuqdur”.

Aşiq və Məşuqun sirri Allahı axtaran hər bir insanın qəlbində gizlidir. Onun məhəbbəti bizi Ona tərəf yönəldən ipdir və kədərimiz də xatırlamağımızın şirinliyindəndir. Biz bir mədəniyyət olaraq bu sevgini az qala unutmuşuq. Leyliyə olan sevgisi Məcnunun ağlını başından çıxarmaqla nəticədə onu Allahla qovuşmuş bir aşiqə çevirdi və bu hekayəti bütün Şərq dünyası yaxşı bilir. Qərbdə isə biz sevgini yalnız şəxsi

münasibətlər sferasına qoyduq və ruha məxsus həqiqi ehtirasla əlaqəmizi itirdik.

Ancaq burda da Ona məxsus olanlar vardır ki, həsrət göz yaşlarıyla ağlayıb Onun üzünü hər yerdə axtarırdılar. Onların da taleyindən İlahi vəhdətdə doğan bu sevgini yaşamaq keçir. Onlar da sevginin varlığına çağırılır, öz nəfslərindən arınmaq üçün sevgiyə təşviq olunurlar. Onların da qəlbləri həssas olduğu qədər sərməst, qəddar olduğu qədər təhlükəli İlahi eşq alovunu yaşadır. Sevgi sirlərinin övladları özlərinə aid deyillər. Bunu onların özləri bilməsələr də, ancaq eşq üçün yaşadıqlarını bilirlər.

Yeni dövrün sərhədlərində gözlədiyimiz bir vaxtda sevginin mistik mahiyyətinə böyük ehtiyacımız vardır. Öz nəfsimizə əsl təbiətimizi, bədənimizin hər hüceyrəsini və ruhumuzun hər nəfəsini əhatə edən birliyi xatırlatmağa ehtiyacımız vardır. Bu qədim sirri dünyamızın bazarına çıxarmaq üçün mistik sevginin müqəddəsliyini bərpa etməyə və onu şüura gətirməyə ehtiyacımız vardır.

Onun aşiqləri məhz bu məqsədi daşıyırlar. Minlərcə ildir, dünyanı ən dərin eşqdən xəbərdar etmək üçün bir araya gəlirlər. Onların qəlblərində yaşatdıqları insanlığa aiddir və bu, bəşəriyyətin sirrinin çox vacib bir hissəsidir. İlahi sevginin bu simi olmasa idi, dünyanın mahnısı itəcək və adi həyatımıza məna verən musiqi sönəcəkdi.



Yenə də biz unutqanlıq uçurumunun kənarında dayanırıq. İstehlakçılığa qapılaraq xəsislik və rasionalizmin korluğu ilə az qala ruhumuzun ipini kəsmişik. Biz itirdiyimizi elə bir dərəcədə itirmişik ki, nəyi itirdiyimizi özümüz də bilmirik. Biz əsl təbiətimizi və yaradılan hər şeyin müqəddəsliyini unutmuşuq. Burada yalnız öz şəxsi məqsədimiz üçün olduğumuzu düşünərək dünyanın Allaha məxsusluğunu unutmuşuq.

Mistik məhəbbətin mahiyyəti safdır, çünki o yalnız Allaha aiddir. Məşuqumuzla birlikdə olduğumuzda o bir xatirə olaraq oyanır və Onun aşiqi bu vəziyyətə qayıtmağın həsrətini çəkir. Mistik sevgi nəfsin istəklərinə və ya bizi özünə əsir etmiş şablonlara yoluxa bilməz. Onun sevgisi tamamilə azaddır və atəşi çox isti yandırır. Mistik sevgi bizə tərtəmiz, heç bir pisliyə bulaşmamış, müqəddəs olanı – Allahın adını xatırladır. Mistik sevgi Onun lütfünün bu dünyaya axa biləcəyi aləmlər arasında bir qapı açır. Aşiq ilə Məşuqun təməl birliyi bizə hardasa unutduğumuz şeyi – Allahdan başqa heç bir şeyin olmadığını yada salır.

O onları sevir və onlar da Onu sevirlər. Aşiqlər də bu sirri yaşayaraq dünyaya bəxş etmək üçün doğulurlar. Qəlbləri Allaha yalvaranda Onun mahnısını eşidirlər. Onun qucağında əridikdə Onun sevgisini hiss edirlər. Ürəyin yaddaşı oyandıqda yaradılışın kimə məxsus olduğunu bilir, kədərin sükutunda Onu tanıyırlar. Vəhdətin zövqündə isə Onun birliyini qeyd edirlər.

Beləcə, Onun aşiqinin qəlbi varlığın sirrini yenidən dünyaya qaytarır: “Hər şeydə Onun Bir olduğuna işarə edən bir şahid vardır!”

**İngiliscədən çevirdi:**
**Elmar Vüqarlı**



Əlizadə NURİ

## DARIXAN AĞAC KİMİ

Təkcə yarama dəymə,
Al, apar bu əzabı.
Ayrı günah edənlər
Çəkir eyni cəzanı.

Sevmək də Tanrıdandı,
İlham istə, ya təb tap.
Ölməyə bir səbəb yox,
Yaşamağa səbəb tap.

Göylər darıxar deyə,
Göyə bir quş buraxdım.
Çıxdın cüt şəklimizdən,
Yanımı boş buraxdın.

Gedənlərə əl verib
Mən yerimdə qalıram.
Yaşanmayan günlərin
Qəzasını qılıram.

Hər gün göy ağacından
Dərirəm bu sözləri.
Sənin də gözün aydın, –
Daha görmür gözlərim…

Yenə qaranlıq düşüb,
Bir quş göydə şam edir.
Göydə nə səs-küydü ki, –
Tanrı da bayram edir?!

Darıxan bir ağacam,
O işıq hardan gələr?
…Tanrı, sulardan soruş,
Yanıma haçan gələr?..

## DARIXMAĞIN RƏSMİ

Hardasan, şəhla gözlüm,
Sən nə şirin acımsan?
Hələ də bilmirəm ki,
Dərdimsən, əlacımsan?

Yuxuma dağıtmısan
Saçının yumşağını.
Sən yoxsan, kim böyütsün
Bu sevda uşağını?

Yol tapıb çıxa bilmir
Bu tinim, bu dalanım.
Mən sevgi qaçqınıyam, –
Gəl, səndə daldalanım...

Düşmüşəm bu çöllərə,
Düşmüşəm – azmaq üçün.
Ürəyim bir divarmış
Rəsmini asmaq üçün...

Dünya günah evidi,
Qaranlıqda ağ seçim?
Bu günahlar içindən
Mən də bir günah seçim…

Bir körpə ümidim var,
Ağlayır qundağında.
Arzularım can verir
Kədərin qucağında...

Hardasan, hardan bilim,
Mən hara üz döndərim? –
Darıxmağın rəsmini
Çəkib sənə göndərim.

Özün bir az uşaqsan,
Kölgən keçir yanımdan.
Adını su aparar,
Düşmə dodaqlarımdan...

## SƏNİN ADINA ŞƏHƏR

Mən sənin adına şəhər salmışam,
Bu gün ad qoyuram küçələrinə.
Oturub şəhəri tumarlayıram, –
Saçını sərmisən gecələrinə.

Başqa şəhərlərə yaman and olub,
Udur acısını tütün şəhərlər.
Mən sənin adına şəhər salmışam,
Qaçıb xəritədən bütün şəhərlər.

...Gəl, öz şəhərini göstərim sənə,
Uzaqda deyil ki, könlüm yaxındı.
Mən sənin adına şəhər salmışam,
Ürəyim – şəhərin baş meydanıdı.

...Tikdim ürəyimin sahillərində,
Qorxdum – gözlərimdən şəhər yan keçə.
Qala qapısıyam mən bu şəhərin,
Təkcə sənin adın qapıdan keçər.

Tanrı bu şəhərə səni şah seçib,
Nə fərqi – sarayı, ya taxtı olsun.
Bir şəhər salmışam sənin adına,
Saldım ki, eşqin də paytaxtı olsun.

...Qapını gün açar, pəncərəni ay,
Bir yanı gündüzdü, bir yanı axşam.
Nə olsun, dünyanı verə bilmədim,
Sənə sevgi adlı şəhər salmışam.

Girib bu şəhəri gəzirəm hərdən,
Çıxmaq istəyəndə kimsə "qal" deyir.
Sənə dünya boyda şəhər salmışam, –
Gör sənə bu şəhər darısqal deyil?!.

## BU PƏRVANƏ NƏ İSTƏYİR, GÖRƏSƏN?

Ağaclardan xatirədi koğuşlar.
Nə yaxşı ki, dağa çəkir yoxuşlar...
Qanadından yaralanıb o quşlar,
Bir şairin varağında ağlayır.

Bağban yatıb... mən də bağa gəlmişəm,
Bu dünyanı unutmağa gəlmişəm.
...Saçlarını ovutmağa gəlmişəm,
Eşitmişəm darağında ağlayır!

Sən baxmısan, sular belə durulub?!
Bəlkə, dəniz gözlərinə vurulub?
...O qoca da qucaqlayıb torunu,
Bir dəryanın qırağında ağlayır...

O, günəşdi, yoxsa göydən yar baxır?
Yar bağrını yaman yaxır yar bağı.
Kim dəyib ki xətrinə o yarpağın,
Bu ağacın budağında ağlayır?

O ocaqdan nə qaldı ki, – bu külü?
Sənsiz kecən bu ömür-gün bürkülü.
O yetim də durub boynubükülü,
Dərdin dadı damağında ağlayır...

Bu sevgi də boy atmadı, dərəsən,
O qadının saçlarına sərəsən...
...Bu pərvanə nə istəyir, görəsən, –
Ürəyimin çırağında ağlayır?..

## SƏNİ GÖZLƏMƏK

Səni sənsiz darıxan
Şəhər kimi gözlədim.
Pəncərəmdə açılan
Səhər kimi gözlədim.

O yoxsa, bu yoxdusa,
Başqa arzu yoxdusa,
Udmağa su yoxdusa,
Qəhər kimi gözlədim.

Əlimə ətək kimi,
Sonuncu gerçək kimi,
Ağaca çiçək kimi,
Bəhər kimi gözlədim.

Bilirsən, nə haldayam?
Fikirdə, xəyaldayam.
Yüz ildi fevraldayam, –
Bahar kimi gözlədim.

## GÖYƏ ÇÖP DAŞIYAN BİR QUŞAM, ANA

Bu qəmlə bələkdə tanış olmuşuq, –
Mən elə bu qəmlə tay-tuşam, ana.
Yerdə yer tapmadım yuva qurmağa,
Göyə çöp daşıyan bir quşam, ana...

Sözün quruyarmı, günəşə sərsən?
Sən köhnə mövzusan, təzə əsərsən.
Dünən ağac idim, kim oldu kəsən? –
Mən indi boş qalan koğuşam, ana.

Sənin haqq dediyin haqq-hesab imiş,
Ölüm iynə imiş, ömür sap imiş...
İçdiyim süd imiş, ya şərab imiş, –
Dünyaya gələndən sərxoşam, ana?!

## SƏNİ ALDATMAĞIM GƏLİR

Bir laylanın dizi üstə
Baş qoyub yatmağım gəlir.
Dənizdə üzmək öyrənib,
Torpaqda batmağım gəlir.

Bu necə ovçudu axı, –
Tətikdə əsir barmağı?
O quş mənə elə baxır,
Özümə atmağım gəlir...

Ömür qoca, könül çağa,
Çəkir məni yol uzağa.
O üşüyən yalquzağa
Bir ocaq çatmağım gəlir.

Göz yaşların ləldi, deyib,
Kədər də gözəldi, deyib,
Bu dünya düzəldi, deyib,
Səni aldatmağım gəlir...





Nihat PİR

# ARTIQ GECDİR…

Miriş dörd qardaşdan ən kiçiyi, həm də elə ən fərasətsizi idi. Oxumadı, sənət-peşə sahibi olmadı, düz 20 yaşına kimi avara-avara gəzdi. Əsgərlik yaşı gəlib çatanda isə ona belə yararsız oldu. Ayağının altı dübbədüz idi. Bütün işlərinə inad kimi.

Günlərin bir günü, lap elə dəqiq desək, Xudu müəllimin qırx mərasimi günü, nəhayət ki, Mirişin də bu monoxrom həyatında günəş özünü göstərdi. Düz 14 ildir, ayağı kəndə dəyməyən, amma bu illər ərzində Moskvada 5 kişidən birinə dönən Vedik onu özüylə Moskvaya aparacağına sözü verdi.

– Mənə düz adam lazımdı, Miriş. Lap elə sənin kimi! – demişdi Vedik. Ondan sonra Mirişin yelinə durmaqmı olardı? Qoltuğunun altı elə qarpızlandı ki, day heç kəsin buyruğuna da getmədi. Kəndin xeyir-şər məclislərində Mirişin boynunun vəzifəsiydi axı yemək daşımaq, çay aparmaq, stol gətirmək… Xeyir iş demiş, Mirişə kənddə heç qız verən də yox idi. Xülasə, atasına – Mirabbas kişiyə bunu deyəndə əvvəl inanmadı, elə bildi, yenə uşaqla zarafat edirlər. Ta ki Vedik özü Mirabbasgilə təşrif buyurana qədər.

– Mirabbas kişi, məni yaxşı tanıyırsan. Məndən yaxşı dədəmi də tanıyırsan. Biz правильные люди da... Allah elə gətirib ki, əlim burda yox, orda gətirib, işimi orda qurmuşam. Çölçülükdə də ki, özün mənnən yaxşı bilirsən, adamın ən zəif yeri доверность məsələsidir, – Mirabbas kişinin sual dolu baxışlarını görən Vedik əllərini yana açdı. – Yəni etibar! Ver Mirişi mənə, oğlunu bəy balası kimi dolandırım! Narahat olma, он всегда будет заботиться о вас, – Vedik samovar çayından içə-içə, altdan-altdan evin uçuq-sökük divarlarına baxır, Mirabbası yola gətirməyə çalışırdı. Düzü, Vediki başa düşməsə də, bu iş elə Mirabbasın da ürəyincə idi. Vediki kənddə kim tanımırdı ki… Kənd nədir, hətta bütün Rusiyada. Amma özünü sındırmırdı.

– Bilirsən, oğul, Miriş mənim ciyərparamdı, – bu dəm kənarda oturub ayaqqabılarının bağları ilə oynayan Mirişin nırçıltısı eşidildi. Bu, Mirişin atasına qarşı eləyə biləcəyi ən radikal etiraz üsulu idi. – Vaxtında oxumadı, oxuda bilmədik, bir az ceydən çıxdı. Amma noolsun, nə içir, nə çəkir, vallah, indiki zamanada belə cayıl tapmaq olmaz. – Mirişin sifəti gül kimi açıldı.

– Знаю, Mirabbas kişi, знаю! – Mirabbasın da, axır ki, başa düşdüyü bir söz oldu. Az qaldı ki, Vedikin sözünü kəsib “hə, bax bunu başa düşdüm” desin. Birtəhər özünü cilovladı. Vedik davam edirdi. – Elə mənə də bax belə чистый adam lazımdı. Sən Rassiyanı yad yer bilmə, narahat olma, evimin bir otağını verəcəm ona. Mənnən yeyib, mənnən yatacaq.

Söhbət elə bir məcrada davam eləyirdi ki, Mirabbas kişinin razılaşmaqdan başqa yolu yox idi. Çox naz eləyib söhbətin şitini də çıxarmaq istəmirdi.

– Yaxşı, Mirişi verdim sənə! – Mirabbas kişi ayağa qalxıb Vedikə əl uzatdı. – Ay arvad, çayları təzələ!

Vedik Mirabbasın əlini ikiəlli sıxıb “нет никакой нужды” – dedi. – Biz gedək bunun pasport işlərini həll edək, bildiyimə görə, ASAN

xidmətdə 3 günə həll eləmək olur, не так ли, Miriş? – deyib Mirişə sarı çevrildi. Miriş əllərini yana açıb boynunu bükdü: “Mən nə bilim?!”

Hə, bax beləcə bizim Miriş dönüb oldu "Rusyət adamı". Çöl-bayır nədir, gördü, pul qazanmaq nədir, gördü, ən əsası isə həyat nədir – hamısını gördü.

İndi Miriş 5 ildən çoxdur ki, Vedikin Moskva bazarlarındakı obyektlərinə mal paylamaqla məşğuldur. Düzü, əvvəl çox aldanırdı. Hesab-kitabı öyrənənə kimi əskikləri xırtdəkdən idi, amma Vedik bütün bunları görməzliyə vururdu. Həmin satıcıları elə Mirişin gözünün qabağındaca iti qovan kimi qovub Mirişə inandığını göstərirdi. Axır, nəhayət, aldana-aldana Miriş də dönüb oldu bazar adamı. Loru dillə desək, sırtıldı. Üzü üzlər gördü Mirişin. İndi Mirişi aldatmaqmı olardı?

Amma dünən Vedikdən aldığı tapşırıq heç ürəyincə deyildi. Belə ki, Miriş Vedikin Ramenskidəki obyektlərinə baş çəkməli, bir müddət orda Vedikin adamı olan erməni Arakellə bir evdə qalmalı, onunla işləməli idi.

– Bax, mənə qulaq as, bura Rusiyadır, Azərbaycan deyil, Miro. Burda правила başqadır. Sənin fikrin özümüzkülərə getməsin. Çöldə-bayırda bir adam ki işinə yaradı, vəssalam, onnan bərk yapış, не отпускай! Burda hamının dərdi çörəkdir, düşmən qaldı səngərdə. Понял?! – Vedik onu yola salanda yaxşı-yaxşı tapşırmışdı.

Əvvəl heç üz vermədi erməniyə. Dindirib danışdırmadı. Amma erməni ki erməni. Dilə nə gəlib? Hər axşam yemək yeyə-yeyə Mirişi altdan-altdan süzür, əməlli-başlı dilxoşluq edirdi.

– Ara, mən düz 11 ildir Vediki tanıyıram, Vediklə işləyirük. Soruş gör, mən ona bir dəfə də olsun, xəyanət eləmişəm, ara? Öz kəndçisi Samedik atmışdı ona, xa-xa-xa, Samedik e, suka, öz kəndçisi…

Miriş Səməd haqq-hesabını da yaxşı bilirdi. Gələndə yolda Vedik danışmışdı. Düz 2 milyon rubl atış gəlmişdi Vedikə. Vedik xəbər tutanda isə gec idi, qaçıb getmişdi Ukraynaya. Vedik də kəndə – dədəsinə xəbər göndərdi ki, oğlun namərd çıxdı, Qasım kişi! Onu sənə bağışlayıram, yoxsa ki, mənim kliçkamı bütün Rassiya bilir. Eybi yoxdur, qurban olsun sənə, mənim adımdan tüpürərsən üzünə!

Doğrudan da, Vedik Rusiya bazarlarında “kliçka”sı ilə tanınırdı. Miriş bu “kliçka”nı Moskvaya gələn günü öyrənmişdi. Hətta gözüylə görmüşdü. Ondan sonra düz bir ay hər gecə yuxuda həmin hadisəni görüb tər-su içində oyanırdı.

Həmin ərəfələri Vedikin ərazisində oğurluq olmuşdu, həm də külli miqdarda. Təsadüfdən oğrunu Miriş gələn günü tapıb gətirdilər. Üzü-gözü al-qan içində olan adamı gətirən kimi Vedikin əlinə-ayağına düşüb yalvardı. Elə ağlayırdı ki, Miriş az qala, qoşulub ona ağlayacaqdı. Heç denən Vedikin tükü tərpəndimi? Qəti! Vedik onu itələyib ayağa qalxdı, siyirmədən qayçını götürüb Mirişə göz vurdu.

– Miro, qulaq kəsə bilirsənmi? Xa-xa-xa!

Miriş dinmirdi, gözləri bərəli, ağzı açıq şəkildə gah Vedikə, gah yerdə yalvaran o yazığa, gah da ki onun başının üstünü kəsdirən boynuyoğunlara baxırdı. “Ay Allah, mən hara düşmüşəm?”

Vedik oğlanı saçından yapışıb qaldırdı, “ещё не родился тот, кто обманывал Ведика” – deyib qulağını kəsib dürtdü ağzına. Oğlanın bağırtısı isə günü bu gün də Mirişin qulaqlarından getmirdi. Miriş o gecəni səhərə kimi qulaqlarından yapışıb həmin dəhşəti fikirləşdi.

– Научишься, Miro, научишься! – deyirdi Vedik.

Miriş ondan sonra öyrəndi ki, Vediki bütün Rusiya bazarlarında “uxorez” (red – qulaqkəsən) kimi tanıyırlar. Vedikə ilişmək, Vedikə atış gəlmək olmazdı. Olardısa, qulağını qurban verəcəksən. Əvvəl-əvvəl bu, Mirişi qorxutsa da, sonradan Vediklə işlədiyinə görə özüylə fəxr eləməyə başlamışdı. Həm də canı-cəsədi olmayan Mirişdən Vedikə görə it kimi qorxurdular axı…

***

– Ara, sən mənim canım, gəl bir tikə çörək ye! – Arakel yenə şirin dilini işə salmışdı.

– Mənim adım Mirişdir! – Miriş arxaya baxmadan əsəbi şəkildə dilləndi.

– Təmiz yadımdan çıxıb, ara, heç soruşmamışam, bağışda, mən də Arakel, – Arakel tezbazar əllərini silib Mirişə yaxınlaşdı, əl uzatdı. Miriş də candərdi onun əlini sıxdı.

İş elə gətirdi ki, Miriş 6 ay Arakellə bir yerdə qalmalı oldu. Məcbur dolandılar. Məcbur da deyirəm, sözün düzü, əməlli-başlı yoldaşlıq edirdilər. Arabir Vedik gəlib baş çəkirdi, tapşırıqlarını verib yenə yoxa çıxırdı. Vedik bir yerdə qalmırdı ki…

Ara, deyəsən, işdər fırıxdı. Vediki yenə aldadıblar, bu dəfə söhbət qulağlıq deyil… – deyirdi Arakel. Amma nə Mirişin, nə də ki Arakelin Vedikin işlərinə qarışmağa ixtiyarı yox idi.

– Siz öz işinizi правилно aparın, qalanı sizlik deyil! – deyirdi Vedik.

Arakel həm də Mirişə araq içməyi, hərdən bir də rus qızlarıyla eşq-məhəbbət macərası yaşamağı da öyrətmişdi. “Ara, bu rus qızdarı ölür biz qaralardan ötrü!”

Düzdür arabir atışırdılar, mübahisə edib bir-birlərini söyürdülər. Amma həmişə siyasi söhbətləri Miriş uduzurdu. Miriş nə bilir axı siyasət nədir?

***

Dünən gecə yaxşı içmişdilər. Odur ki, Miriş bu gün bir az gec oyandı. Oyanan kimi bütün rus kanallarının bar-bar bağırdığı xəbəri eşidib qulaqlarına inanmadı. Amma sonra internetdən qoşulub Azərbaycan kanallarını da nəzərdən keçirdi. Xəbər dəqiq imiş, müharibə başlamışdı.

Vedik demiş, hər şeyin çöl qaydalarına uyğun davam elədiyi bir məqamda belə bir xəbər Miriş üçün həm gözlənilməz, həm də çox sarsıdıcı idi. Nə sevinə bilirdi, nə də ki üzülə. Hər iki hissdən məhrum hiss edirdi özünü. Haqqı yox idi sanki.

– Görəsən, Arakel da eşidib? – bir anlıq fikirləşdi. – Bəs Vedik?

Arakel evdə deyildi. Adətən, səhər tezdən 5-də oyanıb bazara gedirdi. Axşam haqq-hesabını isə Miriş aparırdı.

Telefon zəng çaldı. Atası idi.

– Hə, dədə, hə, hə, bilirəm, indi baxdım. Nə? Doğrudan? Zamiqi? Bıy!.. Allah kömək olsun, dədə, nə deyim?!

Mirişin qanı lap qaraldı. Qardaşını da aparmışdılar – Zamiqi. "Bir qardaş orda ermənıyə güllə atır, bir qardaş da burda erməniylə çörək kəsir. Tfu!" – Miriş özü-özünü yamanladı. Vedikə zəng elədi, ağzını aramaq istədi. Onunsa dünyadan xəbəri yox idi. Başının qarışıq olduğunu, sonra ona zəng edəcəyini deyib dəstəyi asdı. Axşama kimi heç zəng də eləmədi. “Görəsən, indi kimin qulağını kəsir uxoroz müəllim?” – öz-özünə deyindi.

…Axşam evə gələndə Arakelin də qanının qara olduğunu görüb bir az yüngülləşdi. Elə bil bu yükü tək çəkməyə gücü çatmırdı. Arakelin də narahat olması ona təsəlli verirdi.

– Ara, Allah haqqı, mən heç əsgərdə də olmamışam, nəyə lazımdı axı, ara? Biz yoldaşıq... – Arakel dil-ağız eləyirdi. – Biz min illərdi, qonşuyuğ!

Miriş birinci gecəni sadəcə, "yatıram" deməklə kifayətləndi.

Səhəri gün ertədən oyanıb çıxıb getdi. Ondan sonra da axşamlar Arakel yatandan sonra gəlirdi. Hətta son iki günü evə də gəlmədi, Nastyagilə getdi, onunla qaldı. İndi də onlarda idi. Arakeldən zəng gəlirdi:

– Ara, xardasan iki gündür? Mənə bax, gəl evə, balıq almışam, vuraq, sabax ad günümdü.

Oturdular, gecə boyu yedilər-içdilər. Amma Mirişin üzü heç gülmədi. Səhər atasıyla danışanda atası Zamiqdən neçə gündür, xəbər ala bilmədiyini demişdi.

– Ara, siz türklər, kinlisiz, ara. Biz ermənilər həmişə yaxşı qonşu olmuşuğ.

– Hə, çörəyi dizinizin üstdə namərdsiz siz! – Miriş əsəbi şəkildə cavab verdi.

– Ara, sən heç tarix kitabı-zad oxumamısan? Siz türklər başdamusuz. 1915-ci ilin 27 mayında türklər Anadoludakı bütün erməniləri sürgün eləməyə başlayıb. Anadolu e, ara! Öz torpağımızdan! Guya biz türklərə silah çəkmişük, üsyan eləmişük. Xamısı bəhanə! Uşağ bilmədilər, qoca bilmədilər… – Arakel biz az ara verdi, əllərini üzünə tutub bir neçə dəfə burnunu çəkdi. – Ondan sonra da sürgündə xamısını qırdılar… Yazığ qardaşlarım… – Arakel başını masanın tininə söykəyib içini çəkməyə başladı.

– Elə şey olmayıb... – Mirişin, əslində, verəcək cavabı yox idi. Sadəcə, təslim olmağa vicdanı imkan vermirdi. Həm də içində bütün bunların başdan-başa yalan olduğuna qəti əminlik vardı. Arakelsə elə xoda düşmüdü ki, dayanmaq bilmirdi.

– Ara, sən mənim dediklərimə inanmırsan. Mən səni başa düşürəm. Mən kiməm ki? Fağır bir erməni. Bəs tarix, bəs kitablar?

– Hansı kitablar? – Miriş məyusluqla soruşdu. Arakel bir-iki erməni tarix kitabının adını çəkib ayağa qalxdı. Əlinin arxasıyla gözlərini silə-silə:

– Ara, sən kitabı-zadı boş ver, mən bunu içirəm şəxsən, sənin sağlığına! – Rumkanı bir uduma başına çəkdi. – Mən tualetə gedim, gəlirəm. Sən süz.

Arakel masadan qalxan kimi Miriş arxa cibindən balaca bir şüşəkimi çıxarıb içindəki toz məhlulu Arakelin kompot stəkanına boşaltdı. Heç bilmirdi nədi, Moskvadan gələn günü hər ehtimala qarşı siçan zəhəri adıyla almışdı. Toz Arakel masaya gələnə kimi kompota qarışmışdı.

– Ara, bax sənə diyirəm, öz canimçün, mənim üçün fərqi yoxdur. Yaxşı adamın milləti olmur. Vedik tanıyır, bizim burdakı işlərin o biri ortağı da türkdür. Adı nəydi görüm, hə, Mahmut. Çöldə düşmən ancaq sənə xəyanət edəndir, ara. Samedik kimi. – Arakel ermənicə söyüş də söydü.

– Ara, mən bunu içirəm bizim dosduğumuzun sağlığına! Qafqazda həmişə dosduğ olsun! Mən səni bağışdayıram! Götür! – Arakel rumkanı boşaldıb barmağının başını burnuna tutub ufuldadı, kompota dəymədi. Miriş də özünü şübhələndirmədi, o da eynilə rumkanı boşaldıb balıqdan bir tikə qopardı. Amma sonuncu sağlıqdan sonra içində qəribə bir peşmanlıq yaranmışdı.

– Ara, bax mən sənə diyirəm. Vaxtın olanda tap, oxu. 1915-ci ildən türklər etnik təmizləmə adıyla bir milyondan çox erməniyə qarşı soyqırım edib. Həm də heç bir əsas olmadan! Vəhşicəsinə. Bu, tarixdir. İndi sizün dava elədiyiniz o torpaqda da, Şərqi Anadoluda da, Qarabağda da həmişə ermənilər olub, yaşayıb. Həmişə! Erməni xalqı böyük xalqdır!

– Yalandır! – Miriş top-tüfəngin qabağına daş-dəmbəylə çıxmışdı elə bil. O baş açmırdı tarixdən, kitablardan, illərdən. Hətta bir ara özözünə sual da verdi: "Görəsən, etnik təmizləmə nə deməkdir?" Nə bilsin Miriş? Onun bildiyi bircə şey vardı: Azərbaycanın 20 faiz torpağını ermənilər işğal edib.

– Ara, nə yalanı? Türklər həmişə belədir, ara. Özlərinə sərf eləməyən şeyləri qəbul eləmək istəmirlər. Yalan olsaydı, dünya bunu qəbul eləyərdi?

Miriş dinmirdi.

– Ara, – Arakel əlini Mirişin əlinin üstünə qoydu, – gəl bunu da içək sülhün sağlığına! – Sonra da Mirişi gözləmədən dərhal rumkanı başına çəkdi. Ardınca kompotu götürmək istəyirdi ki, Miriş özünü saxlaya bilmədi, bir hərəkətlə stəkanı vurub Arakelin əlindən saldı. Stəkan divara dəyib çiliкləndi.

– Ara, sən neynədün? – Arakel təəccüblə soruşdu.

– Arakel, şələ-şüləni də yığ, dur rədd ol bu evdən! Yoxsa, dədəmin canı, səni öldürəcəm!

– Ara, sən nə danışırsan? Biz...

– Arakel! – Miriş əlini masaya vurub ayağa qalxdı. – Yarım saat sonra qayıdıb səni burda görməyim! – Miriş paltosunu götürüb qapını çırpdı. Küçəni keçib birinci döngədəki kafeyə girdi, pivə sifariş elədi, ardınca Vediki yığdı. Zəng çatmırdı. Ürəyində onu da söydü: "Uxoroz alçaq! "

Ömründə siqaretin dadının nə olduğunu bilməyən Mirişin ürəyindən siqaret keçdi. İçini soyutmağa nəsə tapmırdı elə bil. Yan stollardan birinə yaxınlaşıb siqaret aldı. Yandırdı. Bir qullab vurmuşdu ki, öskürək tutdu. Amma tüstünün dadı ona lap ləzzət elədi, dalbadal iki-üç qullab alıb kürəyi üstə yayxandı. Amma bu ləzzət də çox çəkmədi. Birdən mədəsində qəribə yanma hiss elədi. Pivəni götürüb başına çəkmək istəyirdi ki, yanma hissini şiddətli bir sancı əvəz elədi. Elə bir sancı ki, Miriş yerindəcə ikiyə bükülüb qaldı. Sonra mədəsini ovuşdura-ovuşdura, birtəhər ayağa qalxıb özünü bayıra atmaq istədi, amma bacarmadı. Əvvəlcə stuldan sürüşüb dizləri üstə çökdü, sonra isə böyrü üstə yıxılıb eləcə hərəkətsiz qaldı.

Kafedə səs-küy qopmuşdu, hərə bir qolundan yapışıb Mirişi bayıra sürüdülər. Ofisiant təcili yardıma zəng vurdu.

Təcili yardım həkimi gələnə kimi bütün küçə kafenin qabağına toplaşmışdı. Yaxınlıqdan polis maşınının səsi də gəlirdi. Hamıya nə olduğu maraqlı idi. Həkim yaxınlaşıb Mirişi yoxladı, dodağının qırağından süzülən ağ köpüyə, göyərmiş sifətinə baxıb başını buladı:

– Уже поздно, он умер! Его отравили…



Vaqif YUSİFLİ
*filologiya elmləri doktoru*

# Aysellər

Ədəbi aləmdə eyni adlar – eyni imzalar sizə yaxşı tanışdır. Adlar eyni olsa da, yazı tərzi, deyim və duyum, fərdilik çalarları eyni olmaz. Mən təfərrüata varmadan üç Ayseldən, onların şeirlərindən söz açmaq istəyirəm: Aysel Xanlar qızı Səfərli, Aysel Kərim və Aysel Nazimdən.

Üslub, fərdi dəst-xətt – bunlar özünəməxsusluq deyilən bir anlayışın mahiyyətini ifadə edir. Öncə qeyd etdik ki, mövzular eyni ola bilər, amma yazarları bir-birindən fərqləndirən məhz hər birinin çevrələrində cərəyan edən hadisələrə, sevgiyə, gözəlliyə, təbiətə münasibətdə fərqli xüsusiyyətlər, özünəməxsus cizgilər diqqəti cəlb etməlidir. Əgər bu fərqli xüsusiyyətlər olmazsa, o zaman təqlidçilik, bir-birinin təkrarı meydana gəlir ki, biz buna poeziyamızın hər dönəmində dəfələrlə rast gəlmişik. Bu söhbəti bir qədər sonraya saxlayaq. İndi hər Ayselin şeirlərindən söz açaq və görək onların çağdaş şeir məkanında səsləri eşidilirmi, o məkanda yerləri görünürmü, addımları hiss edilirmi?

Aysel Səfərlinin "Karantin boşluğu" kitabına Xalq şairi Sabir Rüstəmxanlı "Ayrılığın və təkliyin sözü" adlı geniş bir ön söz yazıb. Aysel Kərimin "Kəpənəyin göz yaşı" kitabına isə yenə Sabir müəllim və gənclərin dostu Rəşad Məcid ön söz yazıb. Aysel Nazimin kitabında isə ön söz yoxdur, özünə ustad sandığı şair Balayar Sadiq redaktordur. Əlbəttə, iki Ayselin şeirləri barədə yazılan ön sözlər qətiyyən həvəsləndirici "mükafat" xarakteri daşımır. Səmimiyyətlə yazılan bu ön sözlər ilk növbədə, Aysellərin yaradıcılığına inamdan irəli gəlir. Ümid edək ki, bu inamı onlar gələcək şeir kitablarında doğruldacaqlar.

Aysel Xanlarqızı Səfərli artıq yetkinliyə, sadə dillə desək, doluluğa, tamlığa, bütövlüyə doğru yol gedir. O istər karantin bəlasından, istərsə ayrılıqdan, təklikdən, istərsə də Qarabağdan, Suriyadan, ya İspaniyadan şeir yazsın, o şeirlərin hamısında poetik naxışlara rast gəlmək olur. Poetik naxışlar deyəndə biz şeirin şeir kimi incələməsini təmin edən bədii təsvir vasitələrini, sözü ehya etməyin variasiyalarını nəzərdə tuturuq. İndi fikirləşməyə dəyər ki, axı şair karantindən, koronavirus pandemiyasından nə yaza bilər? Bəlkə də, hər şey. Amma dünyəvi,

ictimai bir bəla sənin içindəki ağrılara qarışırsa, həyatındakı üzücü hisslərlə birləşirsə, o zaman bu tandemi şeirə gətirmək olar. Baxın:

İşıq dirəkləri,
yanağı saralan lampalar da
şahidimdir,
küçələr boyu sevişirdi
təklik.
Mənsə
xəyalını qoynuma alıb,
gözlərimi qapayıb
nəm saçlarını
yastığa dağıtmışdım arzularımın.
Həsrətimin titrək nəfəsini
qurtum-qurtum içirdim.
İllər sonra
ruhumun karantin
boşluğundan çıxıb
cənnətindən keçirdim…

Hər bir şairin şeirlərində bir var ictimai motivlər, bir də var şəxsi- sevgi dünyasıyla bağlı duyğuları. Təbii ki, bunlar bir-birinə əkslik kimi düşünülməməlidir və Ayselin "Karantin boşluğu"nda da belə düşünmürük. Öncə qeyd etdik ki, bu iki mövzu qoşalaşa da bilər, çünki ictimai aləm insan sevgisini rədd eləmir, dünyaya, cəmiyyətə, Vətənə münasibətdə sevginin də öz payı var. Ancaq istər ictimai aləmdən, istərsə də şəxsi duyğulardan söz açanda V.Q. Belinski demişkən: "Şair olmaq indi o deyil ki, quş kimi melodik səslər çıxarıb civildəyəsən, şair olmaq-poetik obrazlarla düşünmək deməkdir". Və Ayselin bir çox şeirlərində də obrazlarla düşünmək bacarığı ilə rastlaşırıq. Daha çox metaforik planda düşünmək…

Bir gecənin xətrinə
Yandırdım qaranlığı.
Sabahları aldatdı
Gözümün toranlığı.
Yaddaşım kirpiyimə
Acı həsrət daşıdı.
Kirpiyimin ucunda
Vətən yadıma düşdü.

Hər bəndi səkkiz misradan ibarət olan "Yadıma düşdü" şeirinin yalnız ilk bəndini misal gətirdik, qalan bütün bəndlərdə də metaforalar yan-yana düzülüb. Məlumdur ki, qaranlığı yandırmaq, gözün toranlığı ilə sabahları aldatmaq, kirpiyin ucunda Vətəni yada salmaq – bütün bunlar bir sifətin başqa bir şeyin üzərinə köçürülməsindən yaranır. Daha bir misal: "Həsrətin gözlərinin Çək rəsmin, yolla mənə. Dərdimin dodaqları Yenə büzülüb, yenə. Tumar çək taleyimə, Hör ölümün saçını. Çərçivəyə salıb qoy Başım üstə acını". "Həsrətin gözləri", “dərdlimin dodaqları”, “tumar çək taleyimə". Məlumdur ki, dərd-qəm, qüssə, kədər, ürək acısı deməkdir (mənaları daha çox), canlı deyil bu məfhum, ona görə dərdin dodağı real mənada ola bilməz, amma şəxsləndirmə priyomu dərdin dodağı – gözü, ürəyi və s. məcazi ifadələri metaforaya çevirir. Yaxud taleyə tumar çəkmək olarmı? Ümumiyyətlə, metaforada cansızlar canlanır, yeni bir məna kəsb edir və Aysel Səfərlinin şeirlərində belə metaforalar çoxdur. "Çətin anlarımda addım səslərinə ovunur içim", "Saçımın tumarı ilişdi dərdin üstümə atdığı qarmaqlarına", "yuvarlanıb aşmışam həsrətimin dibinə" və s.

Sabir Rüstəmxanlı yazır: "Ayselin lirikası sevgiyə köklənib, bir çox şeirləri onun ömrünün acılı-şirinli, üzüntülü nağıllarına, hekayətlərinə bənzəyir" – bu fikri təkcə Aysel Səfərliyə deyil, qadın şairlərin-sevən zəriflərin əksəriyyətinə aid etmək olar. Doğrudan da, onlar öz sevgi həyəcanlarını, ayrılıq üzüntülərini nağıllara, hekayətlərə bənzədirlər, amma unutmayaq ki, bu nağıl və hekayətlərdə şirinlik və vüsal səadətinə yol görünmür. Təbii ki, buna görə onları qınamaq olmaz. Hər kəs öz taleyini yaşayır. Amma bizi o maraqlandırır ki, misal üçün, Məhsəti Gəncəvinin, Natəvanın, Nigar Rəfibəylinin, Firuzə Məmmədlinin, ümumiyyətlə, əsrlər boyu qadın şairlərimizin sevgi

şeirlərindəki o poetik incəliklərə bu günün şair qadınları nə kimi yeni poetik çalarlar artıracaqlar. Təbii ki, XXI əsrin sevgi lirikası tamam başqa bir ahəngdədir, amma sevginin, bu ali hissin mahiyyəti ki dəyişməyib. Füzuli demişkən: "Candan çıxarıb həvayi-eşqi, Tərk eyləməzəm bəyayi-eşqi". Ya da Nəsimi demişkən: "Ey eşqə günah deyən günahkar, Tərk eyləməzəm mən ol günahı". Aysel Səfərlinin sevgiyə köklənən şeirlərində əsas motiv ayrılığın yaratdığı təklikdir, bu təkliyin pəncəsində nalə çəkən bir qəlbin harayıdır. Lirik qəhrəman-sevən qadın hətta etiraf edir: "Artıq əminəm, Bütün sevgilər tənhalığın baş döndərən sərxoşluğu, bir karantin boşluğu". Burada "bütün sevgilər" yox, "mənim sevgim" deyilməsi daha uyarlı olardı. Əlbəttə, ayrılıqların səbəbini təkcə "mən" və "sən" vəhdətinin baş tutmadığı ilə izah eləmək olar, bizim poeziyada buna aid yüzlərlə nümunə gətirə bilərik. "Mən" və "sən" birliyi baş tutmadıqda "köhnəlmiş xatirələr qaraldı yaddaşımda, Alnımdakı yazını göz yaşımla qarğıdım", "Bu gecə darıxmaqdır, uçuruma dönmüşəm, Yuvarlanıb aşmışam həsrətimin dibinə", "Toxunmayın, ağlaram, Bu gün payız kimiyəm". Çoxdur gətirəcəyim misallar. Əlbəttə, Ayselin sevgi şeirlərində "Var yüz min dərdi-pünhan" (Füzuli demiş) və bu şeirlərin qəm yükü çox ağırdır, onu ki Ayselin lirik – qəmli qəhrəmanı öz ürəyində daşıyır, təəssüflənməmək olmur. Fikrimizcə, nə qədər qəmli səslənsə də, onun sevgi hekayətində ruh var. Amma bu ruh kədərlidir: "Sən ömrümü parçaladın", "saatlarla oturub ölümü gözləyərkən o da inad edib gəlməyəndə" kimi sızıltılara bələnir. Amma bu sızıltıların içində də Aysel Səfərlinin sızıltını, qəmi poeziyaya çevirmək istedadı görsənir. Baxın:

Bağçadakı güllərin yanağını dur oxşa,
Bir cüt təbəssüm verim, apar qolların üstə.
Burda buludlar öpür həsrətin gözlərindən,
Daha çiçəklər açmır ömür yolların üstə.

Tut, buraxma güllərin yamyaşıl əllərini,
Söylə kəpənəklərə, xəbərçilik etməsin.
Götür şehli həsrəti qönçənin dodağından,
Bahara tapşır, bir də oralardan getməsin.

Aysel Səfərlinin çox tezliklə istedadlı bir şair kimi ədəbi ictimaiyyətin marağına səbəb olacağına indidən – qabaqcadan proqnoz vermək istəməzdik. Və onun şeirlərini təkcə sevgi lirikası və "karantin boşluğu"ndan yaranan hisslərlə məhdudlaşdırmaq olmaz. Onun metaforalı düşüncəsi general Polad Həşimovun ruhuna sayğı ilə yazdığı şeirdə, "Haralısan", "Laçında qaldı", anasına həsr etdiyi şeirlərdə daha yüyrək nəzərə çarpır:

Dünya
Tovuz boydaydı bu gecə,
bütün manşetlər boyu
güllələnirdi xəbərlər,
Bir generalın son əmrinə
müntəzir dayanmışdı
əsgərlər.
Paytaxta şəhid gəlirdi.

Aysel Səfərlinin "Ən yaxşı şeiri hansıdır?" deyə sorsanız, onun "Ata" şeirinin adını birinci çəkərik. Lirik şeirdə obraz yaratmaq, o obrazı həm real-inandırıcı-ümumiləşdirici, həm də poetik obraz kimi təqdim etmək bu şeirdə uğurlu alınıb. Müəllif ata ölümünü görün necə təsvir edir:

Ata,
sən gedən gün
son nəfəsini
bərk-bərk ovuclarımda sıxıb
saxlamaq istədim…
Son baxışlarındakı
əlvida kəlməsi
bir mərmi sıxdı
uşaqlığımın
xoşbəxt xatirələrinə.

Ayselin elə şeirləri də var ki, o şeirlərdən söz açmamaq, onları yüksək vətənpərvərlik hissinin poetik inikası kimi təqdir etməmək insafsızlıq olardı. "Daha layla söyləmə" və "Haralısan" şeirləri göstərir ki, şair nə qədər subyektiv olsa da, içindəki dərdlərlə yaşasa da, Vətəninin taleyi onun üçün hər şeydən öndədir. "Məndən – "Kimsən?" – soruşsalar, Xocalıda əsir ruham!.. Qeyrətin dar ağacında Çarmıxa çəkilmiş aham..." deyən Aysel başqa bir şeirində anasına deyir: "Şimaldan Dərbənd, Cənubdan Təbriz həsrətinin çalarları var üstündə, Əsir düşmüş Qarabağ haraylarında fəryad qoparır". (Bu şeirləri o, qələbəmizdən öncə yazıb) İnanaq ki, Aysel Səfərli qələbəmizi də şeirlərində əks etdirəcək.

Aysel Səfərlinin şeirləri barədə təəssüratlarımızı burada bitirə bilərdik. Amma onun "Olmaya" rədifli qoşmasını oxuyandan sonra istərdik ki, bir tövsiyəmizi də nəzərinə çatdıraq. İstərdik ki, Aysel xanım şeirlərində nikbinlik, inam vurğusunu artırsın, öz ürəyinin pəncərəsindən qara buludlara, hönkürən yağışlara, əcəlin buz ovcuna yox, səhərin dan yerinə, xoşlamadığı payızın qızılı yarpaqlarına, yerdə, torpaq üstündə sayrışan güllərə, çiçəklərə boylansın.

## İndi isə Aysel Kərimin "Kəpənəyin göz yaşı" şeirlər kitabı haqqında

Söz-Şeir-Musiqi! Emosional təsirin, insan qəlbinə yol tapmağın hərəkət "marşrutunun" getdikcə yüksələn üç müxtəlif pilləsi... Gənc şair Aysel Kərimin şeirlərini oxuyanda, bəstələrini dinləyəndə bu üç kəlməni xatırladıq. Nəfis tərtibatla, müəllifin öz qəşəng şəkilləri ilə bəzədilmiş kitabının səhifələrini vərəqlədik.

Məlumdur ki, şeirlə musiqi arasında bağlılıq çox güclüdür. Şeirin də öz musiqisi var, çünki ölçülü-biçili, müəyyən vəznə sığışdırılan şeir istər-istəməz müəyyən ritmlə, ahənglə müşayiət olunur. Əruz vəznində yazılan hər hansı şeirdə bunu asanlıqla hiss edirsən. Hecalı şeirlərin əksəriyyətində də şeirin musiqisi vacib şərtdir. Hətta sərbəst şeirlərdə də bu musiqinin olmağı vacibdir. Musiqiyə gəldikdə isə, onu yaşadan təkcə melodiya deyil, həm də şeirdir. Aysel Kərimin "Mahnı, romans, himn şeirləri" başlığı altında düzülən şeirləri Söz-Şeir-Musiqi vəhdətini əksər hallarda əks etdirir. Elə birinci şeirdə bu vəhdəti hiss edirik:

Bu həyata, bu dünyaya,
Soyuq qışa, isti yaya,
Keçən günə, gələn aya,
Ötənlərə kim ağlasın?

İnanmıram bu dünyaya,
Bir dağ ikən olur qaya.
Günü, ayı saya-saya
Gedənlərə kim ağlasın?

Şaxta bitir, bahar olur,
Zaman gedir, ömrə dolur.
Açan çiçək bir gün solur,
Bitənlərə kim ağlasın?

Mahnıya yatan şeirdir. Amma bu gün bir çox müğənnilərin, ifaçıların oxuduğu mahnılarda zəif, poetik boyası, ahəngi, rəngi olmayan bəsit şeirlər görürük. O xanəndələr, müğənnilər bu çiy şeirləri məlahətli səsləri içində yaxşıca örtbasdır edirlər. Aysel Kərimin "Dön gəl", "Nəsimiyə ithaf", "Uzaq səfər", "Gerçək yuxum" və uşaqlar üçün yazdığı şeirlər həm mənaca, həm də musiqiyə yatmaq baxımından uğurludur.

Aysel Kərimin "Vətən eşqi, vətən ahı", "Bəşəriyyətlə baş-başa", "Tanrının nəfəs izi" başlığı altında toplanan şeirlərinə gəldiksə isə, bu şeirlərdə onun poetik axtarışlarını da hiss edirsən, bəzən sözü urvata çatdırmadığını da. Ayselin şeir dili sadədir, rəvandır, səlisdir, heç bir əngəl, maneə, dil pozuntusu hiss etmirsən. Fikrin sadə ifadəsi primitivliyə aparmır, poetikliyə yol açır. Özü də onun əksər şeirləri mənalı, düşündürücü fikirlər üzərində qurulub. Məsələn, "Həyat kitabdır", "Ömür nərdivanı",

"Bəlkə", "Bu, yağış deyil", "Həyat öyrədir", "Yer kürəsi", "Gecə-gündüz", "Nəfəs", "Qoca dünya" şeirlərini ona görə təqdir edirik ki, bu şeirlərdə həm söylənilən fikirlər, həm də bu fikirlərin poetik ifadəsi diqqəti cəlb edir... Deyək ki, "Ömür nərdivanı" şeirində insan ömrünün başlanğıcı ilə sonu arasındakı "nərdivanda" ağılla nəfsin mübarizəsi düşüncəyə gəlir, "Qoca dünya"da belə bir fikir ifadə olunur: "Dünyanın əbədi insan köçündə Gedən unudulur, gələn daşlaşır", "Gecə-gündüz" şeirində isə Aysel Kərimin İnsan-Tanrı-Təbiət üçlüyü poetik rəsm kimi diqqəti cəlb edir. Aysel bu şeirdə maraqlı bənzətmələr silsiləsi yaradır:

Ulduzlar gecənin yorğanı olsa,
Ay da yastıq kimi dayansa əgər,
Kainat çarpayı, arzular yuxu,
İnsanın üstünü Tanrımı örtər?

Oyansaq, görəsən, nələr dəyişər?
O bizə bir daha nağıl söylərmi?
Yoxsa bu yuxudan bir anlıq qalxsaq,
O bizdən inciyib, görən, küsərmi?

Biz hələ bilmərik nəyə gəlmişik,
Ömür kitabımız çoxdan yazılıb.
İnsanlar kitabın vərəqləridir,
Hər kəsin torpağı çoxdan qazılıb.

Aysel Kərimin "Suriyalı uşaq" şeiri göstərir ki, o, sərbəstdə də yaxşı şeirlər yaza bilər. Amma bu şeirdə bizi onun vəzni yox, məzmunu, mənası və bununla bəhəm, fikrin açıq, sərbəst deyimi daha çox cəlb edir. Yalançı patriotizmdən uzaq olan bu şeirdə bir suriyalı uşağın taleyi haqqında suallar, düşüncələr öz əksini tapır:

Sən açılan atəşləri
Şimşək çaxması zənn etdin, yavrum?
Yağan qurqunları dolu,
Uçqun-uçurumu oyuncaq,
Qaçıb gizlənməni gizlənpaçmı bildin?
Səni necə aldatdı atanla anan?
Tanrıya şikayət edə bildinmi?
Ağlama, yavrum…

Uşağa verilən suallar dünyanın müharibə ocağında böyüyən və sevgidən, ata-ana məhəbbətindən məhrum olan çocuqların talesizliyini əks etdirir. Bu çocuqlar öləndə o biri dünyada mələk olacaqlar fikri nə qədər yalan imiş... Və şeirin sonunda o uşağın böyüyəndə nə olacağını düşünür, gözlərinə baxır, yox, bu uşaq terrorist olmayacaq!

Aysel Kərimin şeirlərində, fikrimizcə, bir qadın qəlbinin açıq, kimsədən gizli olmayan qapıları üzümüzə açılır. Bu qapılardan içəri keçirik, insanın zamanla, yaşadığı mühitlə, təbiətlə, sevgi dünyası ilə həmahəng olmaq istəyini duyuruq. Vətənini sevən bir ürək sahibi söyləyər: "Mən qürbətdə necə ölüm? Can vətəndə dönüm daşa". İnsan olmaq nədir deyir: "Tanrım, özün yalnız, təksən, İnsanı mələyə döndər". Gecənin poetik rəsmini çəkir:

Üzü ay kimidi, saçı qumraldı,
Hissləri də buruq, hörük gecələr.
Ulduzları küskün, ayrı-ayrıdı,
Param-parça olan bölük gecələr.

Bir vəfasıza üzünü tutub deyir:

Göz yaşının yanğısına bürünüb,
Bir divanə kölgə olub sürünüb,
Birdən-birə gözlərimə görünüb,
İndi baş götürüb hara gedirsən?

"Həyat kitabdır" deyir Aysel Kərim və bu kitabın bəzi səhifələrini vərəqləyir. Daha doğrusu, həmin səhifələri özü şərh edir. Əlbəttə, öz anlamında. Həyatın, gerçəkliyin onun şair hisslərində, duyğularında oyatdığı nəsnələrə baş vurur, məlum təsəvvürlərə münasibət bildirir və ən başlıcası, "fəlsəfəçilik" iddiasına düşmür, düşündüyünü ifadə edir. Bir sözlə, biz onun şeirlərində ağıllı bir qadın dünyası ilə tanış oluruq. Özü də Aysel Kərimin şeirlərində hisslərini səmimi şəkildə ifadə etmək yetərincədir:

Bəlkə, düşüncədir dünyanın adı?
Qalmayıb dilimdə bir tamı, dadı.

Cahana sığmırsa bir quş qanadı,
Belə əziyyətlə çalışmaq nədir?

Kəpənək ömrünə yazdım adını,
Yenicə tanıdım doğma, yadımı.
Qürbəti görməyən bilməz dadını,
Bilməz həsrət ilə alışmaq nədir?

Ayselin şeirlərində suallar qoyulur və bu suallara da cavabları o özü tapır.

Bu suallar bəzən adi suallardır, amma onları şərh eləmək Ayselin düşüncə, fikir arealını da üzə çıxarır.

Aysel Kərimin şeirlərindən söz açıram və öncə "bəzən sözü urvata çatdırmadığı" ifadəsini də işlətdim. Şeirlərdə ardıcıllıq, fikri sona qədər poetik (məhz poetik!) ifadə etmək başlıca şərtdir. Bir də baxırsan ki, bir şeirin iki bəndi çox yaxşı, hətta əla, amma sonuncu bənddə poetiklik yox... Bəli, fikir var, amma poeziya – poetiklik zəifləyir. "Dünyanın bağbanı kimdir?" şeirində olduğu kimi. "Sevgi həsrəti" və bu qəbildən olan həsrətli şeirlərdə "günahkar" aşiqə yağdırılan ittihamlardansa, yaşanılan sevginin qadirliyini ("Sən ey qadir məhəbbət!") nəzərə çarpdırmaq lazım. O "aşiq"də bəhanə axtarmaq, "sən nahaqqı seçib getdin" deməkdənsə, sevginin aliliyindən söz açmaq... Məncə, elə Ayselin "Şahid" şeiri vəfasız aşiqlərə verilən ən yaxşı cəzadır: "Həsrət körpüsünü sevginlə hör ki, Sonra ayrı düşüb bölünməyəsən".

Ayselə poetik axtarışlarında uğurlar arzulayıram. Və bir söz adamı kimi sevinirəm ki, maraq doğuran bir şairin şeirləri ilə tanış oldum və bu tanışlıq davam edəcək…

**İndi isə üçüncü Ayselin şeirləri barədə...**

Gənc şair Aysel Nazimin "Qəlbimin harayı" şeirlər kitabı çapdan çıxıb və o bu kitabdakı şeirlərində, doğrudan da, qəlbinin harayını şeir dililə ifadə edir. Haray sözü bir neçə mənaya malikdir və bu, bir xanım yazarın dilində səslənirsə, o sözü birmənalı anlamaq doğru olmazdı. Son illərdə xanım yazarların şeirlərində biz daha çox ayrılıqlar, hicran motivləri üstündə köklənən haraylara rast gəlirik. Vəfasızlıq edib öz sevgililərindən üz döndərən və sevən bir qəlbi yetim qoyan "aşiqlərin" ittihamı ilə qarşılaşırıq. Amma Aysel Nazimin harayı bu "ənənə"dən bir qədər fərqlidir. Çünki kitabdakı şeirlərdə nikbinlik, həyat sevgisi bədbinliyi, pessimizmi üstələyir. Əlbəttə, bu fikri söyləyəndə biz qətiyyən o iddiada deyilik ki, sevgi şeirlərində haray çəkmək olmaz. Olar, amma o şeir elə yazıla ki, sən o şeirdə haray çəkən bir qəlbin şeiriyyətini (kədərli olsa belə) duyasan. Necə ki Xan qızı Natəvan deyirdi: "Yoxdu bir kimsə mənim dərdimi bilsin, ya Rəbb Ki, mən öz qanım ilə dərdimə dərman etdim". Əlbəttə, zaman dəyişib, indi şeirmizdə də sevgidən doğan harayları, şikayət və etirazları əsl poeziya səviyyəsinə çatdıran nümunələrə rast gəlirik, amma sızıltılara, "Məni niyə atıb getdin?" kimi bədbin ağlamaqlara, hıçqırtılara azmı təsadüf edirik?

Aysel Nazimin bəzi şeirlərində az da olsa, buna rast gəldik. Çox az. Məsələn: "Fələk eşqin məzarını, Qazdı könlümə, könlümə". "Həsrətdən qırıldı, əzildi könlüm, Mən səni unuda bilmirəm axı". "Həsrət oxu ürəyimə sancıldı, Gözlərimdən dərd alovu saçıldı". Bəs onda kitabın adı niyə "Bir qəlbin harayı" olub? Burada "haray" sözü, zənnimizcə, daha geniş bir anlamı ifadə edir:

Xəzan olub doğma yurdun bağları,
İtib gözün qaraları, ağları,
Əllərimin çiçək dərən çağları
O dağların yaxasında qalıbdı.
Dağ çayı bir kəmər idi gümüşü,
İndi dərdin sinəsinə gün düşüb.
Ayna kimi çiliklənən gülüşüm
O dağların yaxasında qalıbdı.

Bir qəlbin harayında 20 Yanvar faciəsinin qurbanları, şəhidləri anılır ("Qeyrətin səsiydi 20 Yanvar"), "Şəhidlər" adlı bir şeirdə yenə eyni mətləbə toxunulur, amma haray çəkmək sevgi şeirlərində daha çox bəllənir. Bu şeirlərdə haray kəlməsi sevgidən doğan intizarı ifadə edir: "Bir

bax, qəlbim həsrətindən yaradı, Harda qaldın, qəlbimin bir dənəsi", "Çiçəyə bürünüb könül bağçası, Qəlbimin bağbanı, söylə, hardasan?" və s.

Aysel Nazim şeiriyyət yolunda hələ titrək addımlar atır və bu addımların bir vaxtlar tam qətiləşəcəyinə ümid edirik. Çünki onun şeirlər kitabında elə nümunələr var ki, həmin yolun başa vurulacağı inamını yaradır. Məsələn, bənövşəyə aid yüzlərlə şeir yazılıb, amma Aysel Nazimin "Bənövşə" qoşması o "Bənövşələr" içində seçilə bilir:

Təbiət ömrünü əlindən alıb,
Kədər qollarını boynuna salıb,
Yenə qəmli-qəmli xəyala dalıb,
De, kimi axtarır gözün, bənövşə?

Canında sevginin qaçıb yuxusu,
Çölləri bürüyüb eşqin qoxusu.
Əsir xəfif-xəfif əcəl qorxusu,
Pərişan olubdu üzün, bənövşə.

Ayselin köksündə çırpınan ürək
Sən kimi məsumdu, sən kimi kövrək.
Bakirə bir eşqin baxışlarıtək
Donub dodağında sözün, bənövşə.

Ayselin "Bu sevgi", "Dağlar", "Tər çiçək", "Görüşünə gəlim, Təbriz", "Yollar" "Gülümsəyir çiçəklər" şeirləri haqqında da "bunlar əsl şeirdir" deyə bilərik. "Gülümsəyir çiçəklər"də qəlbin üzüntüsü, harayı yox, sevinc duyğuları ilə qarşılaşırıq. Elə "Əllərimdə gülümsəyir çiçəklər" misrası göstərir ki, Aysel Nazim metaforaya meyil edir. "Eşqin dadı", "Yazığım gəlir", "Görüşünə gəlim, Təbriz", "Əllərimi buraxma", "Yollar" şeirlərini isə biz Ayselin əşyanı poetik mənalandırmasının gözəl bir nümunəsi hesab edirik:

Dilimin kövrək sözüdür,
Qərib bəxtimin özüdür,
Dərdlərimin körpüsüdür
Göz yaşımı içən yollar.

"Eşqin dadı" şeirindən də bir misal çəkək:

Yenə də könlümüzə
Bahar fəsli gəlibdir.
Dur ayağa, Kərəmim,
Xanım Əsli gəlibdir.

Bu misallar göstərir ki, Aysel Nazim şeirə bir ani həvəs ucundan gəlməyib, o, şeiri şeir kimi yazmaq istəyir və buna gətirdiyimiz misallarda nail olur.

Amma... kitabdakı şeirlərinin hamısı belə deyil. "Gözəl Bakım" şeirində tanış ifadələr, sadəcə, ötən illərin Bakı şeirlərini xatırladır. "Müəllim" şeiri də həmçinin. "Gəlişinə qurban", "Ayseliyəm mən", "Nə yaxşı, gəldin" və bir sıra digər şeirlərdə də şablonçuluq hökm sürür.

Deməli, bir şeir kitabında sanki iki Aysel Nazimlə qarşılaşırıq. Birinci Aysel poetik naxışlar, rənglər axtarır və tapır, şeirin bünövrəsinə hörür. İkinci Aysel isə şeirimizin urvatsız qanadına meyil edir, o qanad uçuşa hazır deyil.

Aysel Nazimin "Arzular çiçəkləyəndə" şeirindən son iki misra:

Ömrümün ilk bahar məktubu kimi
Son bahar ovcunda saxlayar məni.

İlk bahar-son bahar. Bizcə, ilk bahar da, son bahar da – hər ikisi gözəldir.

***...Üç Ayselin şeirlərindən söz açdıq. Şeirlərində axtarışlar da vardı, bu axtarışların uğurlu nümunələri də, qüsurlar da həmçinin. Onların hər birinə yaradıcılıq uğurları arzulayırıq.***



Ziya QARATƏKİN

## GÜL

Qəlbimin üstündə bir gül daşıyıram,
Başım dönür qoxusundan.
Dəli bir qoxudur, anlada bilsəm,
Üsyan alovundan da atəşli, diri
Və qıpqırmızı rəngi...
Qanımı coşdurur yaşam istəyi,
Bu səbəbdən islah olmaz dəli könlüm.

Baxmayın, gözə görünmürəm mən,
Libasım fərqlidir gördüyünüzdən.
Əbalı dərvişəm, hey dolaşıram
Özbaşına, tək – gün, ay, il demədən.
Məkanlar təsvirə gəlməz
Sonsuz səltənətində gülün,
Bu səbəbdəndir, cilovlanmaz çoşqum,
kədərim.
Və bu səbəbdən susuram,
Qəlbimin üstündə bir gül daşıyıram.

## İYDƏ SƏRXOŞLUĞU

*May demədimi,*
*İydə budaqları sevincindən dəli olub,*
*Havalanmış yarpaq dənizində üzür qəlbim?..*

Qarı qışı dözüb tənhalığa,
Saz bənizli dumanlı baxışlarla
Gözlədin...

İl boyu damla-damla topladığın nə varsa,
Bir nəfəsdə paylaşmaq ədasıyla
Sovurub saçlarını dörd bir yana
Ətir saçdın dünyaya.

Üzür yarpaqların, itir içində,
Budaqların ucunda tumurcuqlar yetişir,
Nəfəs alır dərindən.

Bir yenilməz savaşçı ədasıyla
Açaraq qollarını hər iki yana
Zəfər marşları çalırsan,
Ruhumuzu məst edən qoxularınla.

Üstümüzə sulu qartək
budaqlarından
yağar rayihən,

Burum-burum yüksələr
baş döndürən
sirli buxar tüstüsütək.

*Azərbaycan türkcəsinə uyğunlaşdırdı:*
**Kəmalə Umudova**



Ruslan MOLLAYEV

# Elektrik

Altıncı mərtəbədə işlədiyim vaxt pəncərəni hələ gətirməmişdilər, zümzümə ilə otağın işıq kabelini çəkirdim. Şəhərin ən hündür yerində yerləşən bu binada üç gün idi ki, işləyirdim, fevral ayı olduğundan hava tez qaralırdı. Başqa sifarişlərə keçməkdən ötrü işimi tez təhvil verməyə tələsirdim. Əhmədli, "üç buynuz", teleqüllə – hamısı buradan rahat görünürdü. Gəldiyim gündən fikir vermişdim, hava qaralana yaxın şəhərə böyük axınla qarğa sürüsü uçurdu. Adamda elə təəssürat yaranırdı ki, sanki qaranlığı dənizdən şəhərə qarğalar gətirir. Köməkçimin daha bir əmisi "rəhmətə getdiyinə" görə bu gün işə gələ bilməmişdi. Bizdə öldürmək adətdir: yaxşı yerdən sifariş gəldisə, imtina etmək olmaz, avtomatik qohum-əqrəbadan kimisə öldürüb, yasına gedirik. Yaxşı olar ki, məsələn, əmi yoxdursa, deyirsən, əmim rəhmətə gedib, xalan yoxdursa, xalam. Baxma da, düşər-düşməzi olar.

Hava qaralana yaxın qarğalar yenə sürüylə axışdılar. Bu dəfə onlara fikir vermədim, sözlərini tam bilmədiyim mahnını gah özümdən quraşdırıb oxuyur, gah da fit çalıb işimi görürdüm. Məndə hərdən olur, zümzüməylə girirəm işin içinə, bir də ayılıram ki, işin yarıdan çoxunu görmüşəm. Üzüyuxarı tavana kabel bağlayanda pəncərəyə qonmuş qarğanın "qarrr!.." səsindən diksindim, kəlbətin əlimdən düşdü. Qarğa dayanıb gözlərimin içinə baxırdı, ixtiyarsız salam verib zarafatyana:

– Xoş gəlmişsən!.. – dedim.

Qarğa sağa-sola var-gəl edib uzaqda uçan başqa qarğalara baxdı. Yenidən nəzərlərini mənə tuşlayıb:

– Çox sağ ol, – dedi.

Ayaqlarım əsdi, astaca nərdivandan düşüb divara qısıldım. Bədənimdən titrətmə keçdi: buz kimi soyuq, sərt bir titrətmə. Otağın pəncərəsiz olduğunu indicə hiss elədim sanki. Qorxsam da, qaçıb getmədim nədənsə.

– Axı bu necə ola bilər? Sən danışmağı bacarırsan? – soruşdum.

– Bizim çoxumuz danışmağı bacarırıq. Amma danışmaq istəyəndə. Fit çalmağın ləzzət elədi, eşidən kimi uçub gəldim yanına, – dedi.

– Hə, nə bilim... – gülməyim gəlməsə də, üzümə gülüş qatdım: – İşləyəndə adətimdir fit çalmaq.

– Qorxutmaq istəməzdim səni, amma gözlərinin içinə baxmaq üçün gəldim, – dedi.

Belimi divardan ayırıb dirsəyimə baxdım. Toz varmış kimi təmizlədim, amma bu daha çox sığallayıb özünü sakitləşdirməyə bənzəyirdi. Öskürüb boğazımdakı qıcıqlanmanı kəsdim:

– Bu qədər qarğa haradan uçub gəlirsiniz bura? Əvvəllər Bakıda bu qədər qarğa olmazdı.

– Birimiz qərbdən, birimiz şimaldan. Hər istiqamətdən gəlmələr var. Yaşamaq üçün sizin şəhər çox əlverişlidir, – dedi.

– Niyə? Necə yəni? – maraqla soruşdum.

– Çünki sizdə insanlar çox şeyi yarımçıq tullayır, bizim qidalanmağımız üçün zibiliniz çoxdur, – dedi.

– O qədər yerlər var ki, niyə oralara uçub getmirsiz?

– Ora danışa bilməyən qarğalar uçur, bura isə biz. Bunu da deyim, uçub gedirəm: biz oxuya da bilirik. Məktəb vaxtı yazdığın qara rəng haqqında inşanı xatırlayırsan? Müəllimə sizə istənilən rəng haqda inşa yazın deyəndə pəncərəyə yaxın şam ağacına qonub sənə tamaşa edirdim. Sən də mənə baxa – baxa bizim günəşin altında uçmaqdan qaraldığımızı yazırdın. Bu fikir məni çox düşündürmüşdü, xeyli vaxt rəngim ağarsın deyə, günəşli havada uçmadım. Sonra anamdan niyə qara olduğumuzu soruşdum. Dedi, sənin gözəlliyin qaralığındadı. O gündən ağarmaq fikrindən daşınıb rahat uçuram.

Qarğa dimdiyini bir neçə dəfə pəncərə yerinin kandarına sürtüb:

– Salamat qal! – dedi, sonra isə uçub getdi.

Balaca uşaq kimi pəncərəyə qaçıb qarğanın dalınca baxdım. Həyatımda sanki çoxdan gözlədiyim, amma ilk dəfə baş vermiş hadisə ovqatında idim. Yerdən kəlbətini götürüb üzü pəncərəyə tərəf oturdum. Hava getdikcə qaralır, uzaqda şaxələnən evlərdə işıqlar yanırdı.





Nazim ƏHMƏDLİ

**YER ÜZÜ YETİM QALIB**

kölgəm bir ağac boyu
özümdən aralıda;
könlüm alışdı qəfil,
yandı da, qaraldı da.

daha qanadlarımda
qalmadı bir lələk də;
bir yalançı nağılla
qaldım üzü küləkdə.

dərimi çıxartdılar,
dəyişdilər adımı;
mən bir ayrı dünyanın,
ayrı yerin adamı.

ulduzların da şamı
sönəcəkdi bir azdan;
uzun, lap uzun bir qış
dönəcəkdi bu yazdan.

bax, payız yarpaqları
harasından bükülür;
bulud-bulud kölgələr
axşamlara çəkilir.

mən kimə üz tutacam?
qanadlarım göynəyir;
yuxumda dilsiz itlər
əllərimi çeynəyir.

kölgəm məndən uzaqda,
kölgəm adam deyil ki;
birdən baxmaz üzümə,
Tanrı atam deyil ki.

yay da ötüb, beləcə,
payız bir ötüm qalıb;
tanrılar çıxıb gedir,
Yer üzü yetim qalıb...

## DÜNYA BİR YARPAQ BOYDADI

ürəyimə bir səs düşüb,
bilmirəm, bu nə səsdi, nə;
qönçələr təzə doğuldu,
küləklər durub qəsdinə.

yaz gəldi, sular qaynadı,
göydə ulduzlar oynadı;
dünya bir yarpaq boydadı,
biz də qonmuşuq üstünə.

say görüm, dərdin neçədi,
ömrün bir yanı gecədi;
ürəyim sapdan incədi,
bir də könlümü küsdürmə.

ötən günləri saymışam,
ruhumu söz-söz oymuşam;
bir dəstə çişək qoymuşam
həsrətin soyuq büstünə.

ütülürəm ütüm-ütüm,
hara gedim, harda itim?
alışdırıb hara getdin?
gəlib baxarsan tüstümə...

## YENƏ SƏNƏ QOŞULURAM

heç bilmirəm göy üzünə
qara bulud necə düşür;
tellərini yay üzümə,
elə bilim, gecə düşür.

Tanrıdan yol istəyirəm,
sevgini bol istəyirəm;
dilindən bal istəyirəm,
bağçamıza beçə düşür.

niyə kür oluram hərdən,
bezirəm axşam-səhərdən;
ürəyim sıxılan yerdən
canıma səksəkə güşür.

ərişindən-arxacından,
bir cüt tel ayır saçından,
ömrümüzün ağacından
yarpaq bircə-bircə düşür.

yazın, həm qışın oluram,
yarın-yoldaşın oluram;
hərdən göz yaşın oluram,
dərdimiz iç-içə düşür...

## HƏSRƏTİM ŞƏKİL-ŞƏKİL

gecənin ayağından
daş asılıb elə bil;
çöldə gecəquşları
dolaşır səfil-səfil.

gözlərimdə yuxu var,
könlümdə min duyğu var;
canımda bir qorxu var,
qayıdır qəfil-qəfil.

yenə nə olub mənə,
ağrı gəlir hər sənə;
canımda əsir yenə
ürəyim əfil-əfil.

unutmadım bir gün də,
döndüm günün birində;
itən yurdun yerində
nə od qalıb, nə də kül.

buludlar kündə-kündə,
xəyallarım nə sində;
gözlərimin içində
həsrətim şəkil-şəkil...

## DƏRDİM BƏNÖVŞƏ DEYİL

gün qayıdıb, torandı,
dağın üstü qaralıb;
ocaq yanıb, kösövlər
isti-isti qaralıb.

hara ayağın düşüb,
həsrətin yaxın düşüb;
könlümə yanğın düşüb,
göydə tüstü  qaralıb.

bu son payız nə gündə,
yarpaqları bükümdə;
gözlərimin kökündə
çəndi, sisdi, qaralıb.

qan bulaşır, açır dan,
dərddi dağı uçurdan;
qayğıların ucundan
üzüm misdi, qaralıb.

göy üzü şüşə deyil,
dərdim bənövşə deyil;
görünən meşə deyil,
koldu, kosdu, qaralıb.

adı hanı yaşımın,
qarı yoxdu qışımın,
bax, bu qara başımın
qara büstü qaralıb...

## BU DÜNYA BİR TARLADI

çox darıxdım bu aylar,
ötdü çoxlu olaylar;
o taylar, həm bu taylar
könlümü qubarladı.

yəhərləyin atları,
ürəyim çox atdanır;
qürbətin buludları
gecə-gündüz qar dadır.

sevdim uzaq elləri,
əsdi xəzan yelləri;
ayrılığın əlləri
ruhumu mismarladı.

kimdi itirən bizi,
ağ, qara, kürən bizi;
kim əkib görən bizi?
bu dünya bir tarladı.

mən sevdama gül oldum,
yanıb-yanıb kül oldum;
həsrətimə qul oldum,
mənim işim yarladı...

## SƏNİ SEVƏ BİLMƏDİM

qanad açır hər yana,
həsrətim quş kimidi;
baxışların buz tutub,
soyuq yağış kimidi.

uzun yollar boyunca,
dağları dərd oyunca;
ağrı içib doyunca,
ruhum sərxoş kimidi.

yenə  qaynıyır qanım,
sevdamı necə danım;
vallah, üşüyür canım,
bu yaz da qış kimidi.

sular axdı, duruxdu,
könlümə qubar axdı;
elə bil kimsə yoxdu,
bu dünya boş kimidi.

duman yatıb yamaca,
yolumu kimlər aça?
elə bil dost-doğmaca,
dərd də qardaş kimidi.

ömür ilmə-ilmədi,
ayrılıqlar gülmədi;
səni sevə bilmədim-
ürəyin daş kimidi...



Nadir RZALI

# "Bir masa ədəbiyyat"

Bulvarla Sahil metrosu arasındakı keçiddə, bəlkə də, küçə musiqisinin ən gözəl notları uçuşurdu – ifaçı saksafonda Alla Puqaçovanın məşhur "Milyon qızıl gül" mahnısını çalırdı. Biz söhbətimizi yekunlaşdırıb 28 May metrosuna tərəf yollanırdıq. Bu mahnını keçiddə eşidəndə bir anlıq ayaq saxladıq, musiqiçi çox böyük şövqlə ifa edirdi. Gözlərindən elə bir sənət eşqi yağırdı ki, adamın pul atmağa da əli gəlmirdi. İfaçını həmin keçiddən oğurlayıb ən məşhur, ən böyük səhnəyə çıxarmaq kimi dəli bir istək keçirdi könlümüzdən. Məhz söhbətimizdən sonra bu mahnını eşitməyimiz mənə maraqlı gəlmişdi. Mahnıda varlı bir rəssam aktrisanı sevir, hər şeyi satıb ona dərya boyda qızılgül alır, bu sevgidən sonra rəssamın dahi, yoxsa sərsəri olduğu qeyri-müəyyən olur, şah əsəri kimi qızılgüllər yaddaşda qalır. Biz dördümüz – rəssamdan fərqli olaraq bir qarnı ac, bir qarnı tox olan dörd gənc qələm adamı ədəbiyyata vurulmuşuq və gələcəklə bağlı planlar qururuq. Milyon qızılgüllük hünər ardıncayıq və bu barədə dayanmadan düşünürük, elə bütün söhbətlərin, müzakirələrin, çəkişmələrin də qayəsi, əslində, budur.

Hazırlıqdaydım, uşaqlara İvan Krılovun "Ağac" təmsilini izah edirdim. Bu dəm Eminquey Akif zəng elədi, salamlaşdıq, bildim ki, nəsə sözü var:

– Nadir, Elmlər akademiyası metrosu tərəfdəyəm, gəl bura, çay içək.

Dünən Orxan Saffari ilə vədələşmişdik ki, Pünhan Azimin kitab təqdimatına gedək. Elə Eminqueyə də dedim ki, görüşək, sən də bizimlə gəl. Orxanla qərarlaşdırdıq ki, Ulucay Akifə də xəbər edək. Saat 14:00-a, Pünhanın kitabları imzaladığı məkana – Bulvardakı keçmiş "Delfin" restoranına sövdələşdik.

Əlqərəz, görüşdük, Pünhan Azimin kitabını aldıq, ordakı dost-tanışla ayaqüstü hal-əhval tutub "Saat"ın altındakı çayxanada əyləşdik. Ulucay həmişəki məsuliyyətsizliyi ilə gecikirdi,

nəhayət, gəlib çıxdı. Ürəyimizə düşmüşdü ki, bu gün "köhnə"lərdən kiminləsə görüşək. Orxan Rəşad Məcidə zəng elədi. Rəşad müəllim dedi ki, "Bala, Şuşaya gedəcəm, ora hazırlaşıram, gedib gəlim, görüşərik". Dedim, Qulu Ağsəsə zəng edim, bəlkə, gələr. O da işin-gücün çoxluğundan şikayətlənib sonraya saxladı. Bir sözlə, biz "sərsəri dahilər"i təxirə saldılar. Neynək, eybi yox.

Pünhan Azimin kitabını vərəqləyib yaxşı misraları yüksək səslə deyirdik. Eminquey heyrətlə dedi:

– Pünhan sərbəst şeir də yazırmış, maraqlıdır.

Elə bu yöndə meyxana ilə bağlı söhbətimiz başladı. Çayımı içə-içə dilləndim:

– Mənə maraqlıdır ki, niyə yetərincə ciddi misraları olan meyxanaçılar ədəbi mühitdə birmənalı qarşılanmır, ədəbiyyatşünaslığın çəkçevirinə qovuşa bilmir....

Orxan Saffari müdaxilə elədi:

– Bilirsən, ortada meyxana faktoru var. Meyxana ədəbiyyatın ciddi tərəfinə yanaşılmayıb. Ümumi olaraq, ədəbiyyatçıların da meyxanaçılara yanaşması birmənalı deyil. Görürsünüz, meyxanaçının sərbəst şeir yazması adama qəribə gəlir (Eminqueyə işarə edir). Bəzən meyxanaçılar sərbəst şeiri pisləyirlər...

Eminqueyin gözləri yol çəkirdi, həmişə sözə başlamaq istəyəndə belə görkəm alır:

– Bəzən meyxana mühitinin ab-havası mənə xoş gəlmir, təfəkkür məsələsi var. Amma ümumilikdə meyxanaya qeyri-ciddi yanaşmıram, yaxşı meyxanaya da qulaq asıram. Kəramətin və başqalarının meyxanaya yanaşması meyxana üzərindən deyil, meyxana mühitinin üzərindəndir. Məsələn, müasir ədəbi gəncliyə içkiyə görə təzyiq edirlər, sonra yaxşı nəsə oxuyanda deyirlər ki, mən heç bilmirdim, belə yaxşı yazırsan. Eynən də meyxana. Meyxanadan çox böyük şey gözləmək olmaz, heç cılızlaşdırmaq da olmaz.

Bu barədə söhbətlərimiz yavaş-yavaş yekunlaşdı. Meyxanadan bəs ki danışdıq. Hiss edirdim ki, Ulucay bayaqdan sıxılır, müzakirəni sonlandırmağa can atırdı. Özünəməxsus manera ilə söhbəti dəyişdi:

– Əslində, yazarların xüsusi obrazı, qeyri-adi davranışları da ədəbiyyatı oxucular üçün maraqlı edir. Qismət Rüstəmovla danışanda da dedim. Dedim ki, bizim ədəbi mühit, yəni indiki nəsil sizin mühitdən çox fərqlidir, sanki daha maraqsızdır. Onların dövründə obraz da çox idi, məsələn, Qismətin özü, Seymur Baycan, Aqşin Yenisey və s. Təkcə yazıçı kimi yox, həm də bir xarakter kimi onlar bizə maraqlı gəlir. Məsələn, bizdə, demək olar ki, o yoxdur. Onların mühiti daha qaynar idi. Biz ildə, ayda bir dəfə görüşürük, çox işimizi feysbuk üzərindən görürük. Amma belə görüşəndə maraqlı söhbətlər, müzakirələr olur. Bizim başımıza birgə hadisə gəlmir, ona görə də maraqsız olur.

Eminquey asta-asta danışmağa başladı, xasiyyətidir, asta başlayır, yavaş-yavaş tempi, dinamikanı gücləndirir, birdən ani olaraq coşur. Bizim söhbətlərimizin çoxu belə olur, haylı-küylü:

– Bizdən əvvəlkilər obraz yaradıblar. Bunu Nadirə 40 dəfə demişəm. Seymur Baycan, Qismət, Həmid Herisçi, Kəramət və başqaları bilirdi ki, özlərindən qabaqkı şairlər hərəsi bir obrazla yadda qalıb. Obrazsız mümkün deyil ki, sən şeirlə ortada olasan, bir yerə qədər gedə bilərsən. Mənim feysbukda paylaşdığım statuslar, atmacalar hamısı obraza xidmət edir, müəyyən bir obraz yaradıram. Sonra danışmağa başlayırlar ki, həəə, filankəsin filan şeirləri var. Məncə, qıraqdan maraqlı görünmək istəyirsizsə, obraz yaratmalısınız. Məsələn, Orxan özünə obraz yaradıb, Ulucay da həmçinin. Ay Nadir, sən obraz yaratmamısan...

Əslində, düz deyir, amma bilirlər ki, belə söz olanda buruluram...

Arada yarım saat Eminqueylə Ulucayın müzakirə xarakterli mübahisəsi oldu, deyişdilər, küsüşdülər, qırışdılar, bir-birindən gileyləndilər, sonra yenə də barışdılar. Bu müddətdə Orxan bığını tumarlaya-tumarlaya telefonda iki qıza könül verirdi, mübahisə bitəndə biri qalmışdı, biri yox. Mən də elə hey qulaq asırdım...

Söhbəti dəyişdim, qayıtdıq ədəbiyyata:

– Niyə bəzən şairlərə mətnə görə yox, müəllifə görə qiymət veririk, şəxsiyyəti önə çıxardırıq, sonra mətnə baxırıq...

Orxan Saffari həmişəki kimi öz fikrində idi, inadkarlıq edirdi. O həmişə şəxsiyyətə dəyər

verib. Müəllifin tutduğu mövqe xoşagələn olmasa, lap ən gözəl şeiri belə yazsa, hər şeyin üzərində xətt çəkib, təhqirvari tənqid eləməyə başlayıb. Eyni qaydada mənim sözlərimə də belə cavab verdi. Mən isə düşünürəm ki, birinci mətnə fikir verməliyik.

Söz-söhbətin uzandığını görüb sualımın istiqamətini dəyişdim:

– El Romanın yaxşı bir sözü var. Deyir ki, yazıçını mətnə görə oxuyurlar, şairi özünə görə. Niyə belə fərq var?

Eminquey güc yığıb sözə başlamışdı ki, Orxan dilə gəldi:

– Çünki elə bir dövrdəsən ki, təqdimetmə böyük rol oynayır. Məsələn, mən sənə 10 yaxşı şair adı çəkərəm ki, onlar tanınmırlar. Sən mətni təqdim etməyi bacarmalısan. Əgər səni oxumurlarsa, deməli, günah sənin özündədir.

"Elə deyil!" deyib Eminquey sözü Orxanın ağzından aldı:

– Azərbaycan ədəbiyyatı tarixində çox nadir yazıçılar var ki, obraz kimi yaddaşlarda qalıb. Şairlik prosesi ilə yazıçılıq prosesi eyni deyil. Həmişə şair obrazı təntənəli, başqa ab-havada olub və bizim də beynimizə elə həkk olunub. Ona görə də çox vaxt şairə mətnə görə yox, obraza görə qiymət verirlər. Məsələn, şairin işi çaparaqdır, yolda qarşılaşarsan, bir şeir oxuyar, bilərsən ki, hansı səviyyədə şairdir. Amma küçənin ortasında yazıçıya hekayə oxutdura bilməzsən ki... Bizdə şair təkcə şeirlə yox, həm də obrazla tanınır, ta qədimdən belədi.

Ulucay Akif:

– Məncə, oxucular mətndə öz gizlin tərəflərini axtarırlar. Məsələn, mənim demədiyimi, deyə bilmədiyimi yazsın, mənim edə bilmədiyim çılğınlığı eləsin. Sevəndə də çox vaxt həmin şeyə görə sevirik. Məsələn, biz Mikayl Müşfiqi nakam taleyinə görə sevirik. Bəlkə də, uzun illər yaşasaydı, bizim üçün o qədər dəyərli olmazdı. Yesenini çılğınlığına görə, Mayakovskini üsyankar olduğuna görə çox sevirdilər. Ona görə də nəsə olanda şairə deyirlər ki, sənə bunu yaraşdırmadıq, səndən bunu gözləmirdik. Çünki oxucu şairə özü kimi baxır. Özündə görmək istəmədiyi şeyi onda görəndə təəssüflənir.

Söhbətimiz Fikrət Qocanın yaradıcılığı tərəfə yönəldi. Xeyli müzakirə elədik, toqquşan və uzlaşan fikirlərimiz oldu. Ulucayla mən bir cəbhədə birləşmişdik, Orxanla Emin bir cəbhədə. Amma Ulucayın bir cümləsi yaddaşıma həkk olundu:

"On illər keçəndən sonra, şairin mövqeyi, yaratdığı obraz öz mahiyyətini itirəndən sonra ədəbiyyat axtaranda görəcəksən ki, Fikrət Qocanın poeziyasında o ədəbiyyat var".

Gənclər üsyankardır, hamı deyəni demir. Məncə, bu da çox normaldır. Həmişə diskussiyalarımızda fikir ayrılığı olur. Məni mühafizəkarlığıma görə qınayırlar. Amma dostlarla razılaşdığım məqamlar da olur. Nə isə, müzakirələrdən sonra Fikrət Qocanın bir şeirini dedim, uşaqlara ləzzət elədi, razılıq əlaməti olaraq başlarının yellədilər.

Ulucay üzünü Orxana tutub bir sual verdi:

– Orxan, sən niyə çalışmırsan ki, düz-əməlli yazı yazasan? Çox kobud yazırsan, xüsusən publisistik yazılarında.

Orxan elə bil bu sualı gözləyirmiş.

– Üslub yaratmışam demək düz olmaz, amma mənim xəttim və xarakterim budur. İncə yazılar yazmaq alınmır. Məsələn, biri haqqında yazı yazıramsa, onu tənqid eləmək istəyirəmsə, bunu ən sərt şəkildə eləmək istəyirəm. Bəzən bu, təhqirə çevrilə bilər. Sizin haqqınızda yazdığım yazını (Ramiz Rövşənlə bağlı yazısına Ulucayla mən cavab yazmışdıq, Orxan da çox biədəb şəkildə cavab vermişdi) gördüm ki, təhqirsiz yaza bilməyəcəm, bu, içimdən belə gəlir. Hər şeyi öz axarına buraxmışam və kim necə qəbul edirsə, etsin, tənqidlərdən də qaçmıram.

Çox acıqlı şəkildə sual verdim:

– Sən elə bilirsən ki, bununla ədəbiyyatda qalacaqsan?

– Mənim bu kimi şeylərlə ədəbiyyatda qalmaq istəyim yoxdur.

– Gəl səmimi olaq da, hər bir qələm adamının içində bir arzusu var ki, ədəbiyyatda qalsın, xatırlansın.

– Publisistika mənim trolumdur. Mən ondan istifadə edib əsl yazımı oxutmaq istəyirəm.

Ulucay dilləndi:

– O tip yazılar sənin bədii yazılarını oxudan deyil.

– Qoy oxutmasın, hər şeyi zamanın axarına buraxmışam. Bəlkə də, beş il sonra peşman olacam. Amma onu edib peşman olmaq istəyirəm. Mən hazırda buyam.

– Mənə elə gəlir ki, yazarı oxudan onun publisistikasıdır. Məsələn, elə yazıçı Anarı ilk növbədə oxucuya sevdirən onun publisistikası olub, sonra bədii yaradıcılığı.

Eminquey isə məsələyə çox sərrast yanaşdı:

– Biri var ki, sən feysbukda status yazırsan, orada istədiyin formada yaza bilərsən. Bir də var ki, ciddi-ciddi mətbuat üçün yazı yazırsan, bu artıq publisistikadır və sən publisistikaya qeyri-ciddi yanaşırsan. Orxanın nəfəsi yüksək publisitik yazıya çatmır, ona görə də aşağıda var-gəl edir.

O masada əyləşənlər çox yaxşı bilirdi ki, Orxanın gözəl hekayələri və geniş nəsr mütaliəsi var. Eyni zamanda onda yazıçı duruşu var. Amma dediyimiz tənqidlər hamısı Orxanın daha da püxtələşməsinə yönəlmişdi. Paxıllığı ürəyindən atan hər bir gənc ədib daim öz qələm dostunun daha da gözəl əsərlər ərsəyə gətirməsini arzulayar.

Bayaq ədəbiyyatda qalmaqla bağlı fikri səsləndirmişdim. Elə bu barədə də Ulucay sözə başladı:

– Şüuraltı olaraq hamımızda ədəbiyyatda qalmaq istəyi var. Mənə görə, bu günün ədəbiyyatında qalmaq, bu günün oxucusunun marağını cəlb etmək daha vacibdir.

Mən müdaxilə elədim:

– Əslində, bu gün varsansa, oxunursansa, deməli, sabah da varsan da...

– Bəlkə də, sabah olmazsan...

Eminquey sözə başladı:

– Yox, olacaqsan! 20-30 il sonra deyiləndə ki hansı imzalar var, sənin, mənim, Nadirin, Orxanın – hamımızın adı çəkiləcək. Çünki, məsələn, indi yazanlardan biri mənəm, ələnib-ələnib bu günə gəlmişəm. Sadəcə, mən indi çalışıram ki, imzamı təkmilləşdirim, təsdiq etmək kimi dərdim yoxdur.

Ulucay Akif:

– Bilirsən, onun üçün də çalışmaq lazımdır. Mənə görə, təkcə ədəbiyyatda yox, bütün sahələrdə ən vacib kriteriya mütəmadilikdir. Məsələn, niyə görə Messi, Ronaldo sevilir? Çünki 15 ildir ki, onlar zirvədədilər.

Eminquey Akif:

– O da düzdür. Amma, məsələn, Ələkbər Salahzadə bir neçə şeirlə yaddaşda qala bildi, ədəbiyyat tarixinə həkk olundu. Neçə-neçə belə imzalar var.

Ulucay Akif:

– 100 qol vurarsan, amma biri unudulmaz olar. Sən həmişə ən yaxşısını eləməyə çalışmalısan.

Eminquey Akif:

– İki məqam var. Məsələn, Salam Sarvan çox böyük istedad sahibi olub və artıq bitmiş mərhələdir. Niyə? Çünki istedadından kortəbii istifadə edib, artıq tükənib. Amma Mirmehdi Ağaoğlu, mənə görə, çox böyük istedad sahibi deyil. Amma taktika ilə hərəkət edir. Öz kiçik istedadından ustalıqla istifadə edir, öz istedadına xəsislik edir. Çünki 10 il, 15 il sonra ondan nəsə gözləyəcəklər. Bu, insanın öz seçimidir. Hamı öz istedadının ölçüsünü bilməlidir.

Söhbətimiz yekunlaşanda ağlıma bir fikir gəldi. Bayaq Qulu Ağsəslə telefonda danışarkən Qulu müəllim belə bir cümlə işlətdi: "Mənə maraqlıdır ki, siz gənclər bir yerə yığılanda nədən danışırsız, söhbətləriniz hara köklənir?". Düşündüm ki, bu söhbətləri qələmə alıb hörmətli Qulu müəllimi maraqdan xilas edim, yazını "Ulduz" jurnalına yollayım və qonorarımı alım. Alım ki, növbəti söhbət üçün zərurət olsun, hesabı ödəməyə şərait yaransın. Hə, bizi də ruhlandıran, yaşadan o qonorarlardı...

Bulvardan 28 May metrosuna yollananda Ulucay Qismət Rüstəmova zəng elədi ki, onunla görüşək. O da müsait deyildi, başqa vaxta planlaşdırdıq. Bu gün hamı təklifimizi geri çevirmişdi, bir-birimizdən başqa. Elə bizim kimimiz var ki bir-birimizdən başqa?!




# TARİX MÜƏLLİMİNDƏN ŞÜŞA XATİRƏSİ

Deyirdilər, tarixçilərin maraqlı xatirələri olur, inanmırdım. Ta ki tarix müəllimim Şuşadan necə ayrıldığını danışana qədər. Bilmirəm, bu ağrılı-acılı xatirələrə “maraqlı” demək olarmı?! Müəllimim danışanda elə bildim ki, bu, hər hansı filmdən bir fraqmentdir və ya hansısa hekayənin süjeti. Nə yazıq ki, nə filmdir, nə də bədii hekayə. Bu, Azərbaycanın tarixində özünə yer etmiş ağrılı həyat hekayələrindən, sadəcə, biridir.

Sizi nə intizarda saxlayım, istəyirəm elə müəllimimin öz dilindən hadisələri nağıl edim:

“Mən Ələkbərov Vüqar Nizami oğlu 1982-ci ildə Şuşa şəhərində anadan olmuşam. Atam Şuşa rayonunun Xəlfəli kəndindən, anam isə Allahqulular kəndindən olsa da, mən uşaqlığımın heç zaman yaddaşımdan silinməyən, qayğısız, xoşbəxt 10 ilini Gövhər Ağa Məscidinin yanında, Molla Pənah Vaqifin türbəsi ilə üzbəüz binada yaşamışam. Bu məhlə boyu şıltaqcasına gah aşağı, gah yuxarı yüyürərək qaçdığım uşaqlıq illəri ömrümün ən məsud illəri olub. Hərdən fikirləşirəm, bütün yaşadıqlarıma rəğmən, çox xoşbəxtəm ki, məhz belə bir torpaqda dünyaya göz açmışam. Yayı bir gözəl, qışı başqa gözəl olan Şuşanın hər fəslini uşaq həyəcanı və sevinci ilə gözləmişəm. Yayda anamla dağlardan kəklikotu, meşələrdən xarıbülbül dərirdik, “pencər kətəsi” (biz tərəflərdə qutaba “kətə” deyirlər) bişirmək üçün cürbəcür ətirli göyərtilər yığırdıq, qışda isə bəyaz dona bürünən məhləmizdə atamla birgə xizəkdə sürüşürdük. Uşaqlığımız belə oynaq və şən keçirdi, elə bilirdik ki, hər şey beləcə öz axarında davam edəcək...

Lakin, heyif ki, erməni caniləri bu gözəllikləri əlimizdən aldılar, mən və mənim kimi yüzlərlə uşağın sevincini kədərə bürüdülər. Çox yaxşı yadımdadır, 1991-ci ilin dekabrından etibarən şəhərimiz hər gün, istənilən saatda atəşə tutulduğu üçün daha məktəbə gedə bilmədik. Binamız Topxana meşəsi ilə üzbəüz olduğu üçün çox vurulurdu. Ona görə də axşamlar saat 5-6 arası tez yeməyimizi yeyib, paltomuzu geyinib binanın ön tərəfində yerləşən qarajlara düşürdük. Gecəni orada keçirib, gündüz yenidən evə qayıdırdıq. Bu şəkildə hadisələr bir müddət davam etdi, həmin ilin yanvarının 23-nə çatdıq. 24 yanvar mənim ad günümdür. Etiraf etməliyəm ki, bir az ərköyün övlad olduğum üçün ailədə ad günümü qeyd etmək adət halını almışdı. Hər il olduğu kimi, bu il də anam doğum günüm üçün gündüzdən mənim üçün tort hazırladı. Tortu evimizin eyvanına qoydu. Mən də sabah, yəni 24-ü tortumu kəsmək üçün çox səbirsizlənirdim. Həmişəki kimi yenə saat 6-da qaraja düşdük. Həmin ad günümdə atam doğum günü hədiyyəmi bir gün öncədən almışdı. Evdən çıxanda israr edib atamın mənə hədiyyə aldığı maşını da götürdüm. Qarajda hər kəs yuxuya getmişdi. Təxminən gecə saat 3-4 radələri olardı.

Gurultu səsinə yuxudan oyandım. Hər kəs təlaş içində idi, qışqırtı səslərindən, sadəcə, bu sözləri aydın şəkildə eşidə bildim: "Top bizim binaya düşdü". İnsanlar çölə qaçırdılar. Bu an gözüm atama sataşdı, üstü-başı qan içində qaraja girib "Qorxmayın, mən yaxşıyam, amma top bizim evə düşüb" – dedi. Həmin an ürəyimdən bir söz keçdi "Tortumu kəsə bilmədim..." Dərhal gözüm ətrafı gəzdi. Sanki o an hər şeyi hiss etdim və "Özümlə nə aparacağam bəs?" düşüncəsinə qapıldım. Və evimizdən çıxarkən götürdüyüm ad günü hədiyyəmə, qucağımdakı maşınıma baxdım. "Yaxşı ki, bunu gətirmişəm" – dedim...

O gündən sonra bir daha evimizə gedə bilmədik... Və ana torpağımızı 1992-ci ilin mayında tərk etməli olduq. Çox şükür ki, mənim ailəm sağ-salamat çıxa bildi, amma hər kəsdə belə olmadı, şəhid olanlar, əsir düşənlər, itkin düşənlər də oldu... Bizim üçün geri qalan isə jurnalistlərin erməni vəhşiliklərini mətbuatda işıqlandırmaq üçün çəkdiyi şəkillər, anamın dağılmış evinin qapısını bağlayıb götürdüyü açar, evimizin sənədi və bir də atamın mənə həddiyə etdiyi maşın oldu. Bir gecənin içində məktəbimi, evimi, oyuncaqlarımı, hətta ad günü tortumu məndən alan erməni xisləti bir gün bunun qarşılığını alacaqdı. Mən buna inanırdım. Bu inamla da həmin maşınımı özümdə saxlayıb Şuşaya qayıdacağım zaman həmin "10 yaşlı Vüqar"a qaytaracağıma söz verdim.

İllər keçdi, böyüyüb universitetə daxil oldum. Bir gün təsadüfən evimizin açarlarını anamda görəndə çox təəccübləndim. "Bunu niyə saxlayırsan, mama?" sualına o, "Oğlum, mən inanıram ki, bir gün evimizə qayıdacağıq. Düzdür, bəlkə, bu açarlarla daha o evin qapısını aça bilməyəcəyik, ancaq o evə mütləq gedəcəyik" dedi.

Mən universiteti bitirib orta məktəbdə tarix müəllimi oldum. Artıq 18 ildir ki, Xətai rayonu, 249 №li tam orta məktəbin tarix müəllimi olaraq tariximizi, mənfur düşmənlərin bizi torpaqlarımızdan necə didərgin saldıqlarını tədris edirəm. Hər dəfə həmin mövzular barəsində danışarkən Şuşanı xatirələrimlə yad edirdim. Və düşünürdüm ki, bu acı proses, yəqin ki, belə də davam edəcək. Lakin ölkəmizin başçısı cənab İlham Əliyevin hər zaman "Biz işğalla barışmayacağıq!" deməsi məni ümidləndirirdi. Gün gəlib 2020-ci ilin 27 sentyabrına çatdı, həmin gün biz hamıdan fərqli hiss yaşadıq, 44 günlük "Dəmir yumruq" əməliyyatının hər şad xəbərinə sevindik, göz yaşı tökdük, lakin qəlbimizdə bir titrəyiş var idi: "Bəs Şuşa?!". Amma "Şuşasız bizim işimiz yarımçıq qalar" demişdi zatialiləri, belə də oldu, məhz 8 noyabrda Şuşanın işğaldan azad edilməsi ilə işimizə yekun vurduq!

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canından keçən şəhidlərimiz bir neçə il öncə parta arxasında oturub kitab vərəqləyirdi. Lakin indi "Tarix yazanlar" olaraq yaddaşımıza əbədi həkk olundu...

İndi mən qürurluyam, ona görə ki, artıq şagirdlərimə işğal deyil, Zəfər tarixini öyrədəcəm!

Ailəm və mən gedib Şuşanı görmək üçün artıq günlərimizi iplə çəkirik. Prezidentimizin dediyi kimi: «Xoşbəxtəm ki, mən öz vətənimə qayıdıram. Qarabağıma qayıdıram. Qarabağın tacı olan Şuşaya qayıdıram. Və biz öz torpaqlarımızda əbədi yaşayacayıq".

Bu xatirələri qələmə alaraq Vüqar müəllimin timsalında minlərlə məcburi köçkünün yaşadığı hissləri göz önünə gətirmək istədim. Müəllimimin şuşalı olduğunu bilirdim, amma bu həyat hekayəsini heç vaxt danışmazdı, bilməzdik ki, bizə tarix öyrədən adamın özü tarixin şahidi olub. Yalnız Şuşa işğaldan azad olandan sonra bu barədə söhbət etdik və mən məhz o zaman bunları öyrəndim. Demək istəyirəm ki, Şuşanın adamları da Şuşanın özü kimi məğrurdu, müəllimimin bu ağrı-acılı həyat hekayəsini illərlə danışmaması da məhz bunun göstəricisidir. Hər halda, gözəlim Şuşanın məğrur dağlarından, şüşə kimi təmiz, saf havasından, pak bulaqlarının suyundan gələn bir özəllikdir...

**Məleykə MİRZƏLİ**

**P. S.** *Bu yazını qələmə almaq üçün Ələkbərov Vüqar Nizami oğlundan icazə alınmışdır.*



Şahnaz ŞAHİN

**PAYIZ**

Özünü
qapımdan asıb getdi payız...
Qış dəfn edəcək, heyif,
nəm tutan yarpaqları...
Boz sərçələr ağlayacaq,
bumbuz əllər dikəldəcək
başdaşlarını...

Salxım söyüdlər də qocaldı
kölgəsində görüşən
sevgililər kimi.
Arı-sıra boyat
xatirələr tökülür
vitrindən indi...
Daha
sahilə yaxın uçmur balıqlar,
Üzünü yumur dalğalar
dili batmış dənizlərin...
Eh,
həmişə sonda ölür
ayrılıqlar...

**QADIN**

Hər gün səni soruşur
Qoyub getdiyin qadın.
Çıxmır ki yaddaşından
Nə surətin, nə adın.

Küləklərə öyrədir
Saçının sığalını.
Hərdənbir şəkər tapır
İçindən hər acının.

Arı kimi bal yığır,
Yuva qurur quş kimi.
Gecələr yorğun düşür
Yatağına daş kimi.

Dabanları sızlayır,
Ağrılardan çat verir.
Sən bilməzsən, görənlər
Bu dərdə nə ad verir.

Səni səndən qoruyur
Qoyub getdiyin qadın.
Ömürünü, gününü
Yelə verdiyin qadın...

**ŞƏHƏR KASIBLARI SEVMİR**

Cibimi çırpıb çıxdım şəhərdən...
Şəhər kasıbları sevmir.
Sevmir yalın ədaları,
Soyuq dolabları sevmir.

Başından xəyalın qopur,
Diyirlənir dənizə.
Səhər şehi islatmır
Hər cığırı, hər izi...

Tündməcaz, kəmşirindi
Burda adamlar çoxu.
Boğazını yandırmaz
Qoxladığın yad qoxu.

Böyük-böyük danışar
Səninlə böyük şəhər!
Dilində, dodağında
Çiliklənər kəlmələr.

Gedib halsız düşərsən
Soyuq, yalqız yatağa.
Gecə mələklər enməz
Sükut yatan otağa.

İndi qaytar geriyə
Gəldiyim o qatarı.
Şəhər kasıbları sevmir,
Sevmir... qadan alım...



# Ulduzların yanında

*Vətən müharibəsi qəhrəmanı Elmir Umudlunun əziz xatirəsinə*

Güllər–çiçəklər barmaqlarının uclarında qalxıb üfüqdən çıxan günəşi salamlayan vaxt Elmir də yoxuşa sarı qalxırdı. Onun yaşadığı kənddə evlər üç böyük dağa söykənmişdi. O bu dağlara heyran idi. Yüksəklik həmişə bu oğlanı cəzb edirdi. Nənəsi qonşulara deyirdi, bilmirəm ki, bu uşaq oralarda nə görüb? Elə gözümdən yayınan kimi dağın təpəsinə qalxır.

Elmir heç vaxt ora nə səbəbə qalxdığını nənə-babasına demirdi. O, adi bir oğlan idi. Ancaq adi olan çox şey bir gün qeyri-adi ola bilir.

Bu dağ yeli kimi saf olan oğlanın ən sevdiyi dərs rəsmxət idi. Həmişə müstəvidə çəkdiyi xətləri fəzada təsəvvür etməyi xoşlayırdı, bu həndəsi fiqurlar onun xəyallarında ulduzlaracan gedib çatırdı; çəkdiyi xətlər xəyalında gah göy üzünə doğru qalxan nərdivan olurdu, gah da günəşin tellərindən sallanan asılqanlar. O, göy üzünə çıxıb ordan Yerin rəsmini çəkmək istəyirdi və daima düşünürdü: "Axı uzaq planetlərə gedib çıxmağa milyon işıq ili lazımdır, kaş asan bir yolu olardı ..."

O, öz arzuları barədə tez-tez iti Pota ilə danışardı. Pota da sanki hər şeyi anlayırmış kimi başını onun dizlərinə qoyub maraqla dinləyirdi. Oğlan dağın zirvəsindən səmaya baxmağa həmişə gümüşü tüklü, ağ və qıvraq quyruqlu iti Pota ilə gedirdi.

Ancaq günlərin bir günü qəfildən bir hadisə baş verdi; oğlan məktəbdən qayıdanda gördü ki, dağın başında qapqara bir bulud üzük

halqası kimi fırlanır, sanki böyük və dərin ağzı ilə dağı udmaq istəyir. O, dağın ətəyində dayanıb bir xeyli onu izlədi. Bulud yavaş-yavaş balacalaşaraq geri çəkilməyə başladı. Pota da qorxusundan dağdağan ağacının dalında şöngüyüb göyə doğru ulamağa başladı. Elmir Potanı sığallayıb "Sakitləş, qorxulu heç nə yoxdur" – desə də, özü də həyəcanlanmışdı. Onlar həmin günü evə tez qayıtdılar. Həmin axşam oğlanın gözünə yuxu getmədi, pəncərəni açdı və səmaya baxdı. Səmada hər şey çox sakit idi. Ay nazik bir buludun üstündə yelkən kimi dayanmışdı, göydəki ulduzlar yerdəki səhər şehi kimi işım-işım işıldayırdı, bu cür səma oğlanı sakitləşdirirdi. Pota pəncərənin altından burnunu qaldırıb dostuna baxdı, sonra astadan səmaya doğru boynunu uzadıb bir ağız ürkəkcəsinə uladı. Oğlan pəncərəni açıq qoyub mehdən yellənən pərdəyə baxa-baxa yuxuya getdi. Səhərin gözü yuxudan təzə açılan vaxt xoruz banladı. Oğlan barmaqlarının ucunda evdən çıxdı. Günəş buludları yarıb tellərini dağın zirvəsinə sancanda artıq o, yoxuşa çatmışdı. Çobanların sürüləri yamacda oynaşırdılar. Bir-iki saqqallı keçi isə lap yuxarıya dırmaşmışdı. Qonşu oğlan – balaca çoban Elmiri görüb səslədi:

– Sabahın xeyir, ay Elmir. Dostum, bizim saqqalı ağ keçi yuxarılarda gözünə dəymir ki? Dünəndən evə gəlib çıxmayıb...

– Sabahın xeyir, çoban. Yox, görməmişəm. Həm də mən çox vaxt göyə baxıram. Bəlkə də, yanımdan keçib, fikir verməmişəm. Sən qalx yanıma, birlikdə axtaraq.

Oğlanlar qaş qaralanacan, əldən düşənəcən saqqallı keçini axtardılar, lakin tapmadılar.

Balaca çoban məyusluqla dedi:

– Mənim bu keçim yağlı əppək olub uçdu göyə, deyəsən. Babam da şəhərdən gəlib görsə ki keçi yoxdur, məni danlayacaq. Ehh, heç bilmirəm, bu dəcəl hoppana-hoppana hara getdi...

– Yaxşı, fikir eləmə. Mən sabah Pota ilə yenə dağı başyuxarı qalxacam. Bəlkə də, onun ay kimi buynuzları ağaclardan hansınınsa budağına ilişib, ona görə də geri qayıda bilmir.

Balaca çoban dedi:

– Əgər elə olsa, mələrtisi aləmi götürərdi, bəlkə, canavar yeyib, hə?

Elmir:

– Məndən çox buralarda dolaşan yoxdur, bircə dəfə də canavar görməmişəm. Səbirli ol, mən sənin keçini tapacağam.

Balaca çoban sürüsünü haylayıb evə yollandı. Elmir də Pota ilə yamacda oturub fikrə getdi:

– Axı saqqalı keçi hara gedə bilər, ay Pota?

Pota burnu ilə havanı iylədi.

– Deyirsən, havadadır?

Bu vaxt Elmir nənəsinin uzaqdan səsini eşitdi:

– Ay Elmirrr, Elmir huuy?..

Oğlan yamacı bir göz qırpımında aşıb, nənəsinə hay verib, yerini bildirib evə yüyürdü.

– Ay bala, neçə gündür, evə niyə gec gəlirsən? Əppək yapmışam, əl-üzünü yu, süfrəyə keç. Bir də, a bala, sən o dağda çox olursan, Ayçil xalagilin sarı danası yoxa çıxıb. Gözünə dəyməyib oralarda?

– Ay nənə, elə bu gün dostlarımdan birinin keçisini axtarırdım. Dağlara canavar gəlib? Gəlibsə, bəs sümükləri hanı heyvanların?

– Nə bilim, ay bala, axırıncı dəfə canavarı sən boyda olanda görmüşəm. Heyvanlar yağlı əppək olub uçurlar göyə...

– Ay nənə, necə yəni əppək... necə yəni uçmaq?

– Ay bala, həmişə yaxşı şeylər yoxa çıxanda deyirlər ki, göyə uçub, çörəyini ye, – deyib nənə qazançadan beş dənə kələm dolmasını boşqaba çəkib qoydu nəvəsinin qabağına.

Elmir:

– Nənə, adamlara da aiddir bu məsəl? Qəhrəmanlar əlçatmaz olur, buna görə deyirlər? Axı yaxşı adamlar da tez yox olurlar. Mən də göyə çıxmaq istəyirəm e, görəsən, kainatda bizdən başqa da insanlar varmı, başqa planetlərdə də keçilər, danalar , dağlar varmı?

– Boy, ağzından yel alsın, a bala, necə yəni göyə çıxmaq istəyirsən?! Çörəyini ye, get dərslərini oxu, danışdığı sözlərə bax ...

Nənə üzüm tənəyinin altına kətil qoyub başladı üzüm salxımlarını qoluna keçirdiyi səbətə yığmağa. Hərdən də nəvəsini bu sözlərinə görə məzəmmətləyirdi: "Göyə uçmaq istəyirmiş, bəxtəvər başıma ..."

Elmir stolun üstündəki çörəyə baxıb fikirləşirdi: "Axı heyvan necə əppək olub uçar göyə? Yoxsa qara bulud onları aparmağa gəlib?" O, yeməyini bitirib otağına keçdi. Bu zaman göydə qəribə bir xəritə əmələ gəlmişdi: ulduzlar rəqs edərək mozaik fiqurlar yaradırdılar asimanda. Oğlan ilk dəfə idi ki, göy üzündə bu cür tamaşaya baxırdı. Hər şey canlı idi. Sanki onu da səhnəyə dəvət edirdilər. O tez qələm-kağız götürüb səkkizguşəli ulduz çəkdi, sonra ondan təyyarə düzəldib səmaya uçurtdu. Birdən böyük bir halə peyda oldu və həmin kağızı uddu. Bu zaman o biri ulduzlar yanıb-sönməyə başladı, sanki oğlana təhlükəni xəbər vermək istəyirdilər. Elmir artıq hər seyi başa düşmüşdü. Bu qara bulud düşmən idi. Və hər gün bir canlını da aparan o imiş. Onu dartışdıran iti ilə evə qayıdan oğlan həmin gecəni fikirlə yatdı. Səhər yuxudan ayılanda Potanı görmədi, çölə çıxıb üzüm xəzəllərini yığan babasından soruşdu:

– Ay baba, iti görməmisən?

– Yox, ay bala, bayaqdan gözümə dəyməyib. Bəlkə, qonşulardan birinin qapısında yatıb? Bax, gör...

Oğlan kəndin canına düşdü, amma Potanı gördüm deyən olmadı. Artıq o anlamışdı: bu bulud kəndə düşmən gəlib, o, təpəgöz kimi hər şeyi udacaq. Cığırda çobanın anasıyla rastlaşdı:

Qadın ağlamsınıb dedi:

– Ay bala, səhərdən bizim uşaq yoxa çıxıb, keçinin dalınca getmişdi, o gedən qayıtmayıb...

Elmirə hər şey aydın idi. Ancaq o indi heç kimi başa sala bilməzdi.

– Mən axtararam, xalacan, sən evə get, – deyib dağı birnəfəsə qalxdı. Zirvədə dayanıb var gücüylə qışqırdı. Şahinlər, qırqovullar, kəkliklər bu səsdən ürküb qanad çırpdılar.

– Eheyy, bu dəqiqə peyda ol. Məni qorxuda bilməzsən. De görüm kəndin sakinlərini niyə öz böyük ağzına alıb aparırsan, hara aparırsan?

Ancaq soruşduqları əks-səda verib özünə qayıtdı. Oğlan dizlərini yerə qoyub göy üzünü diqqətlə izləməyə başladı. Bu zaman bir ulduz alışıb yandı. Oğlan hiss edirdi ki, onunla danışmaq olar, odur ki, dedi:

– Sən dünyanın ən parlaq qaşısan, sən bilərsənmi dostum çobanın, Potanın, itən heyvanların yerini?

Ulduz onun ətrafında işıqdan naxış saldı. Bu naxış oğlanın həndəsə dərsində çəkdiyi naxış idi. Təəccüblə ulduza baxdı. Ulduz nəsə deməsə də, oğlan onu anlayırdı. Bu göyə uçmağın xəritəsi idi. Özü də bilmədən onu çoxdan çəkibmiş. O, hər şeyi anlayırdı. Bu, naxış göyə doğru uzanan körpü oldu. Elmir işıqlı körpüyə mindi. Qara buluda çatdı: saqqallı keçini, çobanı, iti Potanı onun ağzından qapıb Yer üzünə göndərdi. Ancaq ulduzdan xahiş etdi ki, onu yollamasın Yer üzünə, qoy o burda qara buludla daim savaşsın, onu yerdəkilərə zülm etməyə qoymasın. Ulduz oğlanı ən parlaq ulduzlardan birinə çevirdi. Həmin gündən sonra dağların üstünə qara bulud yaxınlaşa bilmir, heç kəs öz sevdiyindən ayrılmır, çünki göydəki Elmir kimi qəhrəman ulduzlar bütün qara buludları dağıdırlar.

**Nurlana İŞIQ**





Qalib ŞƏFAHƏT

# EYNULLANIN İKİNCİ TOYU

(Novella)

Kişi durub-durub təzədən eşqə düşdüyü zaman bu "Taclı mələk" deyilən məxluq Eynullanın kefinə lap soğan doğramışdı.

Aradan neçə illər keçmişdi. Eynullanı beyindən-başdan çıxarıb başa sala bilmişdilər ki, Ay Eynulla, qızın da ərə gedib, özünün ailəsi-uşağı var, indi birtəhər özün öz başını girələyirsən, bir azdan sonra əldən-ayaqdan düşəcəksən, sənə kim baxacaq? Qulağı batmış kimi evin altında niyə tək oturmusan?

A bədbəxt oğlu bədbəxt, xəstə adamsan, şəkərin var, Allah eləməmiş, qəflətən şəkərin qalxar, heç bilən də olmaz, başına nə iş gəlib. Birini al, gətir evin altına qoy, hay deyəndə hayına çatıb əlindən tuta bilsin.

Eynulla çox götür-qoy edəndən sonra axır qərara gəldi ki, yox, qohum-qardaş məni istədiyindən deyir. Yoxsa kimin nəyinə gərəkdi Eynulla evləndi, ya evlənmədi?!

Bircə qızı eşidəndə narazı qalmışdı. Atasına deməsə də, başqası ilə çatdırmışdı ki, vaxtı ilə atam-anam bir-birini ürəkdən istəyiblər. Mən o evdə anamın hənirtisini duyuram. İstəmirəm anamdan sonra o evə başqa bir qadının nəfəsi dəysin. Atamdı, düzə atası deyilik ki, əlimizdən gələn köməyi edəcəyik.

Eynulla qızının dediyini eşidib çox dilxor olmuşdu. Yenə Eynullanı başa salmışdılar ki, ay Eynulla, qızın dediyinə baxma, neynəyəsən, anasını sən öldürməmisən ki?! Bir qəza idi, başınıza gəlib. İndi qızının ailəsi-uşağı, öz işi-gücü var. Nə vaxta kimi sənin əlindən tuta biləcək? İki ev arasında itib-batar. Qız da bir az nəm-nüm edib sonra başa düşəcək. Qızın axırıncı ismarışı belə olmuşdu:

– Gələn doğma anam deyil ki, yad qadındı, qorxuram, atamla aramıza girib özü ilə bərabər soyuqluq gətirsin.

***

Eşidən-bilən əli üzündə mat-məəttəl qalmışdı: "Qətibə Eynullanın tayı-tuşu deyil. Bəs nə əcəb Eynullaya gəlsin?"

Bir neçə nəfər də deyinərək:

– Əə, bu Eynullaya dedilər, get yaşına-başına uyğun birini tapıb evlən, daha demədilər, özündən 20 yaş kiçik qız al. Hələ orası bir yana, yenə qız ərdən çıxmış olsaydı, canı cəhənnəmə, deyərdin, ərdən çıxmış qızdı, daha cavan-sütül oğlana gedəsi deyil ki, qocadan-qoltaxdan birini tapıb özünə bir gün ağlayacaq. Qətibə subay-sultan bir qız, Eynulla da qartımış kişi, görəsən, Qətibə Eynullanın nəyinə gəlir? Yox, burda nəsə var!

Hərə bir tərəfə yozdu. Biri deyirdi, Eynullanın əlli iki yaşı var, Qətibənin otuz iki, arada iyirmi yaş fərq var. Yəqin, qızın problemləri var, yoxsa bu yaşa evdə qız qalmazdı. Bir başqası dedi, Eynullanın imkanı yaxşıdı, yəqin, qız ona görə gəlir, eşidən-bilənin biri də dedi, noldu, Eynulla bu neçə ildə evlənmədi, durdu, durdu, əcəl girləyəndə evlənmək yadına düşdü? İnsanın bu yaşda yola gəlməyi adama qəribə gəlir.

***

Arvadı Sənəm dünyasını dəyişəndən sonra yaxınları Eynullaya məsləhət bilib çox minnət elədilər ki, qağa, artıq olan olub, Allahın qəzasından heç kəs qaça bilməz. Bircə sənin başında görünməyib ki? Özünü toparlayıb bir halal süd əmmiş tap, evinə-eşiyinə sahib çıxsın. Yoxsa sən təkbaşına itib-batarsan. Qızın çox körpədi, onu da böyütmək lazımdı. Evdə qadın olmasa, sənin üçün çətin olar. Bizim də özümüzün öz dərdimiz-sərimiz var, bir dəfə, iki dəfə əlindən tuta bilərik.

Eynulla daş atıb başını tutmuşdu:

– Yox! – demişdi: – İndiyə qədər Sənəmlə baş qoyduğum yastığa başqası ilə baş qoya bilmərəm. Heç biriniz narahat olmayın, uşağı özüm tək böyüdəcəm. Qoymaram, o uşağın boynunda kiminsə minnəti qalsın.

Eynulla ilə Sənəm institutda oxuyarkən bir-birini sevib Leyli-Məcnun olmuşdular. Neçə illər uşaqları olmamışdı, kənardan müdaxilə olmasaydı, heç yadlarına da düşməzdi. Yaxınları demişdi ki, ay Eynulla, sonsuz qalarsan, camaat bizə nə deyər? Hərə ağzında bir züy tutar. Adını sonsuz Eynulla çağıracaqlar. Ya onu boşa getsin, boşamırsan, eybi yox, əl altından biri ilə evlən, qoy sənin də bir uşağın olsun. Öləndə sonsuz ölmə.

Eynullaya söz çox təsir etmişdi. Qohumlarını əməlli-başlı məzəmmət eləmişdi:

– Mən tez-tez yuva dəyişən quşam, nəyəm?! – demişdi.

Evlənəndən yeddi il sonra qızları dünyaya gəlmişdi. Eynulla doğum evində tək qızını çıxarıb gətirmişdi, arvadı ilə bir yerdə övlad sevincinin tamını dada bilməmişdilər. Arvadı qızı doğulandan sonra ömrünü ona bağışlamışdı.

Çətinliklə də olsa, qızını böyüdüb boya-başa çatdırdı. Qızı böyüdükcə Eynullanın arzuları, istəkləri də böyüdü. Mənəvi imkanları ilə yanaşı, maddi imkanları da xeyli böyümüşdü. Qızı universiteti bitirib ailə qurmuşdu. Qızını köçürəndən sonra başa düşməyə başladı ki, yaxınları düz deyir, təklikdən, tənhalıqdan bir vaxtlar böyüyən maddi və mənəvi imkanları getdikcə kiçilib gözündən düşürdü. Ona elə gəlirdi, ya gözləri böyüyür, ya da istəkləri kiçilir. Onda nəsə çatışmır. Başa düşdü ki, gözünə su vermək lazımdı. Ona görə də qohumları ilə razılaşdı.

***

Qətibəyə quşu qonandan sonra Eynullanın sir-sifəti yaz günəşindən sonra təbiətin qırışığı açılan kimi açılmışdı. Üz-gözündən sevinc tökülürdü. Əvvəllər arada nəm-nüm etsə də, daha qəti fikrə gəlmişdi:

– Düz deyirlərmiş, bunların sözündə həqiqət var. Mütləq evlənmək lazımdı. Hər Qətibəni görəndə Eynulla sifətdən-sifətə düşür, cilddən-cildə dəyişirdi. Bilmirdi necə rəftar etsin ki, Qətibənin ürəyinə daha tez yol tapa bilsin. Qətibənin hər sözü-söhbəti yağ olub canına yayılırdı.

Qətibə demişdi ki, Eynulla, gərək bizim toyumuz böyük olsun. Xırda məclis qurmağı istəmirəm. Mən kimin qızından əskiyəm? Mənim tay-tuşlarım hamısı toyla evdən çıxıb,

gəlin köçüb! Mən niyə el adət-ənənəsi ilə gəlin köçməməliyəm?

Eynulla həmin an razılaşmışdı:

– Baş üstə! – demişdi. –Təki sən məndən belə şeylər istə. Eynulla sənin bu arzularını yerinə yetirməyəcəksə, daha nəyi Eynulla olur?!

Təklikdə öz-özünə çox götür-qoy etmişdi. Axırda yenə Qətibənin sözlərinə haqq qazandırmışdı: “Qətibə düz deyir! Qətibə kimdən əksikdi! Qətibənin arxasında Eynulla kimi bir kişi dayanır! Elə Eynullanın özünü götürək, Eynulla kimdən əksikdi? Eləsi var, iki uşaq anasını evdə qoyub, yenidən özünə əməlli-başlı toy çaldırır. Mən niyə çaldırmayım? Hələ, üstəlik, arvadım çoxdan rəhmətə gedib. Qızımı da el adəti ilə gəlin köçürmüşəm. Elə mən özüm də subay-sultan oğlan kimi bir şeyəm”.

Eynulla əməlli-başlı elçi göndərmişdi. El adəti ilə qızın “hə”si alınmışdı.Toyun vaxtı da müəyyənləşmişdi. Hər şey ölçü-biçili, hər şey planla getməli idi. Eynulla ilə Qətibə əvvəl özlərini toparlayıb, işlərini-güclərini sahmana salıb sonra özlərinə bir toy çaldırmalıydılar, bir toy çaldırmalıydılar ki, dillərdə dastan olmalıydı. Bu “Taclı mələk” deyilən zəhrimar gəlib özünü ortaya pərçimlədi, elə pərçimlədi ki, bütün işlər öz məcrasından çıxıb kəllə-mayallaq oldu.

Qətibə ilə özlərinə təskinlik verdilər: “Eybi yoxdu! – deyirdilər, – Cəhənnəmə olsun taclı mələk də, onu bizim həyatımıza pərçimləyən də!.. Çox qalası deyil ki, uzaq başı bir aya daşı atılıb çıxıb gedəcək”.

Arxasınca ciddi karantin rejimi lap amanlarını kəsdi: “Görüşmək olmaz, olsa da, ara məsafəsi saxlamaq lazımdır. Ağızda maskanın olması mütləq vacibdir!”

Daha sonra karantin bir az da sərtləşdirildi: “Çölə çıxmaq olmaz. Olsa da, gərək sms-lə icazə alasan. Çölə çıxmaq məqsədini bildirəsən. İki saatdan artıq çöldə gəzmək qəti qadağandır. İcazəsiz çöldə tutuldunsa, inzibati qaydada cərimələnəcəksən!

Eynulla dilxor olsa da, Qətibə ilə votsapla əlaqə saxlaya bilirdi. Əvvəlcə “Taclı mələyi” söyüb bulayır, arxasınca da özlərinə təskinlik verirdilər.

Danışıb qurtarandan sonra Eynulla öz-özünə deyinirdi: “Bu nə bəla idi, biz düşdük, daha denən, get, yıxıl, öl, yaşama! Ev dustağısan, ay Eynulla, ev dustağı!”

Sonra da özünə təskinlik verməyə çalışırdı: “Eh, ay Eynulla, bu sənin bəxtindəndi… Amma neyləməlisən, dözməlisən, gələn bəla elnən gəlib, təkcə sənin başına gəlməyib ki? Atalar deyib, elnən gələn bəla toy-bayramdı”.

***

...Eynulla halsız vəziyyətdə yatağına uzanıb gözlərini tavana zilləmişdi. Zəng gələndə əlini zorla atıb telefonu götürdü. Dili söz tutar-tutmaz zarıya-zarıya:

– Ölürəm, ay Qətibə, ölürəm! – kəlməsini birtəhər ağzından çıxara bildi. Qətibə gördü, bu xına o xınadan deyil, təcili yardıma zəng edib ünvanı verdi. Eynullanı komatoz vəziyyətdə xəstəxanaya yerləşdirdilər. Sərt karantin rejimi olduğundan xəstəxanaya heç kəs gəlib-gedə bilməzdi. Üç gündən sonra ölənlərin siyahısında Eynullanın da adı çıxdı.

Dəfn mərasimini polislər icra edirdi. Eşidib-bilən qohum-tanış, ancaq onlayn vasitəsi ilə mərhumla vidalaşa bilərdi.

Telefonda Qətibənin hıçqırtısı eşidilirdi. Dəfnə rəhbərlik edən polis zabiti, soyuqqanlı cavab verdi:

– Bilirəm, xanım ağırdı, amma neyləmək olar, bizi də başa düşün, bundan sonra hələ bir neçə nəfəri dəfn etməliyik. Xahiş edirəm, bir az yığcam danışın.

Qətibə telefonda yenə hönkürüb ağladı. Əlində tutduğu salfetka ilə göz yaşını silib iniltili səslə:

– Eyy, ay Eynulla, sən neylədin, indən sonra mən sənsiz nə edəcəm? Niyə məni yarı yolda qoyub getdin, ay Eynulla?! Bu gün üçün bizim toyumuz olmalı idi! – deyə bildi.

Özü öz səsindən diksinən kimi oldu, diqqətlə gözünü ekrana zillədi. Ekranda yazılmışdı: “Təyin olunan vaxt başa çatdığına görə görüntü dayandırılmışdır”.



Nərgiz MƏHƏRRƏMZADƏ

**SÖHBƏT**

Söhbətləşdim həyatla,
Bax beləcə, tet-a-tet.
Dedim, suallarıma
Cavab alaram dəqiq.
Gülümsədi dinmədən,
Maraqsızam, düşündüm,
“Ehey, salam, bu mənəm!”-
Bu dəfə lap qışqırdım.
“Sakit ol, qışqırıqsız”-
Dedi, aramla həyat,
Sənə məsləhətim var:
Sakit ol, sakit ancaq.
Qəlbində güllər açsın,
Oxu xoşbəxt nəğmələr,
Oxu xoşbəxtlik haqda,
Bir gün özü də gələr.
Pulun çoxdu, ya azdı,
Vacib deyil, inan ki,
Qəlbində işıq olsa,
Milyon ilə də bəsdi.
Kədərlənmə boş yerə,
Düşünmə qara-qura,
Ömrünü vermə yelə;
Sənin üçün mən varam!
Çox xoş oldu bu söhbət,
Bir menuetdi sanki,
Qulaqlarımdan axıb
Ürəyimə süzüldü.
Gördüm özüm özümü,
Bir avtoportretdi bu:
Dan yeri, göy qurşağı
Tamamladı bu rəsmi.
Sevdim həyatı, sevdim,
Çiçəkləndi bu cahan,
Bu gün duet oxudum
Həyat ilə yenidən.

**SEVİNİRƏM SEVİNCİNƏ HAMININ**

Sevinirəm sevincinə hamının,
Fərqi yoxdu, tanıdım, tanımadım.
Üzlərdə bir xoş təbəssüm görəndə
Fərəhdən alışıb yanır gözlərim.

Bəzi gözlərdəsə yırtıcı alov,
Hazırdı hər şeyi yandırıb-yaxa.
Paxıllıq, kin, nifrət duyğu deyil, yox,
Ömrü tar-mar edən zəhərdi, vallah.

Hönkürüb ağlaram, ürək sızlayar,
Zülmət gecələrin həmdəmi kədər.
Səhərsə günəşin ilk şəfəqiylə
Hər şey təmizlənər, əriyib gedər.

Qadın göz yaşların udar yastıqlar,
Udsun, tutsun, göstərməsin heç kimə,
Xəyalların gerçək həmdəmi onlar,
Ah, sirli xəyallar, sirli xəyallar...

Bəzən də işıqtək parlayar gözlər,
Ürəkdən su içsə, o saf ürəkdən;
Yalnız saf duyğulu təmiz ürəklər
Ömrümüzə ömür qatar, nur çilər.

Sevinirəm sevincinə hər kəsin,
Tanımıram bəzən kimdi, nəçidi,
Yadların kədəri kədərim olur,
Sıxır ürəyimi kiminsə dərdi.

Pisin qaydasıdı, yox olur izsiz,
Yaxşılığın kökü dərindən dərin.
Xatirələr bəzən əzab versə də,
Həyat gülümsəyib irəli çəkir.

*Çevirəni:* **Hicran Hüseynova**



Mina RƏŞİD

# BURA BİZİM VƏTƏNDİ!

*Avtobioqrafik esse*

O il meyvə ağacları elə gətirmişdi ki, budaqlar ağırlıqdan yerə dirənmişdi... Amma güllə yağışının altında kimiydi meyvə dərən, həyətə baxan?! Hərə bir tərəfə çəkilmişdi. Ağaclar, güllər də yaralanırdı onda. Quşların nəğməsini mərmilərin uğultusu yarıda kəsmişdi. Ürəyi quş kimi çırpınan adamların geniş, yaraşıqlı evlərindən, gözəl bağ-bağçasından ayrılıb kiminsə zirzəmisində, küncündə sıxıla-sıxıla yaşaması adamın ürəyini sızıldadırdı. Belə gözükölgəli, bükülə-bükülə yaşamaqdansa, çölün ortasındakı dəmir vaqonda qalmağı düşündü anam. Elə ona görə də tezliklə dəmir vaqona köçdük. Bu dəmir evin qışından danışanda belə adamın qəlbi donur. Çünki soyumuş dəmir ilan kimi çalardı bizi. Qışda içi ilə çölünün elə bir fərqi olmayan bu dəmir evdə, görəsən, körpələrimiz necə dözürdü?

...Əlini ovuşdurur,
Üzünü ovuşdurur,
O körpə gülüşləri
Şaxta vurur, don vurur.

Yeddibaşlı şaxtaya
Bir cüt göz yaşı neylər?
Körpələrin xətrinə,
Allah, qışı yaz eylə...

deyə, onda göz yaşı içində belə bir şeir də yazmışdım.

Vaqonun yayı da başqa "aləmdi". Dəmir elə qızırdı, elə qızırdı, gündüzlər istidən içəri keçmək olmurdu. Böyüklü-kiçikli hamı vaqonun altına, ya da kölgə düşən tərəfinə yığışırdı.

Bu dəmir evə köçəndən sonra sarılıq xəstəliyinə tutuldum. O vaxt bu, yayılmış bir xəstəlik idi. Düz iyirmi gün sığındığımız Bərdə şəhərindəki xəstəxanada müalicə olundum. Qanım aşağı olduğundan çox üşüyürdüm. (Elə bu gün də o üşütmə canımdan getməyib...) Vaqonda qala bilməzdim. Odur ki, böyük bacım məni Bakıya, yerləşdiyi yataqxanaya gətirdi. Anamı Bakıya gətirə bilmədik, dedi, buradan kəndin, elin havasını alıram. Üstəlik, iki oğlu da cəbhədə idi. Onları düşmən ağzında qoyub rahat ocağa sığınmaq istəmədi anam. Dedi: "Yerim ilan olsun, çalsın məni. İstisində istisi çalsın, şaxtasında şaxtası. Yetər ki, torpağımın iniltisi gəlsin qulağıma. Yetər ki, o hər mərmidən parça-parça olanda naləsinə "can" deyə bilim..." Anam, kiçik bacım, gəlini və nəvələri ilə vaqonda qaldı. İllər amansızlıqla keçdi və anam xərçəng xəstəliyinə tutuldu. Ölmək istəmirdi, üç subay övladı vardı, evinə-eşiyinə qayıdacaqdı.

Amma o dünyaya köçdü. Qəbri də köçkün oldu. Sonra bacım və qardaşım yanıma gəldi, mən onlardan böyükdüm. Qardaşım müharibədən ikinci qrup əlil kimi qayıtmışdı. Bacım doğru-düzgün orta təhsilini başa vura bilməmişdi. Yataqxanada qaldığımız otaqda tavandan başımıza çirkli su damırdı. Sonra kiçik bir evə köçdük, tamam beton idi...

Gözlərim önündə atamın 1992-ci ildə düşmən qəlpəsindən necə şəhid olması, qonşumuz xanəndə Şahmalı Kürdoğlunun balaca oğlu ilə faciəsi, dəmir vaqonun soyuq xatirələri, min bir çətinliklər məni özümdən ayırmışdı. Birdən sanki yuxudan oyandım. Oxumaq ən böyük arzum idi. Amma anam kənddən çıxmağa icazə verməmişdi. İndi 24 yaşım vardı. Təcrübəsizlikdən ilk ildə kəsildim və texnikuma daxil oldum. Texnikumu bitirdikdən sonra BDU-nun eyniadlı, yəni kitabxanaçılıq və informasiya fakültəsinə daxil oldum. Həm oxuyur, həm də çalışırdım. Hələ texnikumdan da əvvəl mətbuatda çalışmağa başlamışdım. İlk dəfə "Fədai" veteran qəzetinə müxbir kimi yazı yazanda özümü tapdım elə bil, bir az qanadlanmışdım...

Aradan otuz ilə yaxın vaxt keçib. Bir gün yuxudan müharibə xəbərinə oyandım. Müharibə sözünü belə yaxına buraxmasam da, bu haqq savaşımıza sevindim. O gündən elə bil mən də bir əsgərə döndüm:

Gözləyirəm illərdi,
İndi çox səbirsizəm.
Bu gün qisas günüdü,
Mübarizəm, Təbrizəm...

Doğma Vətən torpaqları Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı... yağı tapdağından azad edildikcə fərəhləndim. Kəndimiz gözlərim önündə dayandı, yolları, cığırları, döngələri yadıma saldım. Gilas ağacları ilə məşhur Qiyaslı kəndidir bura. Tez ağaca dırmaşdım, uşaqlıqdakı kimi gilas dərdim...

Qarabağ müharibəsi bir çoxları kimi, mənim də ürəyimə sağalmaz yaralar vurub. Müharibə ata-anamı əlimdən alıb, iki qardaşımı əlil edib. Kəndimiz işğal edildiyi gün evimizdən çıxmışıq. Bir az da ləngisəydik, anam, bacım və mən əsir düşəcəkdik. Bunu düşünəndə belə dəhşətə gəlirəm... Qardaşım Nəsib ayağındakı qəlpədən bu gün elə əziyyət çəkir ki, artıq əl ağacı ilə də güclə gəzir. Bir bacı kimi mənim də ürəyim parçalanır... Bu gün də o, belə vəziyyətdə ailəsi ilə Ağdamın Xındırıstan kəndində, qaçqınlar üçün salınmış qəsəbədə yaşayır.

Bütün bunlarla bərabər, ürəyimi daha çox yaralayan Xocalıda körpələrin amansızlıqla qətlə yetirilməsidir. Görəsən, bu illər ərzində elə bir gün olubmu ki, mən o günahsız körpələrin naləsini duymayım? Özümə "Nədən? Nə üçün?" deyə, suallar verməyim?! – Bu illər ərzində öz dünyamda günahkar bir ruh kimi dolanmışam sanki. Arada, 2010-cu ildə bizim üçün əsl qəhrəmanlıq simvoluna çevrilən Milli Qəhrəman Mübariz İbrahimov mənim də yanan ürəyimə su çilədi. Təkbaşına düşmənin üstünə getdi, onların əsgər və zabitlərinə qan uddurdu. Bizim, Xocalının, o məsum körpələrin qisasını aldı Mübariz...

Xocalıyam, dağam mən,
Ürəyi dağ-dağam mən.
Gərək düşmən üstünə
İldırımtək çaxam mən!

Mübariz düşmənə bu torpağın necə igidləri olduğunu, qisasımızın qiyamətə qalmayacağını anlatdı. Fəqət anlamaq ariflərin işidir. Bu düşmən hikmət dünyasından nə anlar ki?.. Onunku hiyləgərlik, satqınlıq, yamanlıq, şər və böhtandı.

Biz bax belə bir amansız, zalım düşmənlə müharibə apardıq. Güclü ordumuz qarşısında tab gətirməyən, silah-sursatını qoyub qaçan bu yersiz qonaqlar öz iddiasından əl çəkmirdi. Bizim əsgərimiz öz doğma torpağı uğrunda cəsur döyüşçü kimi savaşarkən, məğlub düşmən əsgərinin ayaqları döyüş meydanında qandallanırdı ki, qaça bilməsin. Əslində, onların təkcə ayaqları yox, qəlbləri də qandallıdı, ürəkləri qəzəblə, kinlə əzəldən möhürlüdü. Yoxsa Azərbaycan Ordusunun qazandığı zəfərin heyfini Bərdədə, Gəncədə dinc əhaliyə hücum etməklə almağa çalışmazdılar. Körpələrə, qocalara güllə atmaq ancaq erməni faşistlərinin

"hünər"i ola bilər. Fəqət bu ərköyün düşmənin, bu şərin qarşısında güclü bir Haqq ordumuz durdu. Hər gün neçə yurd yerimizi işğaldan azad etməklə zəfər qazanan, bütün torpaqlarımızı azad edən, bizi bu sıxıntıdan, məğlubiyyət duyğusundan qurtaran müzəffər bir ordumuz... Eybi yox, qoy dünya birlikləri, erməni havadarları dilsiz şeytan kimi sussunlar! Təki bayrağımızın yanında bir bayraq dalğalansın, əzəli, əbədi türk qardaşlarımızın "Can, Azərbaycan!" sözləri qolumuza qüvvət, ruhumuza ilham versin...

Uca Allaha şükürlər olsun, dualarımızı qəbul elədi, yolumuza nur çilədi...

Qəlbimiz sizinlədi, ey yenilməz ordumuzun cəsur əsgərləri!

Var olsun Ali Baş Komandanımız, bu gün xalqının qəhrəmanına çevrilən prezidentimiz İlham Əliyev cənabları! Ondan ki, "QARABAĞ AZƏRBAYCANDIR!" şüarını bütün dünyaya belə ürəkdən bəyan etdi.

Yaşasın Azərbaycanımız! Qələbə sevinci mübarək olsun bir yumruq kimi birləşib hamılıqla əsgərə dönən, bayrağımızı ürəyinin başında gəzdirən cəfakeş millətimizin!

Elə bu yerdə yazını bitirmək istəyirdim ki, ruhu qələbə sevincindən pərvazlanıb evinə uçan o gül üzlü anam sanki bir bayatı pıçıldadı qulağıma:

Əzizinəm Vətəndi,
Torpaqla can bir təndi,
Vermərəm Qarabağı,
Bura bizim Vətəndi!
Bura bizim Vətəndi!



*Rəssam: Yaşar Səmədov*
*"Kitabi-Dədə Qorqud"*



Aida ADIGÖZƏL

**YAZ ETİRAFI**

Daha bir qış gəlib, keçdi ömürdən,
qarışdı duyğular harmoniyası,
yenə çiçəklədi alça ağacı...
Başladı quşların simfoniyası...
Və
bir gün
novruzgülü ətri doldu burnuma...

Açıldı gözümdə sehrli peyzaj,
itdim bir könülün dolaylarında.
Öpdü qulağımı bal pıçıltılar,
uçdum bir qartalın qanadlarında...
Və
bildim,
bu başqa bahardı dolur qoynuma...

Başladı ruhumda köhnədən qalan
xarlamış, buzlamış qar uçqunları.
Maqnit qasırğası qopdu günəşdə,
əridi, çoxaldı yaz daşqınları...
Və
o gündən
Sevirəm... baharı... aldım boynuma!

**TANIŞ HEKAYƏLƏR**

Sənlə rastlaşanda payız gəlmişdi...
Sənin saçlarına nə qədər qırov,
mənim gözlərimə sazaq düşmüşdü...
Biz üşüyürdük...

İkimiz ağsaçlı, gözü eynəkli,
soyuqlar düşəndə canı ağrıyan,
ümidsiz sevgidən qəlbi göynəkli...
Biz tanış idik...

Bəlkə, şeir idi bizi bağlayan,
bəlkə, misraların tilsimindəydik,
bəlkə, sözlər idi bərk əfsunlayan?!
Biz sözə aşiqdik...

İndi qarşımızda bir fincan tünd çay,
gözümüz yumulu, barmaqlar qatdaq,
görüş günümüzü hesabla say, say...
Biz darıxırdıq...

Qarışmış bu ara bir az duyğular,
pərdə arxasında qara kölgələr,
könüllər pəjmürdə, artıb qayğılar...
Biz uzaqlaşırdıq...

## SAYILALI

Mən çoxdan yığmışam gözümü yoldan,
günüm aya döndü il sayılalı.
Adın sayıqladım boz yuxularda,
çöndü qabar oldu dil sayılalı.

Mən də acıladım, sındırdım ürək,
aşdım aramızda nə çəpər, dirək,
qoruq-qaytaq keçdim, dözəydim gərək,
əzdim yaxşı nə var şil sayılalı.

Səslədim hər şeir, gəlmədin haya,
yandım cayır-cayır, almadın saya,
hər gecə ağladım... döndülər çaya,
mən Fərat bilirdim Nil sayılalı.

Dedilər, həsrətin qoxusu pisdir,
çökər duman kimi, sis oğlu sisdir,
sən zəhər olsan da, bir külək bəsdir,
müşk-ənbər bilərəm hil sayılalı.

Kimsə su çilədi yanğına, söndü,
keçdi qara pişik, aslana döndü,
fələyin giriymiş, çərxdi də, çöndü,
keçdik şeşpərinə til sayılalı.

Məni çox ağrıtdı boz ayrılıqlar,
bilmədin, səbəbmiş bəs uzaqlıqlar,
ölçdüm məsafəni, çatmadı qollar,
mən "ağac" bilirdim mil sayılalı.

Dedim, dərya olar səndəki sinə,
düşüb boğularam eşq şərbətinə,
yanıldım kor bəxtin tərs qismətinə,
demə, gölməçəymiş lil sayılalı.

Bitdi! Qovuşmamız qaldı cənnətə,
tökdük acımızı tənə-minnətə,
yüklədik nə varsa sərki-töhmətə,
çəkər dəvə yükü fil sayılalı..

## ƏN PİSİ ODUR Kİ...

Ən pisi bilirsən, nədir, necədir?
Ən pisi odur ki, səssiz boğulmaq...
Rəssamın adını nə istəsən, qoy,
ən adsız şəkildir sənsiz darıxmaq!

Ən pisi bilirsən, nədir, necədir?
Ürəyin çağırır, səsinsə getmir,
adını hər gecə sayaqlayırsan,
nə olsun, dilində tük-filan bitmir?!

Ən pisi bilirsən, nədir, necədir?
İçin giley dolu, barışammırsan,
Dodaq pıçıldayır özü-özünə,
– "heç nə dəyişməyəcək" - bağışlamırsan...

Ən pisi bilirsən, nədir, necədir?
Bir gün zəhər sözlər üstünə yağa,
inada düşəsən, peşman da olsa,
əllərin gəlməyə qüruru boğa...

Ən pisi bilirsən, nədir, necədir?
Susub gözləyəsən, etiraf edə,
yığa günahların qapına gələ,
gələ üzr istəyə, hər şey də bitə...

Ən pisi bilirsən, nədir, necədir?
Məhkum olunasan onsuz ölməyə,
ürəyin tökülə, səsin titrəyə,
"Qayıt gəl " – deməyə dilin gəlməyə!

Ən pisi bilirsən, nədir, necədir?
Qoxusun çəkəsən, ciyərin şişə,
sən burda öləsən, o da ki orda,
ən gözəl ayrılıq payına düşə...

## SU PƏRİSİ

Saçlarını yığ qumsaldan, su pərisi,
sən balıq doğulmuşdun,
arzuların qadın idi...
Gecələr çıxdığın sahil,
saçlarını sərdiyin qaya daşları
gətirmədi arzularını sənə,
ta ki, tora düşməyənəcən...
Gözləri
gözlərinə sataşan balıqçının
kobud əllərində yığılan torun içində
ürəyin idimi çırpınan, bədənin idimi,
bilmirəm...
Sevilmək arzusu,
hətta ölmək istəyi də keçirdi könlündən
balıqçının qollarında!
Balıqçıysa...
Balıqçıysa səni böyük balıq bilirdi,
satmağı düşünürdü,
kimə gəldi, neçəyə gəldi...
Bir işvəli gülüşəmi,
ehtiraslı öpüşəmi,



sehrli sözlərlə dolu bir şeirəmi?!
Taxta qayığında böyük gəmilərə həsəd aparan
kasıb balıqçıda ürəkmi vardı
sənə qadın gözüylə baxmağa,
səndə sevgi axtarmağa?!
Saçlarını yığ qumsaldan, su pərisi,
qaytar çıxan ürəyini yerinə,
bir də qayıtma sahilə!
Qaya daşlarına sərmə qadın arzularını...
Dənizin titrətdiyi yosun evində
qurduğun xəyalı axtarma
köpüklü dalğaların üstündə!
Səni sahildə gözləyən arzuların deyil,
balıqçı torlarıdır ancaq,
balıqçı torları...

## AĞRI DAĞI

Bu il xoş gəlmədin ömrümə, payız,
səni yarpaq- yarpaq solub düşəsən.
Gözləri yollarda xəzəl gözləyən
torpaqtək qaralıb, dolub şişəsən.

Görüm daşa dönüb təpə olasan,
başın duman alsın, dağ ucalasan.
Mənimtək könlünə qar-boran yağsın,
vaxtsız vağam olub tez qocalasan.

Nə günəş görəsən, könlün isinə,
nə yerə yerləşib göyə sığasan.
Belə gözlərinin qorasın sıxıb
hər gün bulud-bulud yerə yağasan.

Bu il dava qopdu ömrümdə, payız,
könül meşəsində güllə səsləri...
Ödümü qopardı həsrət ordusu,
töküldü başıma qəm mərmiləri.

Yaman yaralandım söz gülləsindən,
ölüm ayağında, gəldə-getdəyəm...
Haray sal yağışa, xəbəri olsun,
döyüş bölgəsində təmas xəttiyəm.

Bu il xoş gəlmədin ömrümə, payız,
seyr etdim tökülən "keşkə", " heç"ləri.
İndi yalvarıram üzü sərt qışa –
qayıtsın geriyə durna köçləri...



Abid TAHİRLİ

# MÜHACİRƏT MƏTBUATI, HƏSƏN BƏY ZƏRDABİ VƏ "ƏKİNÇİ" HAQQINDA

*("Yeni Qafqasya" dərgisinin materialları əsasında)*

Azərbaycan mühacirət mətbuatının, o cümlədən 1923-cü il sentyabrın 26-dan Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə İstanbulda "ədəbi, ictimai, siyasi məcmuə" kimi, on beş gündə bir dəfə ərəb əlifbası ilə nəşrə başlayan, 1927-ci il oktyabrın 15-də sonuncu – 95-ci nömrəsi buraxılan, mətbuatımızın ən şərəfli, döyüşkən nümunələrindən olan "Yeni Qafqasya" dərgisinin başlıca mövzularından biri milli, ictimai-siyasi, ədəbi-mədəni həyatımızda müstəsna xidmətlər göstərmiş tarixi şəxsiyyətlərin həyat və fəaliyyətinin tədqiqi, təbliği, daha dərindən tanıdılması olmuşdur. Səbəb məlumdur. Mühacirlərin yerinə yetirdiyi tarixi vəzifə- istiqlal uğrunda mücadilə və bolşevik rejimi, kommunist ideologiyasına qarşı mübarizə ilə "millət üçün faydalı əsər yaratmaq" (M.F.Axundov) istəyənlərin, "Maarifdən, elmdən məhrum olan bir xalq işıqdan məhrumdur" söyləyib "Milləti-islam, ayıl bu qəflət yuxusundan" (H.Zərdabi) deyərək fəryad qoparanların, "Vətən, vətən, vətən; dil, dil, dil; millət, millət, millət!" (Mirzə Cəlil) şüarını bayraq edib savaşanların, "imzalar içində millətimizin xəttini" (Məhəmməd Hadi) axtaranların, "Çəkmə sən millət qəmin, çəkmə, çək öz qəlyanını" (M.Ə.Sabir) kimi sərt sətirlərlə nadanlığı qamçılayanların... əqidə və məramları ilə üst-üstə düşürdü. Təsadüfi deyil ki, bu missiyanı daşıyan görkəmli xadimlərlə bağlı materiallara mühacirət mətbuatında geniş yer ayrılırdı. Milli mətbuatımızın banisi, xalqımızın parlaq zəka sahibi Həsən bəy Zərdabinin də həyat və fəaliyyəti mühacirət mətbuatının daim diqqət mərkəzində olmuşdur.

"Yeni Qafqasya" Həsən bəy Zərdabinin, "Əkinçi"nin milli, tarixi xidmətlərini dəyərləndirməklə kifayətlənmir, eyni zamanda bolşeviklərin ötən əsrin 20-ci illərində qəzetə qarşı qərəzli həmlələrinə kəskin cavab verir, opponentlərini susdururdu. Bu baxımdan dərginin "Dil məsələsi" adlı irihəcmli məqaləsi ("Yeni Qafqasya", №8, 1925) diqqəti çəkir. Gizli yollarla SSRİ-nin müxtəlif regiolarına, o cümlədən Tatarıstana da yayılan "Yeni Qafqasya" qardaş Kazan tatarlarının ədəbi dil problemləri ilə bağlı mətbuatda gedən qızğın mübahisələrinə – "rusçu", "ərəbçi", "orta" cərəyanların mövqelərinə münasibət bildirir, bolşeviklərin "rusçuluğa", ruslaşdırmaya xidmət

edən mövqeyini kəskin tənqid edirdi. “Əkinçi”nin “lüzumsuz yerdə rus kəlmələri ilə doldurulduğunu” iddia edən, Kazan bolşevik qəzetlərini qınayan “Yeni Qafqasya” yazır ki, ilk baxışdan onların özlərinin rusçu olduğu anlaşılır: “Bolşevik yazıçıları ərəbcədən qaçırlar, fəqət türkcəyə də heç yaxınlaşmırlar. Kəmalisürət ilə ruscaya qaçırlar. Bunlar imlanı pozmaq yolunda bütün güclərini sərf etdikləri halda, dili düzəltmək uğrunda yarım addım belə atmamışlar. Çünki pozmaq, qırmaq rahatdır, düzəltmək, yaratmaq çox çətindir, əslində, bolşeviklərə lazım olan da yaratmaq deyil, yıpratmaqdır”.

Azərbaycan mühacirət mətbuatı – “Yeni Qafqasya”, “Bildiriş”, “Odlu yurd” ilə sıx əlaqə saxlayan, əməkdaşlıq edən görkəmli başqırd yazıçısı, filoloqu, etnoqrafı, publisisti, ictimai-siyasi xadimi, şərqşünası Əbdülqadir İnanın (Fəthülqadir Mustafa oğlu Süleymanov – 1889, Başqırdstan – İstanbul, 1976) əsərləri, o cümlədən Azərbaycanla, ümumtürk problemləri ilə bağlı qələmə aldığı məqalələr yazıldığı dövrdə olduğu kimi, bu gün də çox aktual və əhəmiyyətlidir. İstedadlı qələm sahibinin “Yeni Qafqasya”da dərc olunan (№12, №13, 1926) və böyük əks-səda doğuran, ciddi mübahisələrə əsas verən “Xaric türklərdə milli mədəniyyət məsələsi” məqaləsində türk xalqlarının ortaq ədəbi dili və onunla əlaqəli problemlərdən bəhs olunur. Mövzudan, mətləbdən uzaqlaşmamaq üçün müəllifin Həsən bəy Zərdabinin Rusiya müsəlmanlarının tərəqqisinə, o cümlədən türk dilinin, mədəniyyətinin, ədəbiyyatının inkişafına verdiyi töfhəni xatırlatmaqla kifayətlənirik: “...Çağdaş milli hərəkatımızda rəhbər olmuş, Rusiya müsəlmanlarının intibahına səbəb olmuş zatlar İsmayıl Qaspiralı ilə Qafqazlı Həsən bəylərdir. Bu cəhətdən krımlılar və azərbaycanlılar öz dillərinə ümumi dil – deyə, dava etməyə daha ziyadə haqlıdırlar”.

XIX əsr Azərbaycan maarifçilərinin cəmiyyət həyatının bütün sahələrini əhatə edən coşqun, fədakar fəaliyyəti XX əsrin əvvəllərində milli şüurun və milli özünüdərkin dirçəlişində, ədəbi-mədəni, mətbu intibahda, milli məfkurənin formalaşması və inkişafında, nəticə etibarı ilə, milli dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında həlledici ideoloji zəmin olmuşdur. Bu mənada istiqlal mücahidi, istedadlı publisist Mirzə Bala Məhəmmədzadə xalqımızın həyat və təfəkkür tərzinin dəyişməsində misilsiz rol oynamış ədiblərimizin tarixi xidmətlərini mühacirət publisistikasının ən sanballı və mükəmməl nümunələrindən biri olan “Azərbaycan Misaqi Millisi”ində (№17,18,19,20,21-1926; №1, 1927) dəqiq və sərrast ifadə etmişdir: “Azərbaycan Misaqi Millisinin xülasəsi istiqlal fikrinin təsisində Vaqifdən tutmuş, Cavidə qədər, Zakirdən başlamış, Cavada qədər, Mirzə Fətəlidən Üzeyirə kimi, “Əkinçi”dən “Azərbaycan” və “Yeni Qafqasya”yadək hər bir şairin, hər bir ədibin, hər bir qəzetin, hər bir aktyor və müəllimin olduqca böyük dəyərli rolları olmuşdur” (“Yeni Qafqasya”, №17, 1926). İctimai fikrin tərəqqi, təkamül tarixini izləyən Mirzə Bala Məhəmmədzadə bu fikirdədir ki, “aydın və parlaq istiqlal məfkurəsinin təməli” məhz həmin dövrdə qoyulmuşdur. XIX əsrin iki böyük xadiminin M.F.Axundovun və Həsən bəy Zərdabinin – istiqlal fikri tariximizdəki yeri və rolu barədə Mirzə Balanın qənaəti maraqlıdır: “Zənnimizcə, Mirzə Fətəli və Həsən bəy Zərdabi əlli il sonra dünyaya gəlsəydilər, istiqlal fikri, Azərbaycan Misaqi Millisi də əlli il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardır” (“Yeni Qafqasya”, №17, 1926).

Mirzə Bala Məhəmmədzadə irihəcmli və sanballı məqaləsinin xeyli hissəsini H.Zərdabinin fəaliyyətinə, xüsusilə onun Azərbaycan türklərinin vəhdəti, birliyi üçün zəruri saydığı ana dili uğrunda mübarizəsinə həsr etmişdir. Mirzə Bala H.Zərdabinin “milliyyəti təşkil edən ən mühüm amili təmin və ihya etmək (diriltmək, canlandırmaq-T.A) məfkurəsi ilə özünü hazırladığını və özünəməxsus bir fəaliyyət proqramı, taktika və hədəf cızdığını” qeyd edir və vaxtı ilə onun “Əkinçi”də yazdıqlarını oxucuların diqqətinə çatdırır: “İstəyirmisiniz, türk milləti yaşasın? Qabağa

getsin? Elmi və mərifəti olsun? Mədəniyyəti olsun? Ona dil verin.Türklər öz dillərini itiriblər. Sizin sözünüzü onlar anlamırlar, onların dilini tapın, verin, onlar yaşasın, qabağa getsin... məktəblər bina edin, öz dilimizdə elm təhsili ilə məşğul olun ki, millət var olsun. Mıx bərk vurulanda onu çıxartmaq çətin olur". H.Zərdabinin "məqsəd və qayəsinin millətin intibahı" olduğunu vurğulayan məqalə müəllifi onun sözlə, xitabla kifayətlənmədiyini, əməli, işi ilə də nümunə göstərdiyini qeyd edir və onun ilk müəllim, ilk mühərrir, ilk aktyor və teatr banisi, ilk qəzet naşiri, ilk xeyriyyə cəmiyyətinin yaradıcısı olduğunu diqqətə çatdırırdı.

Mülahizələrini məharətlə, ciddi faktlarla əsaslandıran Mirzə Bala Məhəmmədzadə yenə öz üslubuna sadiqdir. O, ayrı-ayrı məqalələrdən uyğun sitatlar gətirməklə həm H.Zərdabinin amal və niyyətlərini bəyan edir, həm də özünün onunla bağlı irəli sürdüyü yüksək fikirlərə oxucunu inandırır. Şübhəsiz ki, Mirzə Bala H.Zərdabinin "Zindəganlıq davası" adlı məqaləsindən – milli mövcudluq uğrunda ölüm-dirim savaşından söz açan yazısından təsadüfən ətraflı bəhs etməmişdir. Mirzə Bala əminliklə bildirir ki, Həsən bəyin bütün fəaliyyəti "millətin ana torpağına sahib olması, müqəddəs torpağı əlindən buraxmaması"na xidmət edirdi. O, ürək ağrısı ilə "Elmli millət hər növ fəndlərlə nadan qonşusunun əlindən ruzisini alıb onu fəlakətə düçar edəcəkdir" deyərək xalqın gələcək taleyindən nigarançılığını dilə gətirir və az qala fəryad edirdi: "Qardaşlar, oxuyun, elm təhsil edin. Ələlxüsus, elm təhsil etmək biz Qafqaz müsəlmanlarına vacibdir, çünkü bizlər ilə zindəganlıq davası edənlər ...öz qonşularımızdır. Bu davanın qorxusu daha artıqdır" (yenə orada). Erməni terroru, cinayətləri, vəhşiliyi ilə yadda qalan sonrakı dövr tariximiz Həsən bəyin həyəcan təbilinin, böyük xəbərdarlığının haqlı olduğunu göstərdi. Mirzə Bala Həsən bəy Zərdabinin məqalələrində açıq və üstüörtülü şəkildə toxunduğu problemləri dərindən təhlil edir və haqlı olaraq bu qənaətə gəlir: "Aşkar görürəm ki, Həsən bəydə bir torpaq təəssübü, bir vətən və yurd eşqi, iqtisadi hürriyyət təssəvvürləri vardır... Həsən bəyin bütün bu fəaliyyətindən məqsəd və qayəsi yurdun hürriyyəti, insanların hürriyyəti, millətin azadlığı idi". Həsən bəy Zərdabinin və silahdaşlarının ideyalarını mənimsəyən, əsərləri ilə yetişən, əməllərindən nümunə götürən xələfləri gec də olsa, ayıldı, "çağıranda gəldi, göstərəndə gördü, deyəndə eşitdi" və dəmir yumuruqla mənfur və qaniçən düşmənə sarsıdıcı zərbə vurdu, tariximizin Böyük Zəfərinə imza atdı.

Məhəmməd Əmin Rəsulzadə "Əkinçi"nin intişar etməsinin 50 illiyi münasibəti ilə qələmə aldığı "Azəri mətbuatının şanlı xatirəsi" adlı məqaləsində (№3, 1926) milli mətbuatımızın ilkini "Azərbaycan türkünün milli şüurunun doğmasında ən böyük rol oynamış bir amil" kimi dəyərləndirir, qəzetin proqramı, Həsən bəyin və silahdaşlarının məramı, fədakarlığı, nəşrin problemləri barədə geniş bəhs edir. "Əkinçi"nin zühurunu "yalnız milli deyil, eyni zamanda demokratik bir hadisə", "qaranlıq bir mühit işərisində parlamış bir nur" adlandıran M.Ə. Rəsulzadə "Əkinçi"nin milli şüurun, istiqlal düşüncəsinin formalaşmasındakı tarixi rolunu, "Həsən bəyin səpdiyi toxumların... səmərələr verdiyini" yüksək qiymətləndirir.

Dərginin eyni nömrəsində Məhəmməd Əmin Rəsulzadənin "Azəri" imzası ilə dərc etdirdiyi "Zərdablı Məlikzadə Həsən bəy" adlı məqaləsində müəllif Həsən bəy Zərdabini Azərbaycan intibah tarixində M.F. Axundzadədən sonra ikinci mühüm sima, XX əsrin əvvəllərində isə rəsmi dairələrdə "Topçubaşıoğlu Əli Mərdan və Ağaoğlu Əhməd bəy kimi xadimlər yetişənə qədər Azərbaycan türklüyünü təmsil edən yeganə mücahid" kimi səciyyələndirir. Yazıda Həsən bəyin tərcümeyi-halı, çoxşaxəli və fədakar fəaliyyəti, "Kaspi", "Həyat" qəzetləri ilə əməkdaşlığı və s. geniş işıqlandırılmışdır. Dərginin həmin nömrəsində dərc olunmuş digər məqalələrdə, o cümlədən "Azəri mətbuatının müxtəsər tarixçəsi" adlı yazıda da Həsən bəy Zərdabinin "Əkinçi"sindən söz açılır.



“Yeni Qafqasya” dərgisinin proqram və ənənələrini davam etdirən "Odlu yurd", “Azəri türk”, “Bildiriş”, “Azərbaycan” (Ankara) və s. kimi mühacirətdəki mətbu orqanlar da “Qafqaz müsəlmanlarının lideri”, “Zaqafqaziya müsəlman ziyalılarının müəllimi və mənəvi atası”, “Zaqafqaziya müsəlmanlarının milli oyanışının ilk bələdçisi”, “Müsəlmanlar arasında Avropa təhsili alan ilk azərbaycanlı” hesab olunan Həsən bəy Zərdabinin həyat və fəaliyyətinə dəyərli məqalələr həsr etmişlər. İstiqlal mücahidi, istedadlı yazıçı, publisist C.Hacıbəyli Həsən bəy Zərdabini “mədəniyyətimizin pioneri” adlandırır (ətraflı bax: “Kaspi” qəzeti “Həsən bəy Məlikovun xatirəsi” (1912-ci il, № 269), “Yeddi il” (1914-cü il, № 267) və onun tarixi xidmətlərini qədirbilənliklə qeyd edirdi. Milli mətbuatımızın banisi H. Zərdabinin təsir dairəsi Qafqazla məhdudlaşmırdı, o, bütün Rusiya müsəlmanlarının işıq və mənəvi qida mənbəyi idi. XIX əsrin sonu, XX əsrin əvvəllərində Rusiya müsəlmanlarının lideri, türk millətinin çırağı və müəllimi, xalq maarifi islahatçısı, “üsuli-cədid” hərəkatının və tatar mətbuatının banisi, “türkçülük hərəkatının mərkəzi siması”, “dildə, fikirdə, işdə birlik” ideyasının müəllifi İsmayıl Qaspiralının qədirbilənliklə etirafı dediklərimizi təsdiqləyir: “Əkinçi”nin səpdiyi toxumdan bir dənəsi Krıma düşdü, “Tərcüman” göyərdi”.



İmdat AVŞAR

# ŞƏKİL VƏ QAŞOV

*Ömər Seyfəddinin əziz ruhuna...*

Qəribə bir uşağıydım. Saatlarca divar xalçalarındakı heyvan fiqurlarına baxırdım. Tərtəmiz bir dərədən su içən ceyranlar, əlvan rəngli, tüklərini qabardan tovuzquşları, dumduru göldə üzən yaşılbaş sonalar... Bir də üstündə ov səhnəsi olan bir divar xalçası vardı. İri ağacın kökləri kimi çatallaşmış buynuzları olan zavallı maralı ayağından, boynundan tutmuşdu xallı kaftarkusa oxşayan ov itləri... O erkək maralın gözlərindəki ağrı, o itlərin qıcanan dişlərindəki qəzəb gecə boyu ağlımın divarlarına toxunub dururdu... Sonra divarlardan asılan ailə şəkilləri və o şəkillərdən baxan insanların kədərə bürünmüş gözləri qəribə düşüncələr uydururdu uşaq ağlımda. Ölüb getmiş insanların ağ-qara şəkildən əks olunan üzləri, bədənləri ölmüş olsa da, ölməyən diri baxışları...

Nənəm o qədər həyat dolu baxışlarla baxırdı ki, onun divardakı şəklin çərçivəsindən çıxıb ətə-qana gələrək yanıma gələcəyini, əllərimdən tutacağını, mənə yenə "Al Qız, Bal Qız, Kəl Qız" nağılını danışacağını düşünürdüm. Bəzi gecələr də nənəmin şəklinə baxarkən gözlərimin önünə onun məzarı gəlir, içimi ürpədən bir qorxu keçirirdim.

Xalçalardakı heyvan fiqurları, şəkillərdəki insan siluetləri necə bu qədər gerçək ola bilərdi? Bir də ağ-qara şəkillərdə insanların üzləri nə qədər də təmiz, saf görünürdü. Mən də rəsm dəftərimə heyvanları, insanları belə gözəl, mənalı, qüsursuz çəkmək istəyirdim, amma mənim çəkdiyim rəsmlər nə bir insana, nə də bir heyvana bənzəyirdi...

Evimizin divarında başdan-ayağa çatlamış bədənnüma güzgü vardı. Güzgünün qarşısına keçib dəqiqələrcə özümə baxır, ağ-qara şəkildə necə düşəcəyimi düşünürdüm.... Xalçalar rəngli, şəkillərsə ağ-qaraydı o illərdə... Tez-tez özümü güzgüdə gördüyüm kimi çəkmək istəyirdim... İstəyirdim yanımda da Pərvin olsun. Onun dərindən baxan gözlərini, alma kimi qırmızı yanaqlarını, gil qoxuyan saçlarını çəkmək istəyirdim, həm də, sadəcə, ikimiz, onunla mən yan-yana... Ancaq elə eybəcər olurdu ki çəkdiyim

bu şəkillər, Pərvinin ağzı, gözü qəribə olurdu. O zaman mən də hirslənir, rəsm dəftərimin səhifələrini bir-bir cırıb atırdım...

Pərvinin saçları içimdə buğda sünbülləri kimi dalğalanıb dururdu gecələr. Bəzən xəyalımda babamla nənəmin divardan asılmış şəkillərini çərçivədən çıxarıb onların yerinə Pərvinlə özümü qoyurdum. Hətta babamın əlini taxır, əlimi üsulluca Pərvinin çiyninə qoyurdum... O anlarda içimi bir sızıltı bürüyürdü, Pərvinin anasının bizi görəcəyindən qorxurdum. Üzüm qızarır, bədənim od tutub yanırdı, utanırdım.

***

Üç uşaq tək müəllimi olan kənd məktəbində oxuyurduq. Bacım beçinci sinifdə, mən dördüncü sinifdə, qardaşım isə birinci sinifdə... Böyük qardaşım şəhərdə orta məktəbdə oxuyurdu. O, həftənin sonunda kəndə gələndə mənim bayramım olurdu. Onun gətirdiyi "Tarkan", "Tolğa", "Qara Murad" cizgi filmləri, nağıl və hekayə kitabları məni kəndimizdən minlərcə kilometr uzaqlara aparırdı. Kənd evlərindəki ağqara fotolardan, divar xalçalarının tilsimindən qurtarırdı. Bu jurnallar və cizgi filmləri uşaq dünyamı bir-bir rəngə boyayırdı...

***

Böyük qardaşım o həftə də başqa bir kitab gətirdi mənə: "Qaşov!". Kitabın üzündə bir at, atı tumarlayan bir mehtər və onları izləyən bir uşaq vardı. Uşağın mehtəri izləyən maraqlı baxışları, mehtərin bığaltı gülümsəməsi və atın Pərvinin saçlarına oxşayan yalı vardı. Bir də rahat, sakit gözləri... Bu şəkilləri necə çəkirdilər? Bu möhtəşəm şəkli kağıza neçə köçürürdülər?

Kitabın üzündəki şəklə baxaraq necə xəyallara dalırdım. Mehtər atın yalmanını tumarlayır, mənsə Pərvinin saçlarını darayırdım. Sonra kitabı oxudum, bir daha oxudum, bir daha... "Forsa", "And", "Çəhrayı", "Çəhrayı, incə kaftan", "Primo türk uşağı", "Qızıl alma haradadır?", "Qaşov" ...Hər bir hekayədə qəhrəmanın yerinə özümü qoyurdum. Gah əngin dənizlərdə kürək cəzasına məhkum olunurdum, bir adada tək-tənha qalırdım, gah da İrana gedən bir Osmanlı elçisinin kaftanını geyinirdim... Gah Dadaruhu təqlid etməyə çalışan bir yaramaz, gah ölkəsi yolunda canından keçən bir əsgər olurdum. Atasının qəzəbindən qorxan və qardaşını oda atan bir uşaq olanda içimdə dəli bir tufan qopur, o zaman qardaşımın yerində olmağı istəyir, cəhd etsəm də, ola bilmirdim. Çünki nənəmin qəfil ölümündən sonra ölməkdən çox qorxurdum...

Uşaq ağlıyla dərk edirdim dünyanı və nədənsə bu hekayələrdə bir şey əskik olurdu sanki. Bir boşluq yaranırdı içimdə. O izsiz adada qalanda, ya da qaşovu daşlara sürtərkən "keşkə yanımda Pərvin də olaydı", – deyə düşünürdüm...

***

Dördüncü, beşinci siniflər çox dərsləri bir yerdə işləyirdik. Pərvin və mən müəllimin sevimliləriydik. Hər suala ikimiz əl qaldırır, hər məsələni əvvəlcə ikimiz həll edirdik. Mən riyaziyyat məsələlərini həll edərkən bir az ləngiyirdim. Bütün yarışlarda birinci olmaq istəyirdim, amma müəllimin Pərvinin saçlarını sığallamasını, riyaziyyat dərsində Pərvinin birinci olmasını istəyirdim, onun ardından getməyə razı olurdum nədənsə. Bir də müəllimin əllərini geyinirdim. O, Pərvinin saçlarını sığallayıb "Afərin!" – deyərkən...

Çox hirsliydi müəllimimiz. Qaşlarını çatanda gözlərindən qığılcımlar saçırdı. Yaramazlıq edib onun qarşısında sıraya düzüləndə ayaqlarımız titrəyirdi. Onun verdiyi tapşırıqları eləməsək, sevmədiyi bir hərəkət etsək, qoyduğu qaydaları pozsaq, əvəzini yanaqlarımızda partlayan sərt şillələrlə ödəyirdik.

***

O gün məktəbimizə bir müfəttiş gəlmişdi... Soruşduğu hər suala Pərvinlə mən cavab verirdik. Müfəttiş bizi o qədər sevib təriflədi ki... Müəllimimizin bizimlə qürur duyduğunu hiss edirdim. Müfəttiş yazı taxtasına gözəl xətlə bir məsələ yazdı, Pərvinlə məni yazı taxtasının iki tərəfində dayandırdı, yazı taxtasına baxmamağımızı söylədi. Sonra çantasını açıb bir alət çıxardı, gözlərini alətə yaxınlaşdırıb bizim sakit dayanmağımızı istədi.

O gedəndən sonra müəllimimiz "Müfəttiş sizin şəklinizi çəkdi", – dedi. Axır ki, ağ-qara şəkildə mənim surətim olacaq. Həm də Pərvinlə bir yerdə... Sevindim. Sonra müəllimin dediyi sözlər ağlımı qarışdırdı. "Şəkil" və "Çəkmək" sözləri arasındakı əlaqəni günlərcə düşünsəm də, bir məna verə bilmirdim. Şəkil hazırlanır, ya çəkilirdi, necə çəkiləcəkdir ki?! Nədən çəkilirdi? Haraya çəkilirdi?

Müfəttiş gedəndən iki-üç həftə sonra kəndin muxtarı sinfimizə gəlib müəllimimizə bir zərf uzatdı. Müəllimimiz zərfi açıb içindəkiləri xeyli süzdükdən sonra gülümsədi, Pərvinlə mənim şəklimi bütün sinfə göstərdi. Aman Allahım, Pərvinlə mən eyni şəkildəydik, şəkildəki uşaqlar, doğrudan da, biz idik. İkimizin arasında yazı taxtasında həll olmasını gözləyən bir riyaziyyat məsələsi vardı. Müfəttişin qara taxtaya təbaşirlə yazdığı əl yazısı da elə parlaq, gözəl görünürdü ki... Yazı taxtasının qarşısında qara önlüklərin içində Pərvin və mən... Qara və ağın hökm etdiyi şəkildə ağ təbaşirlə yazılmış məsələ, üzlərimiz, əllərimiz və yaxalıqlarımızdan başqa hər şey qaraydı... O şəkli nənəmlə babamın şəkillərinin yerinə asmağı xəyal edirdim...

Müəllim dərsə başlasa da, ağlım müəllimin dərs dəftərinin içinə qoyduğu o şəkildəydi, daha yaxından baxmaq, toxunmaq istəyirdim. Əlimi Pərvinin saçlarına toxundurmaq istəyirdim.

Müəllim tənəffüsə çıxmağımzçün göstəriş verdi, növbətçi qaçıb zəngi çalmağa başladı. Bütün uşaqlar bağdan qopmuş kimi bağçaya qaçdılar. Müəllim dönüb çölə çıxanda içimdə bir titrəmə başladı...

Sinifdə tək-tənhaydım. Birdən-birə yerimdən götürülüb müəllimin dəftərini açdım, dəftərin arasındakı şəkli əlimə aldım. Məndim! Yanımdakı da Pərvin... Şəklə baxmaqdan doymurdum. Pərvinin yanaqlarına, saçlarına toxunduqca əllərim titrəyirdi. Birdən ətrafa baxdım, heç kim yoxuydu. Şəkli alıb "Türkcə" kitabımın arasında gizlətdim və arxamda bir dəlil buraxmamaq üçün tələsik bağçaya qaçdım. Qəribə bir haldaydım, oyunlarda uduzur, qaçarkən arxada qalırdım nədənsə. Ağlımı gəmirən bir sual vardı: "Birdən müəllim şəklə yenidən baxmaq istəsə, dəftərin arasında tapmasa?"

Zəng çalındı. Növbətçi bir yandan zəngi çalır, bir yandan da səsi gəldikcə qışqırırdı:

– İçəri! İçəri!

Növbətçinin səsinə tabe olub sinfə doluşduq. Yanaqlarımın qızardığını, bədənimin od tutub yandığını hiss edir, durmadan tərləyirdim. Müəllim içəri girəndə başımı kitabda gizlətsəm də, gözümün ucuyla onun hər bir hərəkətini izləyirdim. O, stoluna yaxınlaşıb, stulunu çəkərək oturanda qəlbim yerindən çıxacaq kimi çırpınırdı. Dəftərini vərəqlədi, sanki bir şey axtarırdı. Mən o anda kiçildim, kiçildim... Əməllibaşlı yerimdə əriyirdim. Hər kəsin mənə baxdığını düşünür, başımı aşağı əyirdim.

Birdən-birə müəllim:

– Şəkil hardadır? – deyə gur-gur guruldadı.

Sinifdən səs çıxmırdı. Əllərim, ayaqlarım titrəyir, bir oğru kimi damğalanmaqdansa ölməyi düşünürdüm. Kəndin ortasından bir dərə keçirdi və üstündə hündür bir körpü vardı. O körpünün üstündən aşağıda çağlayan dərəyə baxmağa qorxurduq. Əgər yaxalansam, tez-tələsik sinfdən çölə çıxıb qaçaraq kəndə gedəcək, özümü oradan aşağıya atacaqdım. Sularda yox olanda artıq mənə: "Oğru, oğru!", – deyə bağıran uşaqların səsini də eşitməyəcəkdim...

Sinifdə bəzən bir şagirdin karandaşyonanı, silgisi, karandaşları itirdi. Bir şey itəndə müəllimin istifadə etdiyi bir metod vardı. Hər şagird yanında oturan şagirdin çantasını didik-didik axtarır və itən əşya da beləcə tapılırdı.

Müəllim anidən: "Hər kəs yanındakı yoldaşının çantasını axtarsın", – əmrini verdi. Biz də parta yoldaşlarımızla çantalarımızı dəyişərək axtarmağa başladıq. Axtardığım şeyin yoldaşımın çantasında olmadığımı bilsəm də, müəllimin mənə baxdığını düşünərək ciddi-ciddi işimi görürdüm. Axtarılan şəkil partanın üsütndəki "Türkcə" kitabımın içindəydi. Parta yoldaşım çantamı didik-didik etsə də, partanın üstündəki kitabımın içinə baxmağı ağlına gətirməmişdi. Şəkil tapılmamış, oğru müəyyən edilməmişdi. Müəlim isə durmadan dəftərlərinin, kitablarının səhifələrini çevirirdi. Dərsin qurtarmasını gözləyir, qorxudan titrəyə-titrəyə partamda otururdum. O anda kimsə "Budur, şəkil buradadır!" – desə, mən dəli kimi qaçacaq,

bir anda körpüdən atılacaqdım. Qulağım səsdəydi, tətikdə gözləyirdim.

Müəllim "Fasilə!" – deyər-deməz növbətçi yüyürüb zəngi çalmağa başladı. Mən "Türkcə" kitabımı iki əlimlə tutub çantama qoyaraq çölə yüyürdüm. Elə qaçırdım ki, ardımdan atlı da gəlsə, çatmazdı. Nəfəsim çıxa-çıxa evə gəldim. Çölün ayazı adamın ətini dişləsə də, bədənimdən tər axırdı. Qardaşlarımdan xeyli əvvəl evə gəldim. Anam tövlədəki heyvanları yemləyirdi. Evdə kimsə yox idi. Şəkli kitabımın arasından çıxarıb son dəfə diqqətlə Pərvinə və özümə baxdım. Sonra qorxuyla və təlaşla duruxaraq təzək sobasının içinə atıb çölə qaçdım. Vücudumu əzən bir yükün altından çıxmışdım sanki...

Anam sobaya təzək doldurub yandırarkən qorxunc bir fikir bürüdü içimi. Əcəba, mən şəkli sobaya atanda soba yanırdımı? Yoxsa külün üstünəmi atmışdım? Əgər onda sobada od yoxuydusa? Ya anam sobanın külünü tökəndə yanmamış şəkil küllükdə qalıbsa? Ya biri əzib bükdüyüm şəkli bizim küllükdə tapıb müəllimə apararsa?

Axşam erkən düşmüşdü və zil qaranlıq içində qalan kənddən ancaq itlərin səsi gəlirdi...

***

Anam bizi yataqlarımızda yatırıb, qaz lampasını üfürərək otaqdan çıxdı. Ürəyim titrəyir, bədənimi isti bürüyür, heç cür yata bilmirdim. Qardaşlarım yatınca otağa dərin bir səssizlik çökdü, yorğanı başıma çəkib ağlamağa başladım... Hıçqırıqlarım eşidilməsin deyə, həmişə olduğu kimi, özümü boğurdum...

***

Səhəri gün sinfə girəndə qonşumuzun oğlu əlindəki əzik-üzük şəkli bizim küllükdən tapdığını söyləyib müəllimə uzatdı. Müəllim qaşlarını çatıb məni yazı taxtasının qarşısına çıxardı. Bütün uşaqlar mənə baxırdı və başımı yuxarı qaldıra bilmirdim. Birdən özümü bir neçə gün əvvəl oxuduğum kitabın səhifələri arasında tapdım! Qaşovu qıran və günahını qardaşının üstünə atan uşaq olmuşdum. Müəllimə birinci sinifdəki qardaşımı göstərdim, şəkli onun götürdüyünü dedim. Müəllim qırılmış, əzilmiş qaşova bənzəyən şəkli o yan-bu yana çevirdi və heç bir şeydən xəbəri olmayan qardaşımın yanına gedib qulağından yapışaraq yazı taxtasının qarşısına çıxardı. Qardaşım çəlimsiz bir uşağıydı, müəllim onun qulağından dartdıqca zavallının ayaqları yerdən üzülürdü. Müəllim bir qüsurumuz olanda ortaya çıxarmaqdan zövq alırdı. Uşaqlara "Bunun adını söyləyin", – dedi. Uşaqlar bir ağızdan "Oğru! Oğru!" – deyə qışqırmağa başladılar. Müəllim qardaşımın üzünü bərkdən şillələyirdi. Qardaşım "Mən oğurlamadım!" – deyə, ağlamağa başladı. Mən də göz yaşlarımı içimə axıdaraq ağlayırdım. Qardaşım birdən-birə müəllimin əlindən çıxaraq çölə qaçdı, onun körpüyə doğru qaçdığını görüncə mən də arxasınca götürüldüm. O, körpünün başına məndən əvvəl çatmışdı, körpüyə çatanda qardaşım özünü aşağı atmışdı, azğın sular içində çırpınırdı. Çarəsizdim, günahımı etiraf edəcəyim Dadaruhu axtarırdı gözlərim. Heç kimsə yox idi. Sanki günahmı etiraf etsəm, qardaşım o azğın sulardan qurtulacaq, boğulmayacaqdı. Sularla birlikdə axıb gedən qardaşımın arxasınca dəli kimi qışqırmağa başaldım:

– Şəkli mən oğurladım! Şəkli mən oğurladımmm!

Qulaqlarımda tanış bir səs vardı, bədənimi qucaqlayan əlləri də hiss edirdim. Suların gur axınına qarışan o səsləri də duyurdum:

– Oğlum, nə oldu?! Nə şəkil? Nəyi oğurladın? Oyan, oyan!..

– Hakan boğuldu! Mənim üzümdən boğuldu, şəkli mən oğurladım, – deyə bağırırdım.

Üzümə səpilən soyuq su və damağımı yuxarı çəkib üzümü xəfifcə şillələyən bir əlin sarılmağıyla ayıldım, qorxudan tir-tir əsirdim...

– Pis yuxu görmüsən, qorxma, yat, yuxuya get, – dedi anam, bir az su içirtdi mənə.

Yanımda olub-bitənlərdən xəbərsiz yatan qardaşıma sarılıb hıçqıra-hıçqıra ağlamağa başladım...

Anamın soruşduğu heç bir suala cavab vermədim.

***Dilimizə Təranə Vahid uyğunlaşdırdı***

*Şəfa Vəli*

# XƏTİR ÜÇÜN...



*Xətrin əziz olsun, anam Güldərən Vəli...*

**I**

Yenicə boy atan qoz ağacı ətrafındakı vələslərdən, palıdlardan fərqləndiyini hiss etdikcə qəribə bir utanc hissi keçirirdi. Niyəsini bilmirdi, amma bu "niyə" hər nəydisə, gövdəsinə çökür, köklərini göynədir, budaqlarını bir-birinə çataraq özünü gizləməyinə səbəb olurdu. Qoca palıdın ona zəndlə baxıb başını yelləməsi, kol armudunun bütün meyvələrini üzü ona tərəf yox, üstündə qayaqırtmel (qaya kərtənkələsi) sıçrayan qayaya baxaraq tökməsi, qayanın xınalı çıxıntılarında gizlənpaç oynayan günəş şüalarının bir dəfə də olsun, gövdəsini yada salmamaları qoz ağacının qəlbinə dəyirdi. Hələ o günü dərənin dibindən burula-burula axan çaydan bir balıq keçmişdi; yolüstü başını yuxarı qaldırıb köklərini suya göndərən ağaclara baxmış, nəzərləri qoz ağacına ilişəndə dodaqlarını büzmüş, anlaşılmaz bir sirr, uyuşmaz bir naxış görmüş kimi yönünü çevirib tələsik uzaqlaşmışdı. Qoz ağacı yenə budaqlarını özünə qarmaqlıq etmiş, ətrafındakı dünyaya necə yad olduğunu daha dərindən anlamışdı...

***

Gənc qız öz cehizlik xalçasını da büküb üstünə qırmızı lent bağladıqdan sonra çax-çaxın qabağında yerini rahatlayıb qaxlıq yay alması kəsən anasının üstünə qaçdı:

– Ana! Ana! Nənəm toxuyan may xalçasını da əlimlə qəşəng çırpdım, saçaqlarını daradım, büküb qırmızıladım.

– Yaxşı elədin, başına dönüm, day niyə qaranəfəs olursan ki?! – anası sağ əliylə ləyəndəki alma dilimlərini silkələdi, sol əliylə də qarşısına sərdiyi açıq xaşalın üstündən bir xışma özək götürüb çax-çaxın o üzündəki çəpişə atdı.

Çəpiş narahat-narahat özəklərə yaxınlaşdı, bir-ikisini ağzına alıb yenə çax-çaxın dibinə getdi, ürkə-ürkə ətrafa baxdı. Qızın bir gözü çəpişdə, bir gözü anasında qalmışdı.

– Nə iş buyurum deyəmi gəldin elə ütələk?

Qız anasının səsinə qəfil diksinən kimi oldu:

– Yoox... Hə... Nə bilim, yadımdan çıxdı nə deyəsiydim ey...

– Bıy, başıma xeyir, qız! Yadından çıxıb. Qayın danlağı eşitdin, yoxsa baldız dinazı gördün, yadın qurudu, a qaram? Hələ yüyrükdə ninni gözləyənindən danışmıram ha...

Anasının sözündəki kövrək şuxluq qızın da üzünə təbəssüm yaydı. Əliylə çəkisindən çıxan cığasını geri itələdi, köynəyinin yaxasındakı butanı sığallaya-sığallaya dedi:

– Çəpişə yazığım gəldi, ana. Hardan bilsin ki, gecə kəsiləcək, sabah ertə də Usta İbrahimin qapısına pay olacaq...

– Onunmu dərdin çəkirsən? – anası qəhqəhə çəkdi.

– Bə neyniyim, ana?! O da candı da...

Anası gülməkdən yaşaran gözlərini bıçaq tutduğu əlinin arxasıyla silib dərindən köks ötürdü:

– Hər can bir canın ruzisidi, deyərdi nənəm. Əsas can da torpaqdadı. Torpaq ota-ələfə can verir, ot-ələf qaçana-uçana, onlar da bizim kimi yeriyib-yüyürənə, biz də qayıdıb canımızı torpağa qoyuruq. Belə olur, qadan alım... Dərd eləmə belə şeyi sən.

Qız iki əliylə yanaqlarını tutub canıyananlıqla çəpişə baxa-baxa qalmışdı. Anası əlindəki işi dayandırıb sağ əlinin baş barmağıyla bıçağın kəsərini yoxladı, başını qaldırmadan:

– Bax, ay mənim qara qızım, olub-bitənin hər ucunda bir dərd tapsan, gərək yaşamayasan. Bir də ki, bu çəpişciyəz sevinsin hələ, Həbiblə Arifin araq qonaqlığına pay olmur ha, bir nişanlı qızın cehiz sandığına pay olur. Bundan ayrı nə umacağı olardı bu dünyadan?! Zakir kişinin göy təkəsinin törəmələrinə nisbətdə, onsuz da bir sürüyə təkə olammayacaq. Dişi də döy ki, döl tutaq, ya pendirini dələmələyək. Umacağından artığına yazılıb yazqısı...

– Boy, ana... Yönünü torpağa çevir, yaylığının saçağını düyünlə. Heyvanın yazqısımı olur?!

– Olur, başına dönüm... Nətəhər ki, cümlə aləm o göydəki Ulunun nəfəsindən can alıb, deməli, hamısının da öz yazqısı var... – anası bunu deyib yenidən ürəklə işə girişdi. – Başımı

çox qatma, axşama qaxı kəsim bitirim, mənsil damında yer düzəldim, sərim, üstünü də cunalayım. Yoxsa axşam Usum gələnə umaclı aşı yetirəmmərik, ayıbdı, qapıdan çörəksiz qayıtmasın.

– Mən gözümü açandan Usum odun kəsib satır, hələ heç kimin qapısında çörəyə qaldığını görməmişəm, ana. Mütləq döy ki, bizdə umaclı aş yesin. Dədəm pulunu verib yolağızdan geri göndərər.

Anası işini dayandırıb başını qaldırdı, zəndlə qızını ayaqdan-başa süzdü. Qız anasının düyünlənən qaşından, bir-birinə bərk-bərk sıxılmış dodaqlarından anladı ki, nəyisə düz demədi. Sözünü çevirdi:

– Yəni çatdırmasaq... Gedim mən umacı qovurum, düyünü də isladım... – Anasından cavab gözləmədən yay damına yönəldi...

***

Qoz ağacı bu gün də yuxudan kəm oyanmışdı; ayda bir neçə dəfə uzaqdan gələn taqqıltı səsi onu beləcə, ala-toranlıqdan yuxudan oyadırdı. Hər dəfə belə səs gələndə qoca palıdın gövdəsindəki qırışlar dərinləşir, vələslərin canına xəfif bir titrətmə düşürdü. Təkcə o kəm qaldığı yuxunun həsrətindən başqa bir şey hiss etmirdi; nə qorxur, nə də kədərlənirdi. Bir neçə həftə qabaq – yazın ilk günlərində qoca palıd insandan danışanda da heç həyəcanlanmamışdı, əksinə, sanki nəsə tanış bir təması hələ unutmamış kimi köklərinin ən incə qıvırcıqlarında şirin bir sızıltı oyanmışdı. Bunun səbəbini anlamağa çalışmış, tapmayınca da fikirli-fikirli suyun axışına dalmışdı. Bir də qulağı öz adını çalanda diksinmiş, tezcə də özünü o yerə qoymayıb diqqətlə vələslərin kədərli nəğməsini dinşəmişdi. Vələslər oxuyurdular:

...Onda qoca odunçu
Ciblərini çevirdi...
Baxdı, ləpə qalmayıb,
Təəssüflə ufladı...
Bir nağıllı gündə də
Palıdın balasını
Doğradı qoca zalım...
Yorulanda dayandı...
Axan suda yıxandı...
Torpağı da çevirdi
Və öz kəndinə getdi...
Yenə bir səhər ertə
Əlində qoz tingiylə
Gəldi qoca odunçu...
Bir qoz əkdi palıdın
Körpəsinin yerində...
Palıd göz yaşlarını
Gizləyəndə dərində
Üstündə qoz göyərdi...
...Və bu qərib qozu da
Qoca insan unutdu...
Yaman da tez unutdu...

Qoz ağacı nəğmənin sözlərindəki qəmi də düz-əməlli tanıyammadı, əslində, həmişə ona yad nəzərlərlə baxan vələslərin sözlərinə də heç inanmadı; ta ki qoca palıd asta-asta dillənənədək:

– Sənin canın insan xofuna adət edib, ona görə eyninə gəlmir. Bizimsə canımız o taqqıltıdan vəlvələyə düşür. İnsan bizim yanımızdan keçsə də, əlini bizə sürtməyib, budağımızı budamayıb, dibimizə su tökməyib. Gözümüz insan əlində qalmayıb. Yüz dəfə istəmişəm budağımın çətirini başın üstdə açım, yarpağının bircəciyi də gün işığı görüb göyərməsin. Di gəl, nakam balam gəlib durur gözümün önündə. Öz-özümə demişəm ki, bu da qarabaxtdı da, bu da anasından ayrı düşmüş baladı. Odununu doğrayıb yükünü tutandan sonra bir ovuc ləpə yesin deyə, zalım odunçu səni də anandan ayırıb, gətirib qürbətə əkib. İndi də insan bu meşənin o başından başlayıb bizim nəslimizi kəsə-kəsə gəlir. Mən ta qocalmışam, bu il kəsməsələr, gələn ilə çətin qalam, quruyub gedəcəyəm. Bircə balamı da odunçu balta ilə doğrayandan sonra cücərəmmədim ta... Dərddənmi, yoxsa balamı məndən ayıran o soyuq baltadan üşəndiyimdənmi cücərəmmədim, bilmədim... Hər gün budaqlarımın quruyan uclarını üzü göyə çevirib dua edirəm ki, kökünnəslin götürməsin buraları. Yoxsa o insan

tamahı sənin törəmələrinə yer açmaq üçün bütün burdakı ağacların nəslini kəsəcək...

O gündən bu yana qoz ağacı ətrafındakı hər şeyə daha laqeyd olmuşdu: yayın bu gözəl günündə çay boyunca açan çiçəklər də, aradabir yağan çobanaldadan yağış da, yağışdan sonra buludları o tərəf-bu tərəfə dağıdıb belinə əlvan qurşaq bağlayan göy üzü də daha ona əvvəlki illərdəki sevincdən, yaşamağın gözəlliyindən danışmırdı. Heç budaqlarında adda-budda gözə dəyən yaşıl yumrular da onun eyninə gəlmirdi... Səhərlər quşların səsinə oyanır, axşamacan gözünü qıyıb suda əks olunan günəş şüalarının asta-asta sürüşməsinə baxır, arada gözünü yumub mürgü döyür, səbəbsizcə darıxırdı. Hərdən də ürəyində ya qoca odunçuya, ya da amansız baxışlarını ona zilləyib başını yelləyən palıda qarğayırdı. Gah bu qarğışından utanır, gah da özünə haqq qazandırırdı ki, odunçu onu qürbətə gətirib, palıd da ona qürbəti anladıb... Amma uzun mürgüləmənin sonunda yenə qərara gələmmirdi ki, hansının günahı daha çoxdu: odunçunun, ya palıdın?

...Bugünkü taqqıltı bir az yaxındaydı, elə bil getdikcə də yaxınlaşırdı. Bir azdan yaxınlıqdakı açıqlıqda qımıldayan qaraltılar gözə dəyəndə qoca palıdın qırışları daha da dərinləşdi, vələslər pıçıltılarına çoxluca “ah” qatdılar, meşə fıstığı isə budaqlarını bir-birinə sürtüb asta-asta hələ tam yetişməmiş meyvələrini səpələməyə başladı. Qoca palıd səksəkə ilə qımıldayanlara baxıb dedi:

– Fıstıq, eləmə... Nübarını göy tökmə, günahdı.

Meşə fıstığı astaca pıçıldadı:

– Bəs neyniyim, nənə palıd?! Bir budağın payını göy tökürəm ki, başları aşağılarda qarışsın bu nəfsinə yeniklərin. Başlarını yuxarı qaldırsalar, bütün budaqlarımı çırpacaqlar, barmaqlarımı qırıq-qırıq etmələri o yana dursun, bir düymə də qoymayacaqlar yaxamda. Axırda da bir-ikisini dişləriylə açıb, kal olduğunu görüb, ayaqlaya-ayaqlaya çıxıb gedəcəklər. Bəri başdan özüm töküm bir ovuc, bu biri budaqlara dəyməsinlər barı...

Qoz ağacı bu söhbəti eşidəndə, sadəcə, gülümsədi. Və yalnız indi, məhz bu gülümsəmədə kədəri hiss elədi... Ürəyinin ən dərinində budaqlarındakı tək-tük meyvələri üçün qorxdu, onları necə qoruya bilər deyə, düşündü. Tezcə də palıdın ogünkü sözlərini xatırladı: “Hər gün budaqlarımın quruyan uclarını üzü göyə çevirib dua edirəm ki, kökün-nəslin götürməsin buraları. Yoxsa o insan tamahı sənin törəmələrinə yer açmaq üçün bütün burdakı ağacların nəslini kəsəcək...”

Ən uzaqdakı kök qıvırcıqlarından tutmuş, ən hündürdəki budağının ucundakı yarpaq puçuruna qədər qəribə bir gizilti keçdi canından: o da dua etmək istədi. Amma palıd kimi bəd dua yox, xoş dua etməyə çalışdı; budaqlarını gücü yetdikcə üzü göyə uzadıb duasına başladı...

...Baltasını çiyninə atıb əliylə gənc ağacların gövdəsini yoxlaya-yoxlaya irəliləyən Usumun qulaqları uzaqdan tanış xışıltı çaldı. Üzünü odun yoldaşına – Gümana tutub dedi:

– Deyəsən, Afiqin qızının sandıqlığını tapdım. Buralarda qoz ağacı var.

– Burda? “Ölüm dərəsi”ndə?! – Güman gözlərini bərəldərək Usuma baxıb dişlərini ağartdı. – Deyirdilər, Usum hər daşın, hər kolun dilini bilir, ta bu qədər də olmaz! Yeri bir fıstıq kəs, apar ver Afiqə, pulunu al. Qoz ağacı varıymış, Usumnan danışırmış... Ha-ha...

Güman əlini gözünün üstünə günlük eliyib uğunmuşdu, Usumsa onun gəvəzələyini eyninə almayıb xışıltıya diqqət kəsilmişdi. Elə bil bu xışıltının içində ürəyindən keçəni duyurdu: “Nola, günün, ayın xoş vaxtına düşə... Barımın bəhrəsini dadmamış bir odunçu gələ, kəsib məni apara... Bir uşağa beşik, bir cehizdə sandıq olam... Buralarda qarğış yiyəsi olunca oralarda alqış yiyəsi olam... Nola... Bir odunçu gələ...”

***

Usta İbrahim həyətindəki iri daşın üstünə pitik döşəkçə atıb oturmuşdu. Rəndəsini, bıçkısını, yeyəsini– bütün hacatlarını yanına düzüb mat-mat həyətin ortasına yığılmış odunlara baxırdı. Afiq demişdi ki, qoz ağacıdı, Usum “Ölüm dərəsi”ndən gətirib. Əvvəl-əvvəl bunu da Usumun söyləntilərindən biri sanıb başını “hə” deyərcəsinə yelləmiş, sonra da Afiqə

qızının xeyir işi üçün gözaydınlığı vermiş, toyacan sandığı hazır edəcəyini vəd etmişdi.

İndi isə metr yarım uzununda səliqə ilə kəsilmiş odunlara baxır, gözünü ağacdan çəkəmmirdi. Yaşı altmışa çatırdı bu payız, düzəltdiyi taxçaların, sandıqların, rəndələrin, ələk-xəlbirlərin, şadaraların sayını unutmuşdu. Cavanlıqda düzəldəcəyi əşya üçün ağacı da özü axtarar, seçər, özü kəsib gətirərdi. Yaşlandıqca hiss elədi ki, daha nəfəsi çatmır meşələri tala-tala gəzməyə. Adını tutub çəpərinə söykənənlərdən ağacı da özləri ilə gətirmələrini xahiş etdi. Onun bu xahişi ən çox kəndin odunçularının işinə yaradı; hamı onlara üz tutdu:

– A Məsim, bir beşiklik ağac da tap, borcundan çıxaram.

– A Kərim, başına dönüm, gör bir qalotluq nə tapırsan?!

– Zakir kişi, hey, adə, bir hay ver! Sabah “Satılmışın meşəsi”nə gedəsisənmiş, bir gözünü hərlə, yaxşı, möhkəm fıstıq ağacı görsən, mənə çatdır. Savaba batarsan, qızın cehizi sandıqdan kəm qalıb. Bir də, Usta İbrahim dedi, cavan ağac olsa, daha yaxşı olar...

Adını tutub üstünə gələnə “hə” demək bu kəndin sakinlərinin ən gözəl adətiydi... Bu “hə”ni yarıtmamaqsa dillərinə yox, bellərinə daha bağlı olmaqlarından xəbər verirdi: heç kim belinə başqasının yükünü götürmək istəmirdi. Elə buna görə də odunçu Usumun Usta İbrahimə lazım olan ağacı tapıb gətirməsi, qarşılığında da, həmişəki kimi, metr hesabı yox, elə xətir hesabı pul almağı kəndin yazılmamış qanunları sırasına yaman tez yazıldı... İş yiyəsindən çox, Usta İbrahim Usumdan razılıq eləyirdi, toyda-yasda deyirdi:

– Sağ olsun, elə bil əliylə qoymuş kimi tapır lazım olan ağacı. Əlinə ölçü versən, belə dəqiq kəsməz ha! Baxışı hesabdı, əlinicə vurur, ağacla danışır elə bil...

...İndi də Usum ona lazım olan ağacı gətirmişdi; cavan, düyünsüz, möhkəm qoz ağacı... Usta bu kənddəki, hələ kəndin qırağındakı – məktəbin bağındakı qoz ağaclarını da bircə-bircə tanıyırdı. Bilirdi ki, hansından taxt, hansından taxça, hansından beşik olar. Amma bu ağacı heç tanımırdı; bu qədər gözəl, həm də bu qədər yabanı bir qoz ağacı ha?! Həm, Afiqin dediyinə görə, Usum oralarda ikinci qoz ağacı görməmişdi, bircə buyuymuş, bunu da kəsib gətirib.

Baxa-baxa qalmışdı Usta İbrahim... Əlləri işə tələsir, ürəyi işini yarıtmağa hövllənir, gözləri yabanı gözəllikdən doymadığını deyirdi. Üç yol ayrıcında dayanan Ustanın əlacı olsa, dördüncü yolu çəkərdi; ağacı söylədər, o meşəyə Usumdan neçə il qabaq kimin ayağı dəydiyini, onu o qürbətə kimin apardığını öyrənərdi. Bunu elə arzulayırdı, elə arzulayırdı, Şəyird Əhmədin yarımağıl oğlunun tutması tutub yayın ortasında qar arzulaması bunun yanında heç nəyiydi...

O günü əlini ağaca vurub işə başlayammadı Usta İbrahim. Axşamı da fikirli-fikirli yola saldı, qarşısında heyrətə düşdüyü bir şey gördüyündən əmin idi, amma bilmədi ki, bu heyrətamiz olan nə idi? Hansı sehr, hansı açılmaz qapı, hansı hörüktutmaz saç idi? Anşırdammadı... Gecə başını mütəkkəsinə söykəyib yatanda da ağacı düşündü, qəfil getdiyi yuxudan bayquş səsinə diksinib oyananda da ağac ağlındaydı. Yerinin içində oturub bayquşun ulartısını saydı; sonunda tək gəldi. Durub əl-üzünə su vurmaq üçün eşiyə çıxanda dan ağarırdı. Odunlar həyətin ortasındakı ala-qaranlıqda gümüşü rəngdə görünürdü. Usta bir odunlara, bir axşamdan eşikdə qalıb nəm çəkmiş pitik döşəkçəsinə, bir də hacatlarını yığıb rahladığı ayın-oyun damının qaralan təkgöz pəncərəsinə göz gəzdirdikdən sonra dərindən köks ötürdü. Yaxınlaşıb dizini odunların yanında yerə qoydu, əlləriylə odunları sığallamağa başladı. Hər sığalda ovuclarının içində incə bir doğmalıq duydu; sanki ağac bilirdi ki, bu qapıya sandıq olmağa – ömrünü bir insan övladının ömrünə qatmağa gəlib...

***

Afiqin qapısında yüklənən cehiz maşını üzü Gəncəyə yola düşürdü. Üç gün– üç gecə çalınan qız toyu dünən başa çatmışdı, axşamdan oğlan evinin yarısı yol başlamış, gəlindən qabaq çatıb darvazanı açıq qoymağa tələsmişdi. Yarısı da bu gün gəlini aparacaq, cehiz maşınlarına yol

göstərəcəkdi. Qız evi isə sabah yola çıxıb birisigün başlayacaq oğlan toyuna çatacaqdı.

Kənardan baxana elə gələrdi ki, bu qarışıqlıqda heç nə yerini tapmaz, ala şala qarışar, yaşıl qırmızını yeyər. Əslində isə, kainatın özü kimi kələfi dolaşıq görünən kənd toylarının nizamının sirri hər kəsin öz işini bilməsi, bu işi görmək üçün başqasından buyruq gözləməməsiydi. Bütün toyların kalapırını Anbardar Vəli, dolmasını Leyli arvad, dovğasını Çəmən, kompotunu da Sənəm bişirərdi. Mağarı bu il əsgərliyə gedəcək olan oğlanlar qurar, masaları gənc qızlar bəzəyər, gəlin-bəy guşəsini nişanlılar nizamlayardılar. Bütün qızların, qadınların yaxasında Güldərənin tikdiyi önlüklər, ocağın qırağındakıların əlində naxışladığı, hövələdiyi qazantutan olardı...

...Hələ məktəbliydi Güldərən, amma kənddə az adam tapılardı ki, Xatın arvad demiş, "cırığını Güldərən yamamasın". Elə Xatının özü hər həftə gah özünün, gah ərinin, gah da bircə qızının pal-paltarını qoltuğuna vurub Güldərəngilin qapısını kəsdirirdi:

– Başına dönərəm, a Güldərən, anana deynən, sənin əvəzinə bir ətək yun didərəm mən, kişiciyəzin gödəkçəsinin astarı dartılıb cırılıb, bir onu bərkit...

Yaxud:

– Bax, kişiciyəzə demişəm, bu dəfə meşədən səninçün əzgilin qəşəngindən yığıb gətirəcək... Qız dünən məktəbdən ağlaya-ağlaya gəlib ki, donumun kövəsi sökülüb, uşaqlar gülüb... Dərdin dağdakı dağdağana, gör neynirsən...

Payıza toy niyyətləyən yazdan Güldərəngilə baş çəkər, önlük, qazantutan, süfrə üçün hansı parçadan alınacağını bəri başdan ona gənəşərdi. Hələ hazır alınmayan cehizliklərin əskik qalanları, toy üçün, vay üçün geyiniləcək bayırlıqların tikilməsi üçün də Güldərənin qara maşınının yanını kəsdirənlər olurdu... Bütün bunlar bir neçə ilin içində baş vermişdi; indi kimdən soruşsan ki, ilk dəfə kimin toyunda Güldərən önlük tikib, yaxud ən birinci kimə tikdiyi qazantutanlardan, kisələrdən pay verib, heç kim xatırlamazdı. Güldərənin qara maşını insanların həyatına elə daxil olmuşdu ki, sanki hamı onun tıqqıltısına oyanmışdı bir səhər... Sadəcə, o səhəri Tanrının hansı xoş vədəsində günlərinə calamışdılar, bilmirdilər...

Toylarda mağarın başından – gəlin-bəy guşəsindən asılan, üstünə pambıqla "XOŞ GƏLMİŞSİNİZ" yazılan yerliyi saya qırmızı olan ən iri gəvə də Güldərəngildəydi... Əvvəllər üstündən birbaşa mismar çalınan gəvəyə Güldərən indi qəşəng ilgəklər tikmişdi, toya gəvə yığanlara da bərk-bərk tapşırardı ki, ilgəklərin sayına uyğun mismar vurub, gəvəni ilgəklərindən assın... Son vaxtlar bu xatırlatmasına gərək qalmırdı; artıq hamı yerliyi saya qırmızı gəvənin ilgəkləri arasındakı ölçünü də əzbərləmişdi...

...Bütün bu nizamın, yerli-yerində olan hər şeyin bir də ucalan səsi vardı; üzüyuxarı Kamandar çayına çatırdı bu səs, üzüaşağı Tatara gedən yolun başına... O qarışıq səslərin içində bu gün hamının dilində həmin gün toyu çalınan gənclərlə bağlı yarınisgil, yarıgülüş dolu xatirələr burum-burum burulardı.

Afiqin qızının toyundakı yeganə əskiklik kənd adamlarının yaddaşında bəylə bağlı heç bir xatirə olmamasıydı; oğlan evindən heç kimi tanımayan həmkəndlilərin gücü elə qızın uşaqlığından, qoçaqlığından danışmağa çatırdı:

– Ay qız, yadındamı, məktəbə gedəndə anası saç tapmamışdı başında hörə, ucunu bağlaya?

– Hələ onu deyirsən, Zemfiranın qızının toyunda ortaya çəkdim ki, gəl oyna, utandığından ağladı.

Bir başqası ocağın yanından səs verirdi:

– Seyfinin oğlunun toyundan geri qayıdan qara qazanım varıydı, apardım bulağa, sürt ki sürtəsən, açılmadı hisi. Bir də gördüm, yığvalı ağarmış, budu, gəlir. Elə bircə "yorulmuyasan" dedi, çəkdi qazanı aldı əlimdən, nətəhər elədi, neynədi, ikicə dəfə əl çəkdi, qazan oldu ağappaq.

Çörək doğrayanların içindən biri dillənirdi:

– O təhəri qızı da verdilər qürbət elə, elə bil kənddə oğlan yoxuydu...

Sözün bu yerində Leyli arvadın səsi qılınc kimi havanın bağrını yarırdı:

– Kirişin bir hovur! Günü-baxtı ağ olsun, ayağı sayalı, əli xınalı olsun! Sandığının qapısı açılmaqdan yağdan düşsün, barxanasının mitili

çıxsın, təzə paltarı cırılsın, təzə donluğu qat kəsməsin! Bəxt yazan özü ömrünü qırmızılasın! Amin!

Hamı əlini işdən çəkib bir ağızdan: "Amin!" deyirdi... Bir neçə dəqiqə səssizlik çökür, sonra kimsə yenə başlayırdı:

– Yadında qalar sənin, ay Şükufə, İmanın toyunda necə səliqəylə doğramışdı dovğanın göyünü yarımış...

...Belə başlamış, belə sona çatmışdı Afiqin qızının toyu. Bir iri yük maşınında cehiz gedirdi, bir balaca maşında da cehiz boşaldanlar. Yük maşınına sığışmayan bəzəkli, naxışlı, içi dolu cehiz sandığı balaca maşının üstünə keçi qılından hörülmüş nehrə çatılarıyla bərk-bərk bağlanmışdı. Maşınlar siqnal verə-verə döngəni dönüb arxalarınca anlıq xatirələr kimi tozanaq qoyanda yenə səs-küy başladı:

– Gördünmü nə yaxşı sandığıydı?!

– Bə nə! Usta İbrahimin əlləri qızıldı, gələn ilə mən də birini qıza düzəltdirəcəyəm.

– Bə deyirdilər, kişinin nəfəsi təngiyir, nətəhər düzəltdi bu dar zamanda bu yekəlikdə sandığı? Hələ bəzək-düzəyini demirəm...

– Qulağını çək, cırığına-cındırına gül, ay qız, iraq olsun, nolub ki Usta İbrahimə? Qoca kişidi, arada nəfəsi tıncıxır, açılır. Kəndin tutan əlidi, heç nə olmasın denən.

– Bıy aaa... Demədim ki, nəsə olsun. Mən deməknəndi?! Hələ mənim də gözüm onun əlindədi, uşaq əsgərlikdən gələnə bir iri taxt düzəltdirəm gərək. Kasıb Allahverdinin qızını istəyir, ondan cehiz umammaram mən...

Sözü həmişə kişi-qadın, qoca-cavan gözləmədən "şıpp" deyə üzə dediyinə görə "Arsız" ləqəbi almış Narıngül arvad maşınların arxasınca atdığı bir ovuc buğdaya uçuşan sərçələrə baxa-baxa dedi:

– Anası, nənəsi o sandığı yaman doldurdu, başı ucadı qızın. Onu-bunu bilmirəm, mənim gözümdə ən urvatdı cehiz elə o sandıqdı. Özü də yaxından baxdım, üstünə zümrüd quşunun qızıl qanadlarını çəkmişdi Usta İbrahim.

## II

Gəncə çayının sol sahilindəki dar dölmələrə aparan xırlı küçəyə ayaq basmazdan qabaq gərək biləsən ki, hansı qapı kimindi. Yoxsa ayaqların kimi fikirlərin də dolaşar, dölməyə girdiyini yadına salsan da, haçan dolanıb çıxdığını xatırlayammazsan. Əgər yolu oraya düşən bir nabələd adam varsa, mütləq Əttarlar küçəsindəki balıq mağazasının qabağında dayanmalı, başını açıq qapıdan irəli uzadıb Mikayıl kişiyə: "Bazar olsun!" – deməlidi.

Səbirlə Mikayıl kişinin handan-hana boğazını arıtlayıb:

– Kimi axtarırsan? – sualını verməsini gözləməlidi.

Əttarlardan üzü çaya yemlik yarpağı kimi həzincə burulan dölmələrdə kimə hansı qapı lazımdı, üstəlik, o qapını saat neçədə döymək daha urvatlı olar, Mikayıl kişi bunları hamıdan yaxşı bilirdi. Sakinlərin "Adam körpüsü" dediyi "Dəmir körpü"dən basalağa girənlərin isə körpünün böyründə stəkanla günəbaxan tumu, türk fıstığı satan Haqqı arvadın yanında ayaq saxlamaları bəs edirdi; bu tərəfin səmt ağacı da o idi...

Təkcə Güldərən nə Mikayıl kişinin balıq mağazasının, nə də Haqqı arvadın vedrəsinin yanında ayaq saxlamırdı; başını aşağı salıb fikirli-fikirli Əttarlardan girib körpüdən o yana çıxır, yeni tapdığı işinə tələsirdi. Yol boyu beynində hələ almadığı maaşı qəpiyinəcən ölçüb-biçir, dörd balasının əyər-əskiyinə yarım-yamalaq da olsa, çatdırammırdı. Özü demiş, "yüyürə-yüyürə" ürəyini Yaradanına açıb-tökür, hər ay sonunda yarısı kreditə çıxılan təqaüdünü alanda iki dəfə şükür edirdi: biri üzü göyə, biri də üzü bankomata...

Axşam geri qayıdanda isə hava artıq toranlaşır, dölmədə oynayan uşaqlar evlərə çəkilir, yarıaçıq pəncərələrdən eşiyə bir-birinə qarışmış yemək ətriylə bərabər, televizorların səsləri axırdı. Küçə işıqları olmayan dölmələrdən pəncərələrdən süzülən əlçim-əlçim işıqların havasına yeyin addımlarla evə çatmağa tələsən Güldərən bu dəfə də burnuna dəyən yemək ətirlərini seçir, evində hansı

yeməyi bişirmək üçün nəyin olub-olmadığını yadına salmağa çalışırdı. Kələm dolması qoxusu alsa, yadına düşürdü ki, düyüsü var, əti yox... Bir başqa gün isə buzluqda bir büküm çəkili ət olduğuna sevinən kimi dolmalıq kələm almağa pulu olmadığını xatırlayırdı... Beləcə, günləri bir-birinin üstünə hörməklə öz ömür divarını bərkitdiyini sanırdı. Ümidi onaydı ki, balaları ən çətin anlarında çiyinlərini bu divara söykəyə biləcəklər...

...Bu gün də Əttarlardan girib "Adam körpüsü"nə çatmağa tələsirdi. Ayağındakı parça ayaqqabısının altı nazilmişdi, deyəsən; iri xırlar ayağını yaman incidirdi. Gərək bu aykı maaşın hesabına özünə bir ayaqqabı da alaydı. Almalıydı, amma beynindəki hesabda hansı balasının payından kəsməliydi? Bu an dünyanın ən çətin sualı bu idi Güldərən üçün...

Bunu düşünə-düşünə üçüncü dölmənin başına çatanda qeyri-ixtiyarı başını sağa döndərdi, bircə baxış bəs elədi ki, dizlərindən daş asılmış kimi yerindəcə quruyub qalsın. Gözlərini bərk-bərk yumdu, sonra da ehtiyatla açdı; səhv görməmişdi... Mavi darvazanın eşiyindəki sandığı tanıyırdı... Tanıyırdı, amma hardan? Ürəyindən kövrək bir nisgil burula-burula qalxdı, yaddaş ağacının budaqlarını tələsə-tələsə silkələdi, xatirələrinin dolaşmış, bir-birinə qarışmış kələfinin içindən tapdığı sözlər dilinin ucundan özünü eşiyə atdı:

– Afiqin qızının zümrüd quşlu sandığı...

Bir istədi gedib mavi darvazanı döysün, Afiqin qızını soruşsun, qəfildən ağlına gələn fikirdən ürpəndi:

– Sağ olsaydı, qoyardımı sandığını darvazadan eşiyə?! – deyə pıçıldadı öz-özünə və köksünü ötürüb yoluna davam etdi...

***

Güldərən pıçıldamışdı, amma sandığın qulağına bir inilti çatmışdı illərin o tayından... Neçə ildi, eşitməmişdi belə inilti, eşitsəydi, xatırlayardı. Bu inilti nənə palıdın bala dərdini yadına saldı onun, bütün budaqlarının, barının-bəhrəsinin xətrinə bir budağının düymələrini qurban verən fıstıq ağacını düşündü... Yalnız indi anladı ki, neçə ildi arzusuna çatmağın xoşbəxtliyində, sadəcə, xumarlanırmış. Hə, "Ölüm dərəsi"nin sağ yaxasındakı qərib gəncliyində budaqlarını açıb bütün varlığıyla dilədiyinə çatmışdı: ömrünü bir insan ömrünə calamışdı neçə ildi...

Usum onu görən kimi gözəlliyinə aşiq olmuşdu, nazını çəkə-çəkə doğramışdı budaqlarını, ovcunun içindəki qabarları gövdəsinə sürtə-sürtə ölçmüşdü, əvvəlcə cib bıçağıyla lazımi yerdə cızıq açmış, sonra balta çəkmişdi. Usta İbrahim hər hacata əlini atanda üzünü birinci göyə tutmuş:

– Yaratdığına şükür, Ulu Tanrı! – demişdi...

Afiqin qızı onu ilk görəndə sevincindən ağlamış, dizlərini yerə qoyub saçlarını qapağının üstünə sərmişdi. İllərlə ən qiymətli şeylərini ona əmanət etmiş, üstündəki zümrüd quşu rəsmini yaylığının ucuyla astaca tumarlamışdı... Qoymamışdı üstünə bir toz dənəsi qona... Qoymamışdı qız-gəlin bir dəfə döşəmə siləndə hikkəsini onun balaca üçkünc ayaqlarına çırpa...

Belə keçmişdi illər... Neçə dəfə qapağı açılıb-örtülmüşdü, heç saymamışdı da... Nəinki oğul-uşaq, hər nəvəyə də, bu yaxında ilk nəticəyə də pay çıxmışdı onun içindən. Hər dəfəsində də Afiqin qızı dilində min şükürlə, dodaqlarının ucunda kövrək bir təbəssümlə açmışdı qapısını, elə həmin şükranlıqla da ehmalca qapağı yerinə qaytarmışdı.

Nə xoş ömrə calanmışdı, Ulu Tanrı... İndi bilirdi qoz ağacı... İndi... Məhz elə bu gün... Bu sabah...

***

İşdə əlini nəyə atırdısa, elə bil illərin o tayına çatırdı qabarlı barmaqlarının ucu Güldərənin... Sandığı o mavi darvazanın ağzında görəndən bəri yüz dəfə o kəndə qayıtmışdı; gah Afiqin qızının toyunda qol qaldırıb oynamış, gah Narıngül arvadın sandıq haqqında dediyi sözləri eşitmiş, gah öz cehiz sandığını ilk dəfə gördüyü günkü kimi doluxsunmuş, elə o vaxtkı kimi də ağlamağa utanmışdı... Bütün bunların fövqündə də gücünün heç nəyə yetmədiyini anlamış, ürəyindən dönüb-dolanıb keçirmişdi ki, qayıdanbaş mavi darvazanı döysün, qapıya çıxana özünü tanıtmadan o sandığı istəsin... Amma özünü dansıtmağa da ayaq yeri saxlamışdı ürəyində:

– Aparıb hara qoyasıyam ey?! Heç öz gəlinimin cehizini yerləşdirəmmirəm, yazıq qudam borc-xərclə nə də gözəl cehiz alıb. Bu kirayədən o kirayəyə daşınıb qırılmasın deyə, yarımbükələk yarısı o bacımın qapısında, yarısı o qohumun zirzəmisində qalıb...

Tozunu sildiyi hər masada, hər kompüterdə öz sandığını tapmış kimi hiss edirdi bu gün... Həmişəki kimi cəld işləyəmmirdi, elə bil masaya dəsmalı bir az bərk çəksə, sandığının üstündəki topa çəhrayı güllərin rəngi solacaqdı...

– Çəhrayıydı o topa güllər... Hə... – təəssüfqarışıq əminliklə deyilən sözlərin təkzibi də gecikmirdi. – Çəhrayıydımı? Bəlkə, narıncıydı? Nəysə, bir cürə rəngiydi mənim sandığımdakı topa güllər...

Gah da ürəyinin dərinliyində Afiqin qızına həsəd aparırdı:

– Necə gözəl saxlayıb sandığını... Usta İbrahimin əlindən dünən çıxmış kimiydi. Bir naxışı da əyilməyib, bir boyası da rəng verməyib illərə. Görəsən, istəsəm, gəlini onu mənə verərmi? Eşiyə qoyublarsa, ya bu gün-sabah Gəncəçayın qırağındakı zibil çuxuruna atacaqlar, ya da elə yağış yuyub – gün qurudub hayıf eləyəcək... – tezcə də içində hövllənən nisgilin dərmanının Afiqin qızının sandığı olmadığını boynuna alırdı. – Yox ey... Mən Afiqin qızının sandığını istəmirəm... Məni öz sandığımın qədrini bilməməyim yandırır...

Belə vurdu günü başa Güldərən; gözlərində neçə bulud dolub-boşaldı, ürəyinə neçə şimşək çaxdı ömür payının üfüqlərindən... İşdən çıxanda bir istədi bu gün yolunu dəyişsin: "Adam körpüsü"nə dönməsin, elə üzüyuxarı qalxıb "Kukla teatrı"nın körpüsündən keçsin, Nizaminin heykəlinin yanından da üzüaşağı keçmiş Sabir küçəsinə girib kirayə qaldığı evə elə getsin. Di gəl, ürəyi onu sandığa tərəf çəkdi, ayaqları bir də sandığa çatanda dayandı. Pəncərədən düşən bir əlçim işıqda fərqinə vardı ki, sandığın üstündə yumaq kimi bükülmüş bir qarı oturub, kürəyini mavi darvazaya söykəyib, başını da sağ çiyninin üstünə əyib...

***

...Ömür dolaylarının lap aşağısında qalmış bir xatirə şəkli asmışdı o gün üçüncü dölmə öz yaxasına... Sandığın üstündə yumrulanıb oturan qarı elə bilirdi ki, yenə Bada türklərinin əcdadlarının izini itirdiyi o kənddədi, Güldərən gəlib ki, onu quşəppəyi yığmaqçün "tikilişin yanına" getməyə çağırsın... Şəklin Güldərən tərəfində isə qəşəng bir payız günüydü, Afiqin qapısından əvvəl cehiz maşını çıxırdı, ardınca da üstünə sandıq bağlanmış balaca maşın yol alırdı... Amma bu dəfə o maşınlar ard-arda tini burulub gözdən itmirdi, ha getsələr də, sandıq görünürdü; özü də bütün gözəlliyiylə...

– Sən də mi Gəncəyə yön saldın, a Güldərən? – dedi Afiqin qızı...

Güldərənə elə gəldi ki, nəinki məsafələrin o biri ucunda, ömründən ötüb-keçənlərin də əlçatmazlığında qoyub gəldiyi o kəndin səsini eşidir; hardasa bir bulaq axır, bir balaca kol küləkdən üşənib budaqlarını bir-birinin üstünə qarmaqlayır, bu qarmaqlanan budaqların arasında da bir birəbitdən quşu cikkildəyir...Və hamısı yığılıb bir bayatıya dönür, yumrulanır, köksünə yığılır...

Əzizim, bəndim ol, gəl,
Şəkərim, qəndim ol, gəl...
Ömrümü yaşamağa
Şəhərim, kəndim ol, gəl...

Sözlər ürəyindən hövllənir, boğazında düyünlənirdi Güldərənin... Di gəl, Afiqin qızının öz adı nəydi, xatırlayammırdı... Bilirdi ki, bir gül adıdı, amma hansı gülün? Bütün bildiyi gül adlarını yan-yanamı düzsün indi, yoxsa elə bildiyi adlamı – "Afiqin qızı" deyəmi çağırsın qarşısındakı bu doğmalığın öləzimiş halını? Çarəsi öləziyən doğmalığının kösövünü küldən çıxarmağa qaldı...

– "Deyirdin, Gəncədə kama yetərsən, indi bu mən, bu sən, bu da ki Gəncə..." – deyirdi yazıq Məhsəti...

– Bəxt dediyin bir daş atımıdı, atan fələyin özü də hara düşəcəyini bilmir... – Afiqin qızının sözləri çinar yarpaqlarının xışıltısı kimiydi...

– Hə... – dedi Güldərən...

...Nə vaxt sözə unutduqlarını sandıqları, amma unutmadıqları kənddən başladılar, bir-birinin ömür yoluna bircə baxış atmadan, bircə "heyif" demədən nə vaxt qocalığa çatdılar,

bilmədilər, sadəcə, sözlər bir-birinin arxasına düzülür, yaddaşlarının içindəki dolaşıq kələf adda-budda çözələnirdi...

– Nabat arvad yadındadımı?

– Həmişə köhnə-külüş geyinərdi... Bir gün qoltuğunda iki top donluq qapıya gəldi. Dedi, bunlardan mənə qəşəng don tik. Yanımda oturdu, başladım ölçüb-biçməyə. Mən ölçüləri aldıqca yana-yana danışırdı ki, Çardaxlıya ölü yerinə gedibmiş. Gedəndə görüb ki, ölən arvad ən təzə donunu geyinib durub qapıda. Deyib, "bıy başıma xeyir, bə biz ölü yerinə gəlmişik axı?!" Evin gəlini də qayıdıb ki, "day ölüb gedib də qayınanam. Açdım sandığını, elə baxdım, bu don qəşəng su götürər, evi-eşiyi sildim. Döşəməsilən ağaca taxıb qoymuşam günə qurusun". Nabat arvad da bir əynindəki iyirmi illik donuna baxıb, bir taxtadakı dona, bir də otağın başında qoyulmuş şəklə... Evə çatan kimi açıb sandığını, iki top parça gətirib ki, bütün olan-qalanını geyinib cırsın, öləndə gəlinə nə təzə don, nə də təzə donluq qalmasın...

– Ulu Tanrı səni qorusun, ay Güldərən...

– İnanmıram ki, Ulu Tanrı yaza bizə bu qara günü...

Yarıaçıq pəncərədən eşiyə boylanan sarısaç, sinəsi açıq cavan gəlin qışqıra– qışqıra üzünü Afiqin qızına tutmuşdu:

– Ay arvad, orda ona-buna az qeybət elə, gəl, çörəyini ye. Bir azdan serialım başlayacaq, sonra məni yarımçıq qaldırma divandan!

Güldərən asta-asta Əttarlara tərəf yoluna davam etmişdi. Ayağının altında hiss elədiyi hər iri xır dənəsi ürəyinə çırpılırdı...

***

...Hər axşam üçüncü dölmənin yaxasından asılan ağ-qara şəkildə yeni bir xatirə göyərirdi... Elə ki Güldərənin köhnə parça ayaqqabıları sandığın önündə itaətə gəlmiş kimi cütlənirdi, Afiqin qızı qırışmış əlləriylə alnına düşən iki tək-bir cüt ağ saçını yaylığının altına itələyir, xatirə dolabının kənd siyirməsinə üz tutur, içindən kimi tapsa, onun adını çəkirdi:

– Bir Mərvə arvad da varıydı... Türk Kübranın anası...

– Yazıq... Onunku ayrı cür dərdiydi çəkirdi...

– Nətəhər demişdi yazıq günlü?

– Axıska qaçqınlarıydılar yazıqlar... Bir əl Axıskadan Fərqanəyə sürgün olunmuşdular, bir əl də Fərqanədən Azərbaycana. Bir gün Kübra dedi ki, ana, ərimin bütün qohumları Sarıtəpədədi, bircə bizik, bir də sənin bacın oğludu bu kənddə. Biz Alının xətrinə Sarıtəpəyə – onun qohumlarının yanına köçməliyik... Mərvə arvad bir xeyli əllərini üst– üstə qoyub fikrə getdi, üzündən görünürdü ki, iki qapı arasında qalıb, bilmir, hansından keçsin. Bir qızının üzünə baxdı, bir əlini cibinə atıb bacısından qalan toxunma dəsmalı götürüb gözlərinə çəkdi, handan-hana dedi: "Qızım, heç mənim xətrim yox?"

– Nə ağlamalı dərdiymiş... Bir kərə qabağında oturub ağlamamışıq...

– Ağlamağa yaş da varıydı o vaxtlar...

– Yaş dərdi yuyurdu sanırdım, yumur, a Güldərən...

– Dərdin yediyi kimi adamı heç nə yemir...

– Dəli Qumaş da xatirinə gəlirmi heç?

– Hə... Amma qovuram onu xatirimdən...

– Elə od qaladı ki, bədbəxtin qızı, qovsam da, getmir, inanırsanmı?

– Qovduqca gəlib oturur günümün ortasında... Elə hey giley eləyirdi ki, uşaqlarım naxələfdi. Hamı bir ağızdan: "Kiri!" – deyirdi, heç deyəni olmadı ki: "Bir hovur danış, bağrın çatdamasın..." Altı uşağın hansının qapısına gedirdi, yerdə qalan beşi yığılıb ora gəlir, "pensiyandan bizə də ver" – deyib dava salırdılar. O da naəlac qalıb qayıdır öz evinə, tək-tənha pilləkənin başında oturur, qonum-qonşunun ovcunda gətirdiyini yeyirdi. Ürəyi qaynadıqca da uşaqlarının qapısına gəlməməyindən, gəlinlərin pulunu xərcləyib onu bəyənməməsindən, qızların da ancaq ya yükdən bir yorğan, ya da əldamından bir mis sərnic aparmaqçün qapıdan girdiyindən danışardı. "Dəli Qumaş" deyirdilər, amma yazıq gününü anladırdı... Yadımdadı, Çiçək arvadın nəvəsi Yusif qaça-qaça xəbərə gələndə ki Qumaş arvad özünü armud ağacından şələ çatısıyla asıb, anam dizlərinə döymüşdü... Lələm də əlağacına söykənib demişdi: "Canını götürüb getdi bədəsil övladların əlindən yazıq... Ta bilirdi ki, heç kimə lazım döy..."

– Nə pis şeyiymiş heç kimə lazım olmamaq, a Güldərən...

Yarıaçıq pəncərənin o üzündən hikkəylə döşəməyə çırpılan ayaq səsləri gələndə Güldərən dinməz-söyləməz üzünü çevirir, addımlarını yeyinlədirdi...

***

Beləcə, günlər keçir, Güldərən hər axşam yuxuya getməzdən qabaq kirayə evlərdə yer tapmadıqca o qapıya-bu qapıya göndərdiyi sandığını hər dəfə bir rəng itirmiş, bir az da yüngülləşmiş tapdığını xatırlayırdı. Oğlunun köhnə köynəyindən tikdiyi yastıq üzünə axan göz yaşlarının həqiqiliyinə inanmayaraq əliylə yoxlaya-yoxlaya da yuxuya gedir, bir də səhər ertə susatan Rəcəbin maşınının tırıltısına oyanır, işə tələsirdi.

...Sonuncu dəfə kimin qapısına qoymuşdu sandığını? İçini təmiz boşaltmışdımı? Bu gün yuxudan durandan bu suallar beyninin içində bir-birini qovur, düşüncələri bir bacısının qapısından girib, o biri bacısının pəncərəsindən çıxırdı. Gümanı yenə uzaqdakı qızına gəldi, bilsə-bilsə, sandığın yerini o bilərdi; qərib xatirələrə qarşı yaman həssas idi. Əlini telefona uzadıb qızının nömrəsini yığmaq istədi, tezcə də xatırladı ki,  qızı hələ yuxuda olar. Zəng edib oyatmağa qıymadı, düşündü ki, haçan özü yığsa, sözarası soruşar. Əlacı yenə öz-özünə təsəlli verməyə qaldı:

– Belə qəfil soruşsam, bunu da özünə dərd edər uşaq... Deyər, görən, anamın nəyi itib o sandığın içindən yenə?

Fikrinin bir ucunu qızına bağlayıb evdən çıxmağa hazırlaşırdı ki, qəfildən anası yadına düşdü. Qayıdıb gəlininə dedi:

– Oğlum evə gələndə  soruş, gör, bu həftə nə vaxt boş olar? Dördüncü gün anamın ilidi, işdən icazə alaram, qəbir üstünə gedərik.

– Baş üstə, ana. Deyərəm, lap o da işdən icazə alar həmin gün.

Gəlininin Afiqin qızının təzə-köhnə gəlinlərinə oxşamadığına görə ürəyində şükür edə-edə pillələri endi, darvazaya çataçatda dönüb geri baxdı. Gəlin mətbəxin pəncərəsindən baxıb gülümsəyirdi. O da gülümsədi...

...Üzündəki o xoş və şükranlıq dolu təbəssümüylə günü başa  vurub “Adam körpüsü”nə çatdı. Haqqı arvadın yanına yığışan arvadların içində gözünə bir tutamlıq sarı kəkil dəydi, addımlarını yeyinlətdi. Əgər zənni doğruydusa, Afiqin qızıyla bir az artıq söhbət edə bilərdi; bu gün ürəyi doluydu, anası yaman yadına düşmüşdü.

– A Güldərən... Sənə nə deyirdilər, bilirsənmi? Elə ki qoşa hörüyünü çiyinlərinə atıb o toyun körpüsünü keçirdin, əmidostum qayıdardı ki, Gül Dərənin Güldərəni yenə gedir gül dərməyə...

– Baratəli babamgilə gedirdim o toya...

– Bilirdik... Amma əmidostum elə deməliydi... Deməsəydi, olmazdı...

– Üç solmaz çiçəyi var evdə yaylığımın arasında... Kənddən yığmışdım...

– ... Anan dururmu?

– Bu dördüncü gün ilidi...

– Yaman xətir istəyən arvadıydı...

– Ondan sonra xətrini ölçəcəyim adam tapmıram bir ildi...

... Hər ikisi susdu... Üçüncü dölmə nimdaşlığından silkələnib ayılmaq istəyirmiş kimi Gəncəçaydan üzübəri əsən sərin küləyi qucaqlayıb sinəsinə sıxmaq istədi; külək də dinc durmadı, yerdən bir ovuc toz qaldırıb mavi darvazanın başının üstündən içəri atdı. Afiqin qızı səksənən kimi oldu, əyilmiş barmaqlarını bircə-bircə sığallayıb dilinin altında nəsə oxudu, sonra hər iki əliylə sandığının qapısını sığallaya-sığallaya dedi:

– Mənim xətrim üçün...

– ...Bu dölmələr kəndimizə oxşayır bir az...

– Sabah gəl, bu sandığı apar... Xətrim üçün...

– ...Havası da sərinləyir buraların nəfəs-nəfəs...

– Səninləyəm... A Güldərən, sabah bu sandığı apar, yiyə çıx.

Dölmənin ucunda bir tutam sarı kəkil görünəndə Güldərən dinməzcə sandığın qabağından ayrıldı. Evə gedə-gedə beynində yenə öz sandığıydı. Bu dəfə sandığında Afiqin qızının sandığına oxşayan naxışlar axtarır, gah

naxışları eyniləşdirir, gah da rəngləri bir-birinə yaraşdırırdı. Köhnə Sabir küçəsinin ayağına çatanda telefonu zəng çaldı, baxdı, uzaqdakı qızıydı.

– Alo? Anam?

– Axşamın xeyir... Neynirsiniz?

– Nənəm yaman yadıma düşüb. Tikdiyi tikmələrdən varmı səndə?

– Biri qalıb...

– O vaxt sandığında üçünü görmüşdüm mən.

– Hər qız öz payını apardı, səninki qalıb məndə.

– Sandığını da xalamın əri doğrayıb toyuq taxçası düzəltdi o ili... Nənəmin tikmələri, bizim kəlağayılarımız da ondan sonra didərgin düşdü...

– ...

– ...Deyəsən, yorulmusan, sağollaşaq, sabah yenə yığaram...

Telefon keçdi... Amma Güldərənin qulağına sandığından düzələn taxçalardakı toyuqların qanad çırpıntıları, bir də Afiqin qızının səsi gəlirdi: "Mənim xətrim üçün... Bu sandığı apar... Yiyə çıx..." Bu səslərin qarışığında Güldərən sandığı qoymağa yer axtarırdı; görəsən, kirayə qaldığı basırıq evdə o sandığı hara qoya bilərdi?



***

Üçüncü dölmədəki mavi darvazadan çıxan orta yaşlı kişinin üzündə yarıkədər, yarıheyrət bir ifadə vardı. Sanki o, nəyisə – çox qiymətli bir şeyi itirmişdi, axtarırdı, amma harda axtaracağını bilmirdi. Bir az o yana-bu yana döyüküb sağ əlini darvazaya söykədi, sol əliylə ürəyinin üstünü tutub yanğılı bir "ah" çəkdi... Başını qaldırıb göy üzündə adda-budda görünən ulduzlara baxdı. Əlini darvazadan çəkib salavat çevirdi, səndələdi, birtəhər özünü sandığın üstünə saldı...

Yarıaçıq aynadan sarısaç bir gəlin boylandı:

– Papa, papuşka... Mamuşka deyir ki, mağara zəng elədin?

Kişi astaca:

– İndi yığıram... – dedi.

Sonra telefonunu çıxarıb bir nömrə yığdı, qulağına tutub danışmağa başladı:

– Axşamın xeyir...Üstünə sağlıq, anam indicə rəhmətə getdi... Hə, elə mağar üçün zəng eləmişdim. İndidən qurulsa, gecə yol gələnlər hazır süfrəyə keçərdi... Yaxşı... Yarım saatamı? Eşikdəcə gözləyirəm... Nə yoxdu? Samovara odun?... – susub zəndlə dölmənin sonuna baxdı; qaranlıqda görməsə də, bilirdi ki, orda – Elman kişinin qapısının ağzında yarıqurumuş bir gavalı ağacı var. Əlini özünə dayaq verib ayağa qalxmaq istədi, amma əli qızıl ilana toxunmuş kimi diksindi. Telefonu qulağından çəkib işığını sandığa saldı, əliylə bir az qapağını, qıfıl yerini yoxladı, sonra telefonu qulağına tutub dedi: – Narahat olma, burda bir sandıq var, indi uşağa deyərəm, doğrayar, sabahadək samovarı görər... Ay sağ ol, sabah da uşaqları Aşıqlıya göndərib odun gətirdərik...

***

...Qoz ağacının ürəyinə qəribə bir sərinlik çökmüşdü... Nə eşitdiyini yaxşı bilirdi; onu doğrayıb oda atacaqdılar, amma ürəyi yaman səriniydi... Ömrünü bir insan övladının ömrünə xoş calamışdı... İndi o ömür bitmişdi, onunku da bitməliydi... Mavi darvazadan çıxan gəncin əlindəki balta yarıaçıq pəncərədən düşən işıqda parıldayanda ağlından keçən son fikir bu idi:

– Görəsən, bu gecə ehsanlıq samovar çayından Güldərən də içəcəkdimi? Afiqin qızının xətri üçün...



# *Aysu Sahibqızı*

## *"Musiqi əfsanələri"*


















ISNN 0134-522
İNDEKS AZ 1000  2 AZN



ULDUZ_AYLIQ_EDEBIYYAT_DERQISI